Pambıqyığan kombayn
John Deere 9970

İSTİSMAR TƏLİMATI

GİRİŞ

Bu təlimatı diqqətlə oxuyun ki, kombaynın istismarı və texniki xidməti işlərini düzgün yerinə yetirə biləsiniz. Əks halda zədələr və avadanlığın sıradan çıxması ilə üzləşə bilərsiniz. Bu təlimat sizin kombaynınızın ayrılmaz hissəsi kimi operatorun kabinasında münasib bir yerdə qorunmalıdır.

Maşının sağ və sol tərəfi onun hərəkət istiqaməti üzrə müəyyən edilir.

Bu pambıqyığan kombayn yalnız kənd təsərrüfatı işlərində „Təyinatı" üzrə işlədilə bilər. Pambıqyığan kombaynda işləməyi, onun xidməti və təmirini yalnız bu kombayn haqqında geniş biliyə və məlumatlara malik olan şəxslər görə bilərlər. Hər hansı bir şəraitdən asılı olmayaraq təhlükəsizlik texnikası qaydalarına ciddi riayət olunmalıdır. Kombaynın konstruksiyasına istismarçı tərəfindən edilən hər hansı bir dəyişiliklərə istehsalçı cavabdehlik daşımır. Pambıqyığan kombaynla işləmək , onun xidmətini və təmirini yalnız kombaynın xarakteristikası və təhlükəsizlik texnikası qaydaları ilə yaxından tanış olan işçilər tərəfindən aparıla bilər. Hər hansı bir şəraitdə təhlükəsizlik texnikası qaydalarının, sənaye gigiyenası, həmçinin yol hərəkət qaydalarının tələblərinə riayət olunmalıdır.

Simvollar

Aşağıdakı şəkillərdə qrafiki simvollar verilmişdir.



Giriş

1. Təlimata bax
2. Baxış
3. Row- Trak naviqasiya sistemi
4. Ötürücü
5. Süzgəci dəyişin
6. Şüşətəmizləyən
7. İşə başlamazdan əvvəl təlimatı oxuyun
8. Müvəqqəti interval
9. Arxa ötürməyə keçidində xəbərdaredici siqnal
10. Hidravlikanın dəstəyi
11. Sürətlər qutusunun süzgəci
12. Bucaq dayağın monitoru
13. Kabinaya daxil olun
14. Yivi yağlayın
15. Şnek
16. Elektrik birləşmələr
17. Transportyorun zəncirini yoxlayın
18. Daxili işıqlandırma
19. Dayanacaq tormuzu buraxın
20. Qoruyucu
21. Bunkerin tronsportyoru
22 Elektrik enerjisi
23. Şupu yoxlayın
24. Hidravlik yağ
25. Dayanacaq tormozu buraxın
26. Tormaz sistemi
27. Siqnal
28. Kondisioner
29 Yağın süzülməsi
30. Yağ radiatorunun tənzimlənməsi
31. Qabaq gediş
32. Radiatorun karterində yağın yoxlanması
33. Bağlayıcı
34. Qəza xəbərdaedici siqnallar
35. Yağ əlavə etmək
36. Konsistent yağın bir püskürməsi
37. Bunkerin lampası
38.Yığıcı aparat
39. İşçi fara
40. Fara
41. Şpindellərın təmizləyiciləri
42. Yağlama materialı
43. Aparıcı arxa körpü
44. Akkumulyator batareyası
45. Çubuq
46. Pambıq ventilyatorunun idarəetmə bloku
47. Hündürlüyü göstərən
48. Şpindelin təmizləyici süzgəci
49. Təmizləmək
50. Dəyişən cərəyan generatoru
51. Mailliyi qeyd edən indikator
52. Yanacaq
53. Tozlandırıcı forsunka
54. Fırlanan ventilyator
55. Süzgəc
56.Şplint
57. Pambıq ventilyatotu
58. Ölçü cihazları
59. Bunkerin üstü
60. Pambıq ventilyatorunun açarı
61. Mühərrik.
62. Motorun süzgəci
63. Aşağı təzyiq
64. Yolda hərəkət etmək
65. Pambıq bunkerinin qalxması
66. Motor yağının əlavə olunması
67. Mühərrikin soyuducu mayesi
68. Mühərrikin hava süzgəci
69. Mühərrikin idarəetmə bloku
70. Mühərrikdə nasazlıq
71. Boş gedişin aşağı dövrlər sayı
72. Motor yağının süzülməsi

Mündəricat

	Səh.
Giriş	1
1. Təhlükəsizlik texnikası	5
2. Xəbərdaredici təhlükəsizlik nişanları	13
3. Təhlükəsizlik qurğuları	21
4. Operatorun postu	22
5. Obkatka	34
6. Mühərriki işə salmazdan qabaq yoxlamaq	38
7. Maşının istismarı	40
8. Hündürlüyün izlənməsi	52
9. Nəmləşdirici sistem	54
10. Yığıcı aparatlar	68
11. Vari-Row sisteminin cərgəarası aparatları	83
12. Yığıcı aparatın monitor sistemi	89
13. Hava verici sistem	91
14. Bunker	93
15. Yağlama sistemi	94
16. Şassi	99
17. Kondisioner və kabina	106
18. Mühərrik və hərəkət transmissiyası	109
19. Təkərlər və şinlər	124
20. Akkumulyator batareyası	125
21. Yağlama və texniki xidmət	126
22. Nasazlığın aradan qaldırılması	167
23. Maşının qorunub saxlanması.....	188
24. Kombaynın texniki xarakteristikası.....	193

1. Təhlükəsizlik texnikası

Təhlükəsizlik texnikası haqqında məlumatlarla tanış olun

Bu nişan, təhlukədən xəbər verir. Əgər bu nişanı maşın üzərində və yaxud təlimatda görmürsunuzsə bilin ki, o zədənin alına biləcəyi haqda xəbərdarlıq edir.
Tövsiyyə olunan ehtiyat tələblərinə və təhlükəsizlik texnikası qaydalarına riayət edin.

Siqnal sözlərini yadda saxlayın

TƏHLÜKƏ

EHTİYATLI OLUN !

DİQQƏT !

Xəbərdaredici yazılar– “Təhlükə” , “Ehtiyatlı olun” və ya “Diqqət” – xəbərdaredici simvol kimi istifadə olunur. “Təhlükə” nişanı ən ciddi təhlükədən xəbər verir.
“Təhlükə” və ya “xəbərdarlıq” nişanları təhlükə mənbəyinə yaxın olan yerdə yerləşdirirlər.

Təhlükəsizlik qaydalarına riayət etmək

Bu təlimatda göstərilən bütün təhlükəsizlik texnikası qaydalarını diqqətlə oxuyun və onun tələblərinə əməl edin. Xəbərdaredici nişanları yaxşı vəziyyətdə saxlayın. İtirilmiş və ya zədələnmiş xəbərdaredici nişanların dəyişin. Maşının düzgün istismar edilməsini və idarəedici orqanların istifadə qaydalarını öyrənin. Təlim keçməyən şəxslər kombaynın istismarına buraxılmamalıdır.Maşını yaxşı istismar şəraitində saxlayın.

Kombaynın öz-özünə hərəkət etməsinin qarşısının alınması

Maşının öz-özünə hərəkət etməsi nəticəsində ciddi zədə almaq olar.
Starterin kontaktlarını qısa qapanma etməklə mühərriki işə salmayın. Bu halda kombayn ötürmələr qutusu birləşmiş vəziyyətində işə düşər.
Qəti qadağandır : maşından kənar duraraq mühərriki işə salmaq. Mühərriki yalnız mexanizatorun oturacağında oturmaqla işə salmaq lazımdır. Bu zaman transmissiya neytral vəziyyətində olmalıdır.

Avadanlığı işlədən zaman təhlükəsizlik texnikası

Pambıqyığan kombaynda , işləməzdən əvvəl bu istismar təlimatını mütləq oxuyun.
Maşınla yaxından tanış olmadan işə başlama. İş zamanı operatordan basqa kənar şəxsin orada olmasına imkan verməyin. Kombaynı tam dayandırmadan arxa istiqamətində hərəkətə keçmə. Kanallara yaxın yerlərdə işləmə.
Dönən zaman sürəti azalt. Nahamar yerlərdə aşağı surətdə hərəkət edin.
Çalalarda və çox mailli yerlərdə bunkeri boşaltma.
Bunkeri hava elekrtik xətlərin yaxınlığında boşaltma. Bunkerin qaldırılma vəziyyətində kombaynı hərəkət etdirmə.
Həmişə təhlükəsizlik qayşını bağla. Əgər transmissiyanın qolu neytral vəziyyətində qoyulmayıbsa, mühərriki işə salmayın.

Fırlanan hissələrə yaxınlaşmaqdan çəkinin.

Kardan val fırlanan zaman ona yaxınlaşma, bu ağır zədə və yaxud ölümlə nəticələnə bilər.

Transmissiya üçün qoruyucu örtüklər həmişə yerində olmalıdır. Əmin olun ki, bütün fırlanan hissələrin örtükləri sərbəst tərpənir.

Bədəninizə tam yatan paltarda işləyin. Avadanlığı nizamlayan, birləşdirən və təmizləyən zaman mühərriki söndürün və əmin olun ki, kardan birləşmələr ayrılmışdır.

Aşmanın qarşısını alın

Həmişə təhlükəsizlik qayışını bağlayın.

Kombaynın aşmasına səbəb olacaq çalalardan, kanallardan və maneələrdən yan keçin. Əsasən mailliyi çox olan yerlərdə və kəskin döngələrdə kombaynın sürətini azaldın.



Əl tutan yerlərdən və pilləkənlərdən istifadə edin

Yerə yıxılmaq şəxsi zədənin alınmasının əsas səbəbidir. Maşına oturanda və yaxud maşından çıxanda üzü maşına tərəf olun, pilləkənlə və əl tutan yerlə üç nöqtədə təmasda olun. Maşından kənara tullanmaq və yaxud maşına tərəf tullanmaq qadağandır.

Hərəkət edən kombayndan düşmək və yaxud kombayna minmək qadağandır.

Sərnisin daşınması qadağandır

Maşında yalnız operatorun olmasına icazə verilir. Sərnişin daşımayın. Sərnişin kənar əşyanın zərbəsi nəticəsində zədə ala bilər. Bundan başqa sərnişin operatorun görmə sahəsini azaldır və maşının idarə olunmasına əlavə maneələr yaradır.



Yanacaqla təmasda olarkən təhlükəsizlik qaydalarına riayət edin

Kombaynı yanacaqla dolduranda siqaret çəkməyin, bu yanğına səbəb olacaq. Yanacaq bakını açıq havada yanacaqla doldurun. Yanğının baş verməməsi üçün kombaynı təmiz saxlamaq lazımdır. Yerə tökülmüş yanacağı təmizləmək lazımdır.

Fövqəladə hallara həmişə hazır olun

Yanğının baş verə biləcəyinə hazır olun. Yanğın söndürən balonların üzərindəki təlimatı oxuyun və onun işlədilmə qaydası ilə tanış olun. Əlinizin altında apteçka və ya yanğınsöndürən balon olmalıdır. Həkimlərin, təcili yardım xidmətinin vaxtında çağırılmasını təmin etmək üçün onların telefon nömrələrini özünüzdə qeyd edin.



Təhlükəsizlik texnikası

Yanğından mühafizə qaydası

Yanğın təhlükəsini azaltmaq üçün aşağıdakı işləri yerinə yetirin.

Nizamlayın cərgəaralarında işləyən aq-reqatları və onlara texniki xidməti müntəzəm aparın.

Nəzarət edin ki, yığıcı aparatlara daş, zibil və sairə düşməsin. Bu qığılcıma səbəb ola bilər.

Aradan qaldırın yanacağın damcı-lanmasını nə qədər ki, onun üzərinə pambıq və zibil düşməmişdir və yaxud yanğına həssas olan qarışıq alınmamışdır.

- Elektrik xətlərinə yaxın yerdə bunkeri boşaltmayın
- Külək əsən istiqamətin əksinə pambığı boşaltmayın. Bu pambıq və zibilin mühərrik üzərinə düşüb yanğın baş verməsinə səbəb ola bilər.
- Neftdə isladılmış parçadan təmizlik işləri üçün istifadə etməyin.
- Gündəlik olaraq qızmış və boşaltmış podşipniklərin olmasını yoxlayın. Olarsa təcili dəyişin.

Hər gün kombaynın üzərində yığılıb qalan zibil və pambıq qırıntılarını təmizləyin. Bu həm yanğının qarşısını alır və həm də yanğının tez aradan qaldırılmasını təmin edir.

Yığıcı aparatlar

- Ayırıcılar
- Nəmləşdiricinin paduşkaları
- Sovurucu kameraların qapıcıqları
- Aparatların barabanları

Mühərrik hissələri

- Mühərrik
- Türbokompressor və xaricetmə sis-temi
- Generatorun süzgəci
- Starter

Şassi

- Mühərrikin kapotu
- Platformalı jatka
- Hidromodul
- Pambıq ventilyatorunun rotoru
- Sürətlər qutusu
- Tormoz barabanları

Bunker

- Bunkerin lövhələri
- Yığıcı barmaqların lövhələri

Təhlükəsizlik texnikası

Qoruyucu geyimlərdən istifadə edin

Bədəninizə tam yatan paltar geyin və gördüyünüz işə uyğun olaraq fərdi vasitələrdən istifadə edin. Operator təhlükəsizlik işini təmin edən avadanlıqlara diqqətlə yanaşmalıdır. Kombayn işləyən zaman radioqəbuledicidən, qulaqcıqdan istifadə etmək olmaz.

Kimyəvi maddələrlə təhlükəsiz təmasda olmaq

Təhlukəli kimyəvi maddələr ciddi zədələrin alınmasına bir başa səbəb olur . John Deere kombaynında istifadə olunan zəhərli kimyəvi maddələrə aiddir: yağlama materialları, soyuducu maye, rəng və yapışqan. Zəhərli kimyəvi maddələrlə işləməyə başlamazdan əvvəl (MSDS) pasportu ilə tanış olun. Bu sənəddə hər hansı bir riskin yaranmasına səbəb olan məlumatlar toplanmışdır.

Hərəkət edən hissələrlə təmasdan qaçın

Aparatları təmizləməzdən qabaq mühərriki söndürün və açarı zamokdan çıxarın. Əlinizi, ayağınızı və paltarınızı tərpənən hissələrə yaxınlaşdırmayın.

Təhlükəsizlik texnikası

Kombaynın təhlükəsiz daşınması

Maşının yığıcı aparatlarını qaldırmadan və onların blokirovka edən kranşteynlərini qaldırmadan maşını daşımayın. Magistral yollarda gecə və gündüz vaxtı hərəkət edərkən digər nəqliyyat vasitələrinin sürücülərini xəbərdar etmək üçün lazım olan siqnal faralarından istifadə edin . Həmişə təhlükəsizlik kəmərini bağlayın. Dəmir yol keçidlərindən və körpülər altından keçəndə kombaynın enini və hündürlüyünü nəzərə alın.

Radioantennanı yığın. Tormoz pedallarını cütləşdirin. Maşını tədricən saxlayın ki, onun burun tərəfi birdən aşağı düşməsin. Yolda hərəkətə başlamazdan əvvəl aparatları ayırın. Aparatın birləşmiş vəziyyətdə kombaynın hərəkəti maşının birdən dayandırılmasına gətirib çıxarar, əgər operator öz oturacağından 5 saniyə kənara çəkilərsə.

Həmişə bunkeri tam aşağı salın ki, kombaynın təhlükəsiz daşınması təmin olunsun.

Texniki xidmət zamanı təhlükəsizlik texnikası qaydalarına riayət edin.

Maşında nəzərdə tutulmamış dəyişiliklər edildikdə bu onun işinə mənfi təsir göstərir, təhlükəsizlik təmin olunmur və maşının istismar müddəti azalır. Aqreqatlar altında işləyən zaman trosun (A) köməyi ilə butun uzunluq boyu qaldırıcı silindirləri qaldırın və ştokların üzərində qoyun.

Kombaynı hərəkət edən zaman yağlamayın və nizamlamayın.

İsti radiatorun qapağını açmayın. Suyun səviyyəsini süzücü bakda yoxlayın.

Pambıqyığan kombaynın üzərində isləyən zaman mühərriki söndürün və alışdırıcı açarı yerindən çıxarın. Texniki xidmət üçün bütün örtükləri və lövhələri dəyişin.

Maneəni aradan qaldırmağa cəhd göstərməyin, əgər:

- aparatlar ayrılmayıbsa;
- surətlər qutusunun dəstəyi neytral vəziyyətə gətirilməyibsə;
- hidrodəstək neytral vəziyyətdə qoyulmayıbsa;
-dayanacaq tormozu birləşdirilməyibsə;
- açar alışdırma zamokundan çıxarılmayıbsa.



2. Xəbərdaredici təhlükəsizlik nişanları

Dayanacaq tormozun cədvəli



Diqqət: Yollarda kombaynı nəqliyyat vasitələri ilə daşıdıqda tormoz pedallarını cütləşdirin. Kabinanı tərk etməzdən qabaq dayanacaq tormozunu birləşdirin.

Operatorun kreslodan kənarda olmasını göstərən datçikin cədvəli

Ehtiyatlı olun! Jatkanın cərgəarası işləyən aqreqatlarını bərkidilməsi ilə bədəninizin zədələnməsinin və ölümün qarşısını alın.
Operatorun kreslo üzərindən kənarda olmasını göstərən datçiki ayırmayın. Bu operatorun yerində olmasını göstərən sistemin datçikinin ayrılmasına səbəb olar.

Xəbərdaredici təhlükəsizlik nişanları

Təhlükəsizlik qayışının cədvəli

Diqqət: Təhlükəsizlik qayışını bağlayın.

Dartı mexanizmindən qayışı tam dartıb çıxarın və onun təhlükəsizliyinin optimal təmin olunması üçün nizamlayın.

Lövhəcik "Elektrik xətləri ilə kontaktda olmaqdan qaçın"

Təhlükə! Bədən xəsarətinin alınmaması və ölüm hadisəsinin baş verməməsi üçün hərəkət zamanı maşının elektrik xətləri ilə kontaktda olmasından qaçın.

Lövhəcik "Yanğın təhlükəsi"

Ehtiyatlı ! Tezalışan isladılmış parçalardan istifadə etmək yanğına səbəb olur.
John Deere şirkətinin və yaxud ona uyğun isladılmış materialdan və ya şpindel təmizləyicisindən istifadə edin.



Lövhəcik "Qoruyucu dayaqlar "

Təhlükə! Aqreqatlar altında işləyəndə qaldırıcı hidrosilindirlər altında yerləşən qoruyucu dayaqlardan istifadə edin.



Xəbərdaredici təhlükəsizlik nişanları

Lövhəcik "Hərəkət edən hissələr"



Diqqət! Bütün qoruyucu şitləri yerində saxlayın.

Texniki xidmətdən qabaq ilişmə muftasını ayırın. Mühərrikin və hidromatorun qidalandırıcısını tam söndürün.

Lövhəcik "Yanğına qarşı təhlükəsizlik"



Diqqət! **Yanğına qarşı təhlükəsizlik**

. Yığıcı aparatları təmizləyin

. Müntəzəm olaraq vizual baxış keçirin.

. Həmişə yoxlayın:

- yan qapıcıqları və sovurma kameraların qapıcıqlarını;
- nəmləşdirici dayaqları
- şpindələ dayanan materialları;

. Tormozları təmizləyin

. Mühərriki təmizləyin

. Pambıq ventilyatorunu təmizləyin

Xəbərdaredici təhlükəsizlik nişanları

Lövhəcik "Cərgəarası işləyən aq-reqatların bərkidilməsi"

Təhlükə! Cərgəaralarında işləyən aqreqatların hərəkətdə olan hissələrini bərkitdikdə bədən xəsarəti və ölüm hadisəsi baş verə bilər.

Hərəkətdə olan hissələrdən təhlükəsiz məsafədə durun.

Təhlükədir! Maşını təmizləmədən əvvəl cərgəarası işləyən aqreqatları ayırın, mühərriki söndürün və alış-dırıcı açarı yerindən götürün.

Lövhəcik "Transmissiyanın hərəkətedici hissələri"

Təhlükəlidir! Tranmissiyanın hərəkətdici hissələri.

Hərəkətedici hissələrə toxunmaq ölümlə nəticələnə bilər.

Təhlükəsiz məsafədə durun!

İşə başlamazdan əvvəl aşağıdakı hərəkətləri yerinə yetirin.

- Kombaynın bütün hərəkət ötürücü kardanların qoruyucu örtüklərini yerinə qoyun.
- Kardan ötürmələrini hər iki tərəfdən möhkəm bağlayın.

Bunkerin silindrlərinin blokirovkası

Ehtiyatlı olun! Bunkerin altında işləməzdən qabaq mexaniki blokirovka vasitəsi ilə hər iki silindri blokirovka edin.



Xəbərdaredici təhlükəsizlik nişanları

Lövhəcik "<u>Təhlükəlidir!</u> Transportyer!"

Transportyerdən təhlükəsiz məsafədə durun.

Lövhəcik <u>"Durmayın"</u>

<u>Diqqət!</u> Pəncələrinizi və ayaqlarınızı zədələmədən qoruyun.

Yığıcı barmaqların lövhəsi üzərində durmayın.

Lövhəcik : "Etiyatlı olun! Xladaqent!"



Diqqət! Xladaqent təzyiq altındadır. Düzgün xidmət aparılmadıqda xladaqent gözlərə və dəriyə düşə bilər və yanıq əmələ gətirə bilər. Qoruyucu eynəkdən istifadə edin və dərinizi yanıqdan qoruyun. Yalnız xladaqent R134a istifadə edin.

Lövhəcik " Baypas işə salınma"



Təhlükəlidir! Mühərriki yalnız oturacaqda, dayanacaq tozmozlar birləşdirilən zaman və sürətlər qutusu neytral vəziyyətdə olduqda işə salın. Hər hansı bir ötürmədə mühərriki işə salmaq operatorun ölümünə səbəb ola bilər.

3. Təhlükəsizlik qurğuları

Təhlükəsizlik qurğuları



A. Şüşətəmizləyən və arxa görünüşlü güzgülər- xidmət edən, şəxsin yaxşı görməsinin təmin edilməsi üçündür.
B. Əl tutan yer – operatorun maşına daxil olması meydançada hərəkət etməsi zamanı təhlükəsizliyi təmin edir.
C. TTS nişanı – arxada gələn nəqliyyat vasitəsinin olmasını və sakit hərəkət edən nəqliyyat vasitəsinin yolda olmasını bildirir.
D. Bunkerin silindirinin bağlayıcı klapanı-bunkerin boşaldıcı silindirlərinin birləşməsini dəf edir. Əgər siz bunkerin altında işləyirsinizsə.
E. Starterin qoruyucu kojuxu –starterin massa ilə qısa qapanmasının qarşısını almaq üçündür.
F- Reşetka şəkilli pillələr və meydança - sürüşmənin qarşısını alır , torpağın və zibilin yığılmasının qarşısını alır.
G. Aparatların silindrlərinin blokirovka edən açar-aparatların aşağı düşməsinin qarşısını alır.
H. Operatorun yerində olmasını hiss etdirən yoxlayıcı baypas.
I. Qabaq və arxa əks etdiricilər avtonəqliyyat vasitələrinə yolda kombaynın olmasını bildirir.
J. Qabaq və arxa xəbərdaredici işıqlar avtonəqliyyat vasitələrinə yolda kombaynın olmasını bildirir.
K. Dayanacaq tormozu
L. Səs siqnalı yaxınlıqda adamların olmasından xəbərdar edir.
M. Kabina və təhlükəsizlik qayışları. Operatorun yerində olmasını göstərən sistem-operatorun rahatlığı və təhlükəsizliyi üçün

4. Operatorun postu

İdarəetmə orqanlarının panel üzərində yerləşməsi



A. Hidravlikanın dəstəyi
B. ROW-TRAK-ın elektrik açarı
C. Ayırıcı kalibrovka/tədris edən
D. ROW – TRAK-ın nizamlayıcı dəstəyi
E. Bunkeri endirənin ayırıcı açarı
F. Bunkeri qaldıranın ayırıcı açarı
G. Suyun təzyiqini nizamlayanın dəyişdirici açarı
H. Aparatların dəyişdirici açarı
I. Transmissiyanın qolu
J. Alışdırıcı zamokun açarı
K. Ventilyatorun dəyişdirici açarı
L. İşıqlandırmanın elektrik açarı
M. Drosselin dəyişdirici açarı
N. Arxa körpünün elektrik açarı
O. Yağlama sistemin dəyişdirici açarı

Hidroqol ilə idarəetmə vasitələri

A. Ventilyatorun sürət siqnalının xəbərdaredici nizamlayıcısının silindirinin dəyişdirici açarı
B. Transportyorun dəyişdirici açarı
C. Çərçivənin sağ tərəfində yerləşən aqreqatların qaldırıb/endirilməsi üçün dəyişdirici açar
D. Bütün aparatların qaldırıb/endirilməsi üçün dəyişdirici açar
E. Çərçivənin sol tərəfində yerləşən aparatları qaldırıb/ endirən dəyişdirici açar
F. ROW- TRAK-ın qoşucu açarı



Operatorun postu

Kabinanın banında yerləşən idarəetmə qolları

A. Ötürücü
B. Tərləmiş süşənin təmizləyici qurğusunun jalüzü
C. Hava vuran qurğu
D. Kondisionerin dəyişdirici açarı
E. Qızdırıcının nizamlayıcısı
F. Ventilyatorun nizamlayıcısı
G. Şüşətəmizləyicinin idarə olunması.
H. Təmiz hava süzgəci
I. Talvar lampası
J. İşıqlandırmanın elektrik açarı
K. Səsgücləndirici



Kondisionerin istifadə olunması

Qeyd: *Əgər kondisionerişləmirsə səbəbi kondisionerin zibillənməsidir və ya xladaqentin səviyyəsinin aşağı düşməsidir.Kabinada optimal soyutmanı təmin etmək üçün mühərrik üzərində olan qızdırıcının klapanını bağlayın.*



Kondisionerin işləməsi üçün əvvəlcə hava vurucunun dəyişdirici açarını birləşdirmək lazımdır. Qızdırıcını nəmliyi nizamlamaq üçün kondisionerlə birlikdə istifadə etmək olar. Kabinada havanın temperaturunu kondisionerin ayırıcı açarının köməkliyi ilə nizamlayın.

Sükan idarəetmə mexanizmin dayağı və dəyişdirici açarları



A. Dönməni göstərən siqnal lampaları
B. Dönməni göstərən lampaların dəyişdirici açarı
C. Dayanacaq tormozu
D. Dayanacaq tormuzun elektrik açarı
E. Səs siqnalının düyməsi
F. Tozmoz pedalların blakirovkaedici açarı
G. Tormoz pedalları
H. Dəyişdirici açar
I. Sükan idarəetmə mexanizminin dayağının meylləndirmə pedalı
J. Bunkerin işıqlandırması üçün dəyişdirici açar
K. Yuyucunun dəyişdirici açarı

Sükan çarxın hündürlüyünü və sükan idarəetmə kolonkasının meyilləndirilməsinin nizamlanması



Sizin üçün münasib bücaq altında qalmasını təmin etmək üçün nizamlayıcını (A) sıxın. Stopor qaykasını (B) açın və sükan çarxın sizin üçün münasib səviyyədə durmasını nizamlayın. Nizamlamadan sonra qaykanı sıxın.

Kontrol-ölçü cihazların və datçiklərin yerləşməsi



A. Displey
B. Texometr- hərəkət sürəti, suyun təzyiqi , mühərrikin dirsəkli valının dövrlər sayı, mühərrikin iş həcmi, ventilyatorun işləmə saatı.
C. Normal işıqlandırma
D. Monitorun paneli
E. Mühərrikin söndürülmə indikatoru
F. Siqnal faraların indikatoru
G. Yanacağın səviyyəsi
H. Soyuducu mayenin temperaturu
J. Batareyanın cərəyanla dolması (voltmetr)
İ. İndikasiya displey paneli
K. Ventilyatorun sürət siqnalının xəbərdaredici dəyişdirici açarı

Operatorun postu

Taxometr /saat sayğacı

Rəqəmli taxometr dörd ayırıcı açardan (A,B,C,D) ibarətdir və altı müxtəlif növ rəqəmləri əks etdirir.

Bu hərəkət sürəti ,mühərrikin dövrlər sayı , suyun təzyiqi, ventilyatorun sürəti və həmçinin maşının mühərrikinin və ventilyatorunun iş saatıdır.

***Qeyd** : Rəqəmli taxometr mühərrikin hər 50 saat işindən sonra SEU1 məlumatları əks etdirir. Bu displey məlumatlar texniki xidmətlərin intervalını, yağlama və texniki xidmətlərin qrafiklərinin tərtib edilməsinə köməklik edir.*



A-Yerə nisbətən sürətin dəyişdirici açarı
B- Mühərrikin sürətinin dəyişdirici açarı
C-Suyun təzyiqinin dəyişdirici açarı
D-Ventilyatorun sürətinin dəyişdirici açarı
E-Aktiv hərəkəti seçənin dəyişdirici açarı
F- Displey
A/B- Mühərrikin motosayğacı
C/D-Ventilyatorun işləmə saatı

Taxometrin işi

Konkret rəqəmlərin əks olunması üçün taxometrin bir və ya bir neçə ayırıcı açarının düyməsini basmaq lazımdır.



- Maşının hərəkət sürətinin əks olunması üçün (A) ayırıcı açarı basmaq lazımdır.
- Mühərrikin sürətinin əks olunması üçün (B) ayırıcı açarı basmaq lazımdır.
- Suyun təzyiqinin əks olunması üçün (C) ayırıcı açarı basmaq lazımdır.
- Ventilyatorun sürətinin əks olunması üçün (D) ayırıcı açarı basmaq lazımdır.
- Mühərrikin işləmə saatının əks olunması üçün (A) və (B) ayırıcı açarları basmaq lazımdır.
- Ventilyatorun işləmə saatının əks olunması üçün (C) cə (D) ayırıcı açarları basmaq lazımdır.

A- Yerə nisbətən hərəkətin ayırıcı açarı
B- Mühərrikin sürətinin ayırıcı açarı
C- Suyun təzyiqinin ayırıcı açarı
D- Ventilyatorun sürətinin ayırıcı açarı

Aparatın monitorunun displeyinin paneli



Bu paneldə aparatın barabanının (A) və aparatın qapıcıqlarının (B) indikator lampaları yerləşir. Əgər baraban dayanarsa və yaxud sürəti aşağı düşərsə, onda uyğun olaraq indikator lampası yanar.Bu əsasən şpindelə materialın dolanması səbəbindən baş verir.

Aparatın hər hansı qapıcıqlarından biri tutularsa uyğun olaraq həmin lampa yanar.

Mütləqdir: Əgər indikator lampası yanarsa (barabanın dayanması və ya aparatın qapıcıqlarının tutulması) "Dayan" lampası yanmağa başlayar və fasiləsiz qısa səs siqnalları verilər. Onda təcili maşını saxlamaq lazımdır. Aparatı söndürüb nasazlığın səbəbini müəyyənləşdirmək lazımdır. Əgər aparatın barabanları və qapıcıqları işləyirsə onda "Normal" lampası yanar.

Elektorlampaların yoxlanması

1. Dayanacaq tormozu birləşdirin
2. Transmissiyanı neytral vəziyyətə keçirin.
3. Hidroqolu qabaq kənar vəziyyətə gətirin
4. Alışdırma açarını işəsalma vəziyyətinə döndərin.

Qəza səs siqnalı

İndikator lampası yananda fasiləsiz olaraq qısa səs siqnalları verilər.

A- Aparatın barabanları
B- Qapıcıqlar
C- Mühərrikin dayandırma indikatoru

Dayan, xəbərdaredici və qəza səs siqnallarının indikator lampası



A- Mühərrikin söndürmə indikatoru
B- Siqnal faralarının indikatoru

Mütləqdir : Əgər "Dayan" indikator lampası yanarsa mühərriki təcili söndürün. Səbəbini təyin edin, bərpa edəndən sonra mühərriki işə salın.

Dayan indikator lampası (A)
"Dayan" qırmızı indikator lampası mühərrikin soyutma və ya yağlama sistemində nasazlıq olanda yanır. İndikator lampasının yanıb-sönməsi qısa səs siqnalı ilə müşaiyət olunur.

Xəbərdarlıq indikator lampası (B)
Nasazlıq baş verəndə sarı xəbərdaredici indikator lampası yanır. Bu, mühərrikin təcili söndürülməsini tələb etmir (misal üçün hava süzgəcinin zibillənməsi). Bu lampa yanandan sonra üç saniyəli fasiləsiz səs siqnalı verilir.
Cihaz və indikator lampalarına nəzarət edin və nasazlığı aşkar edin.

Elektrolampaların yoxlanması

1. Dayanacaq tormozunu birləşdirin.
2. Transmissiyanı neytral vəziyyətə keçirin.
3. Hidroqoıu qabaq kənar vəziyyətə gətirin.
4. Alışdırma açarını işəsalma vəziyyətinə döndərin.

Əgər hər hansı bir lampa yanmırsa səbəbini aydınlaşdırın.

Qəza səs siqnalları

Maşında iki qəza siqnalı vardır. Onlardan biri fasiləsiz siqnal verir, digəri isə qısa siqnallar verir. İki ayrı–ayrı qəza siqnalları operatorun diqqətini indikator lampasına yönəldir, nasazlığın müəyyən edilməsi məqsədi ilə istifadə olunur.

Fasiləsiz siqnal üç saniyə ərzində aşağıdakı hallarda verilir :
- Dayanacaq tormozu birləşib ;
- Hidravlik sistemdə yağın temperaturu yüksəkdir;
- Pambıq ventilyatorunun sürəti aşağıdır;
- Hava süzgəci zibillənmişdir;

Qısa siqnal aşağıdakı hallarda səs verir:
- Dayanacaq tormozu birləşdirilən zaman hidroqol neytral vəziyyətdən çıxır;
- Mühərrikdə yağın təzyiqi aşağıdır;
- Mühərrikdə soyuducu mayenin temperaturu yüksəkdir ;
- Aparatın monitoru birləşir;

Dayanacaq tormozun indikatoru

Dayanacaq tormozu birləşəndə indikator lampası (A) və xəbərdarlıq lampası (B) üç saniyə ərzində yanır və üç saniyə ərzində səs siqnalı verilir.

Elektrolampaların yoxlanması

1. Dayanacaq tormozu birləşdirin.
2. Transmissiyanı neytral vəziyyətə keçirin.
3. Hidroqolu qabaq kənar vəziyyətə keçirin.
4. Alışdırma açarını işəsalma vəziy-yətinə döndərin.





A- Dayanacaq tormozun indikatoru
B- Siqnal faralarının indikatoru

Hidravlik/ Hidrostatik yağların temperaturunun indikator lampası

Hidravlik yağın temperaturunun indikator lampası (A) və xəbərdarlıq lampası (B) yananda və hidravlik yağın temperaturu 104.4 ^{0}S –yə çatdıqda fasiləsiz səs siqnalı işə düşür. Təcili maşını saxlayın və hidravlik sistemə düşən yükü azaldın və yağın soyumasını təmin edin.



Elektrolampaların yoxlanması

1. Dayanacaq tormozu birləşdirin.
2. Transmissiyanı neytral vəziyyətə keçirin.
3. Hidroqolu qabaq kənar vəziyyətə keçirin.
4. Alışdırma açarını işəsalma vəziyyətinə döndərin.



A- Hidravlik yağın temperaturunun indikatoru

B- Siqnal faralarının indikatoru

Ventilyatorun sürətinin indikator lampası

Ventilyatorun sürəti aşağı düşəndə indikator lampası (A) və xəbərdarlıq lampası (B) yanır. Sonradan üç saniyə ərzində fasiləsiz səs siqnalı verilir.



Elektrolampaların yoxlanması

1. Dayanacaq tormozu birləşdirin.
2. Transmissiyanı neytral vəziyyətə keçirin.
3. Hidroqolu qabaq kənar vəziyyətə keçirin.
4. Alışdırma açarını işəsalma vəziyyətinə döndərin.



A- Ventilyatorun sürətinin indikator lampası

B- Siqnal faralarının indikatoru

Hava süzgəcinin indikator lampası

Hava süzgəcinin süzücü elementi tutulanda və texniki xidmətə ehtiyacı olanda hava süzgəcinin (A) və "Xəbərdarlıq" indikator lampaları yanır. Lampalar yanandan sonra üç saniyə ərzində fasiləsiz səs siqnalı verilir. Hava süzgəcini yoxlayın və təmizləyin.



Elektrolampaların yoxlanması

1. Dayanacaq tormozu birləşdirin.
2. Transmissiyanı neytral vəziyyətə keçirin.
3. Hidroqolu qabaq kənar vəziyyətə keçirin.
4. Alışdırma açarını işəsalma vəziyyətinə döndərin.



A- Hava süzgəcinin indikator lampası
B- Siqnal faralarının indikatoru

Mühərrikdə yağın təzyiqinin indikator lampası

Mütləqdir: Əgər mühərrik işləyən zaman indikator lampası yanarsa , onda mühərriki təcili söndürün.

Mühərrikdə yağın təzyiqi aşağı olanda indikator lampası (A) yanır , " Dayan " indikator lampası yanıb-sönür və fasilə ilə siqnal səsi verilir. Əgər indikator lampası yanırsa mühərriki söndürün və nasazlığı aradan qaldırın.

Qeyd: *İndikator lampasının yanması yağın temperaturunun aşağı olması, yağın səviyyəsinin aşağı olması və ya mühərrikin çox aşağı səviyyəli yağla işlədilməsi səbəb ola bilər.*



Elektrolampaların yoxlanması

1. Dayanacaq tormozu birləşdirin.
2. Transmissiyanı neytral vəziyyətə keçirin.
3. Hidroqolu qabaq kənar vəziyyətə keçirin.
4. Alışdırma açarını işəsalma vəziyyətinə döndərin.



A- Mühərrikdə yağın təzyiqinin indikatoru
B- Mühərrikin söndürülməsi indikatoru

Mühərrikin soyuducu mayesinin temperatur göstəricisi və indikator lampası

Mütləqdir: Mühərrikin sınmasına yol verməyin. İndikator lampası yanarsa və göstəricin əqrəbi qırmızı zonadan keçərsə mühərriki söndürməyin. Əks halda soyuducu mayenin temperaturu bir az da artar və mühərrikin xarab olmasına səbəb olar. Soyuducu mayenin temperaturunu aşağı salmaq üçün mühərrikin yükünü azaldın və bir qədər aşağı dövrlər sayında işlədin.

Mühərrikdə soyuducu maye çox qızdıqda indikator (B) yanar və xəbərdaredici siqnal verilər. Onda mühərrikin yükünü azaldın ,aşağı dövrlər sayında işlədin və sonra söndürün.

Mühərrikin soyuducu mayesinin temperaturunun göstəricisini (A) yoxlayın. Əgər temperatur getdikcə artarsa onda mühərriki təcili söndürün. Radiator tutulubsa , onu təmizləyin.





A- Mühərrikin soyuducu mayesinin temperatur göstəricisi
B- Mühərrikin söndürülməsi indikatoru

Yağlama sisteminin indikator lampası

Panel üzərində olan ayırıcı açarı birləşdirəndə yağlama indikator lampası (A) yanar.

Elektrolampaların yoxlanması

1. Dayanacaq tormozu birləşdirin.
2. Transmissiyanı neytral vəziyyətə keçirin.
3. Hidroqolu qabaq kənar vəziyyətə keçirin.
4. Alışdırma açarını işəsalma vəziyyətinə döndərin.



A- Yağlama indikator lampası

Bunkerin transportyorunun indikator lampası

Bunkerin transportyorunun ayırıcı açarını birləşdirəndə indikator lampası (A) yanar.

Elektrolampaların yoxlanması

1. Dayanacaq tormozu birləşdirin.
2. Transmissiyanı neytral vəziyyətə keçirin.
3. Hidroqolu qabaq kənar vəziyyətə keçirin.
4. Alışdırma açarını işəsalma vəziyyətinə döndərin.

A- Bunkerin transporterinin indikator lampası



Ventilyatorun dəyişdirici açarı

Mütləqdir : Ventiyatorun dəyişdirici açarı zavod tərəfindən qoşucu vəziyyətdə göndərilir. Sahədə birinci bunkeri boşaldanadək ventilyatorun dəyişdirici açarını dövriyyədən ayırmayın. Bu göstəricini yerinə yetirmədikdə qayış vaxtından əvvəl yeyilir. Nasosda məhlulun tam sərf olunmasına yol vermək olmaz. Əks təqdirdə nasos zədələnə bilər. Obkatka zamanı ventilyatorun istiqamətverici qayışının (A) və ventilyatorun qayışının tarımlığını yoxlayın.



A- Ventilyatorun istiqamətverici qayışı

Mühərrikin obkatkası

Mütləqdir: Mühərriki lazım olmayan zaman boş işlətməyin. Yeni mühərrikə John Deere şirkətin motor yağını tökun , 100 saat işdən sonra yağı dəyişin. Müntəzəm olaraq motor yağının səviyyəsini şupla yoxlayın. Soyuducu mayenin temperaturuna (A) nəzarət edin. Əgər kontrol lampa yanırsa onda mühərrikdə qızma əlaməti vardır. Onda aşağı sürətə keçin və ya mühərriki aşağı səviyyədə yükləyin. Əgər temperatur aşağı düşmursə, onda mühərriki söndürün və səbəbini öyrənin və aradan qaldırın.



A- Yağın səviyyəsini ölçmək üçün şup

Obkatka

Diqqət: Təzyiq altında olan soyuducu mayenin soyutma sistemindən xaricə vurulması güclü yanıq gətirə bilər.

Qızmış mühərrikdə radiatorun boğazcığını açmayın. Mühərriki söndürün və gözləyin ki, soyuducu maye normal temperatura qədər soyusun. Qızmış mühərrikə soyuducu maye tökməyin. Gözləyin nə vaxt mühərrik soyuyar. Radiatorun qapağını açmaq üçün bunkeri qaldırmayın. Bunker ağırdır və onun üzərinizə düşməsi zədə və hətta ölümlə nəticələnə bilər.

Radiatorun qapağını yalnız bunkerin içində olanda açın.



A- "İSTİDİR " nöqtəsi
B- "SOYUQDUR" nöqtəsi

Tez-tez soyuducu mayenin səviyyəsini yoxlayın. Soyuducu mayenin səviyyəsi mühərrik soyuduqda "SOYUQDUR" nöqtələri arasında (B) və mühərrik qızmış halda olduqda "İSTİDİR" nöqtələri arasında olmalıdır. Pambıqyığan kombaynda yaranan səs və xışıltıya alışmayınca diqqətli və ehtiyatlı olun.

Bir saatdan sonra

Aparan və aparılan təkərlərin boltlarının sıxma momentini yoxlayın.

Aparılan

təkərlər- .....312 N.m

Aparılan

arxa təkərlər- ..... 407 N.m

Beş saatdan sonra

Butun qayışların tarımlığını yoxlayın

Tələb olunarsa tarımlığı nizamlayın.

İlk 50 saat ərzində bütün qayışların yoxlanmasını davam etdirin

. Aparatların hərəkət ötürücü qayışları

. Mühərrikin köməkçi hərəkət ötürücü qayışı (generator və kompressor)

Qeyd: *Mühərrikin köməkçi hərəkət ötürücü qayışı avtomatik tarımlanır və əl ilə nizamlana bilir. Yalnız qayışların düz xətt istiqamətində durmasını yoxlayın.*



10 saatdan sonra

1. Aparan və aparılan təkərlərin boltlarını sıxın.

Arxa körpünün aparan təkərləri- .....312 N.m

Arxa körpünün aparılan təkərləri- .....407 N.m

2. Bunkerin transportyorunun zəncirinin tormozonu yoxlayın. Bunker boşaltma vəziyyətində olduqda zəncir yungülcə özünün istiqamətverici lövhəsinə toxunmalıdır.

20 saatdan sonra

Mütləqdir: Pambıq ventilyatorunun hərəkət öturücü qayışının tarımlığını yoxlayın.

Yoxlayın əgər lazımdırsa , istiqamət verici qayışı (A) nizamlayın.





A- İstiqamətverici qayışlar

100 saatdan sonra

Mühərrikin karterindən yağı süzün və süzücü elementi (A) dəyişin. Karterə tələb olunan markada yağ tökün.



A- Yağ süzgəci

6. Mühərriki işə salmazdan qabaq yoxlamaq

Motor yağının səviyyəsinin yoxlanması

Əgər yağın səviyyəsi şupda (A) göstərilən nöqtəsindən aşağırsa mühərriki işə salmayın. Tələb olunarsa yağ əlavə edin.



A-Səviyyəni ölçmək üçün şup

Hidrostatik və hidravlik sistemlərdə yağın səviyyəsinin yoxlanması

Yağın səviyyəsi yağ bakı üzərində olan baxış pəncərəciyindən (A) görünməlidir. Bu zaman aqreqatlar aşağı buraxılmış vəziyyətdə olmalı və bunkerin boşaldıcı silindrlərin ştoku tam oturmalıdır. Qapağı (B) açın və lazım olarsa yağ əlavə edin.



A- Hidravlik bakın baxış pəncərəciyi

B- Qapaq

Mühərriki işə salmazdan qabaq yoxlamaq

İncə yanacaq süzgəcindən suyun süzülməsi

1. Klapanı(A) açın suyu və çöküntünü süzün.
2. Boşaldılmış süzgəcin klapanını bağlayın.
3. Həddindən çox su və digər qarışıqlar müşahidə etdikdə süzücü elementi dəyişin.



A- Nippel

Bakın yanacaqla doldurulması

Diqqət: Yanacaq tez alışıb yanır və əgər yanacaq bakdan süzülürsə onda o sizə və sizin ətrafınızda olanlara xəsarət və ölüm yetirə bilər. Yanacaq doldurarkən mühərriki söndürün. Bakı açıq havada yanacaqla doldurun.Yerə tökülmüş yanacağı təmizləyin.

Şüşələrin, güzgülərin və faraların təmizlənməsi

Bütün istiqamətlərdə yaxşı görünüşü təmin edin. Şüşələri, güzgüləri və faraları müntəzəm olaraq təmizləyin ki, yaxşı görünüş təmin olunsun.

7. Maşının istismarı

Avadanlığın istismarı zamanı təhlükəsizlik texnikası qaydaları

Pambıqyığan kombaynı sahəyə çıxaranda əmin olun kı, maşın işə tam hazırdır. İşə başlamazdan qabaq aşağıdakı yoxlamaları aparın.

. Sürücü-mexank bütün idarəetmə orqanları ilə tanışdır və maşında təhlükəsiz işi təmin edə bilər.
. Bütün xidmətlər göstərilib „ Yağlama və texniki xidmət" bölməsinə bax
. Nəmləşdirici sistem yaxşı işləyir və bak məhlul ilə doldurulmuşdur.
. Cərgəarası işləyən aparatlar lazım olan en götürümünə nizamlanmışdır.
. Maşının bütün qoruyucu sistemləri normal fəaliyyətdədir.
. Yanğın söndürən balonlar tələb olunan yerdə və tam doldurulmuş vəziyyətdədir.

Mühərrikin işə salınması



A-Hidravlikanın dəstəyi, B-Drosselin dəyişdirici açarı, C- işıqlandırmanın dəyişdirici açarı, D-Şplint

Diqqət: Əgər mühərriki işə salanda maşın gözlənilmədən yerindən hərəkətə gələrsə, bu sizə və digər adamlara xəsarət yetirə bilər. Ona görə də mühərriki işə salanda dayanacaq tormozun birləşməsinə əmin olun.

1. Hidrodəstəyi (A) neytral vəziyyətdə saxlayın.
2. Drosselin (B) dəyişdirici açarını boş gediş vəziyyətində saxlayın.
3. Mühərriki işə salmazdan qabaq işıqlandırmanı (C) və köməkçi avadanlığın dəyişdirici açarını ayırın.
4. Açarı qoşulmuş vəziyyətə döndərin.

5. Alışdırıcı açarı birləşmiş vəziyyətdə döndərəndə mühərrik sönürsə , onda aşağıdakı əlamətlər baş verir.

.Yanacağın səviyyəsini göstərən əqrəb (A) qalxır və bakda yanacağın səviyyəsini göstərir.

. Soyuq mühərriki işə saldıqda soyuducu mayenin temperatur göstərici əqrəbi (B) sol küncdə (soyuq) diapazonunda qalar.

. Voltmetrin əqrəbi (C) yüngülcə qalxar, qırmızı və qara zonada qalar. Bu diapazon "normal " gərginliyi göstərir.

Mühərrikdə yağın təzyiqinin indikator lampasının sazlığını yoxlayın. Əgər lampa yanarsa , onda onun səbəbini aydınlaşdırın.



A- Yanacaq datçiki
B- Temperatur datçiki.
C- Voltmetr.
D- Yağın təzyiqini göstərən indikator
E-Mühərrikin söndürülməsini göstərən indikator.
F- Dayanacaq tormozun indikator lampası
G- Siqnal faraların indikatoru.

6.Elektrolampaların yoxlanması

1. Dayanacaq tormozu birləşdirin.
2. Transmissiyanı neytral vəziyyətə keçirin.
3. Hidroqolu qabaq vəziyyətə gətirin.
4. Alışdırma açarını işəsalma vəziyyətinə döndərin.

Mütləq: Starteri 30 saniyədən çox birləşmiş vəziyyətdə saxlayanda starterin sıradan çıxmasına səbəb ola bilər. Əgər mühərrik işə düşmürsə, onda 2 dəqiqə gözləyin və sonra təkrarən işə salın.

7. Mühərriki işə salanda səs siqnalını verin ki, kombaynın yaxınlığında duran adamlar kənara çəkilsinlər.



A- İşəsalma açarı

Mütləq : Əgər yağın təzyiqi aşağıdırsa və yaxud zəif qalxırsa bu mühərriki sıradan çıxara bilər. Mühərriki işə salandan sonra qazın pedalını birdən basmayın , nə vaxt ki mühərrikin təzyiqini göstərən indikator lampası sönməmişdir.

8.Mühərrikin yağının təzyiqini göstərən indikator lampasının (A) sönməsinə əmin olun. Voltmetrin əqrəbi (C) cərəyan dolmasını göstərən zonaya tərəf hərəkət etməlidir.

Mütləq : Mühərriki işə salanda dövrlər sayını 1000 dövr/dəq-dən çox artırmayın. Normal dövrlər sayı boş gedişdə (800-900 dövr/dəq) olmalıdır.

Mühərriki söndürməzdən qabaq onu boş gedişdə azından 1-2 dəqiqə işlədin.

Qeyd: Əgər iş vaxtında mühərrik həddindən çox yükləndiyi zaman sönərsə , qızmanın baş verməməsi üçün mühərriki təkrarən işə salın.

9. Displeydə mühərrikin dövrlər sayına baxmaq üçün (D) ayırıcı açarı basmaq lazımdır.



A- Motor yağının təzyiq indikatoru

B- Mühərrikin söndürülməsi indikatoru

C- Volmetr

D- İşəsalma açarı

Soyuducu mayenin yüksək temperaturu



Soyuducu mayenin tempraturu 110^0 S-dən çox qalxarsa, indikator lampası (A) yanar.Temperatur 110 ^{0}S- dən aşağı düşərsə, indikator lampası sönməz.

Mütləq: Əgər "xəbərdarlıq" indikator lampası yanarsa , temperatur göstəricisini (B) yoxlayın. Mühərrik həddindən çox qızdıqda işlətməyin bu mühərrikin sıradan çıxmasına səbəb ola bilər.

1. Aşağı ötürməyə keçməklə maşına düşən yükü azaldın.
2. Mühərriki söndürün.
3. Yan torları, radiatoru və yağ soyuducusunu təmizləyin.
4. İmkan verin ki, mühərrik soyusun.

A- siqnal faralarının indikatoru
B- temperatur datçiki

Maşının işə hazırlanması

Diqqət: Kombaynın təhlükəsiz idarə olunması qaydalarını öyrənmədən onu idarə etməyin , bu sizin və kənar şəxslərin həyatı üçün təhlükəlidir. Hava elektrik xətlərinə toxunmaq və yaxud xətlərin altında bunkeri boşatmaq ciddi xəsarət və ölümlə nəticələnə bilər. Həmişə elektrik hava xətlərinə fikir verin.

. Həmişə təhlükəsizlik qayışlarını bağlayın.

. Maşını nahamar yerdə və döngələrdə yavaş sürün.

. Radioqəbuledicinin antennasını çıxarın və yaxud aşağı buraxın

. İşə çıxmazdan qabaq oturacağı, sükan idarəetmə mexanizmini, arxa görünüşlü güzgüləri və faraları nizamlayın.

Transmissiyanın birləşdirilməsi.



A- Transmisyanın qolu B- Hidravlikanın dəstəyi

1. Transmissiyanın qolunu (A) lazım olan ötürmədə qoyun .Əgər transmisiya həmin an birləşmirsə ondan yüngülcə hidroqolu (B) birləşdirin ki, ötürmə mərkəzləşdirilsin.

2. Hidroqolu qabağa verib qabaq ötürməni birləşdirin və yaxud arxa tərəfə hərəkət etmək üçün arxaya verin .

2 təkərə hərəkət ötürmənin tipi	Dişli çarx	Yığıcı aparat	km/saat
Yığım	1	İlişmə	0-6,1
Yığım	2	İlişmə	0-7,2
Daşınma	3	Ayırma	0-25,1
Revers gediş	1	Ayırma	0-4,3
Revers gedis	2	Ayırma	0-5,0
Revers gediş	3	Ayırma	0-17,2
4 təkərə hərəkət ötürmənin tipi			
Yığım	1	İlişmə	
Yığım	2	İlişmə	
Daşınma	3	Ayırma	
Revers gediş	3	Ayırma	

Drosselin dəyişdirici açarından istifadə edilmə

Qeyd: *Pambıq yığımı zaman hava yığıcını maksimal hava ilə təmin etmək üçün drossel həmişə tam açılmış vəziyyətdə qalmalıdır.*

Drosselin ayırıcı açarını (A) boş gediş və ya yüksək sürət vəziyyətində qoyun.



A- **Drosselin ayırıcı açarı**

Maşının hərəkət etməsi

Diqqət: Nazım çarx (maxovik) ağırdır. Əgər maşın gözlənilmədən qabağa və ya arxaya hərəkət edirsə, bu çox təhlukəlidir, sənə və kənar şəxslərə ciddi xəsarət yetirə bilər. İşə çıxmazdan əvvəl əmin olun ki, bütün avadanlıqlar və insanlar kombayndan təhlükəsiz məsafədədirlər.

1. Tormoz pedalların birləşdirici plan-kasını (A) lazım olan vəziyyətdə qoyun.
2. Əmin olun ki, tormoz buraxılmışdır
3. Transmissiyanı lazım olan ötürməyə keçirin
4. Sürəti çoxaltmaq üçün hidroqolu yavaşca qabağa verin



A- Tormoz pedalının birləşdirici plankası

Maşının dayandırılması

1.Surəti azaltmaq və maşını saxlamaq üçün hidroqolu (B) neyrtal vəziyyətə gətirin

2. Əgər lazımdırsa tormozu sıxın və maşının yavaş-yavaş dayanmasını təmin edin.

3. Mühərrikin sürətini aşağı dövrlər sayına qədər aşağı salın.



A- Hidravlikanın dəstəyi

Maşının parkovka edilməsi

1. Maşını düz səthli yerdə saxlayın və dayanacaq tormozunu birləşdirin.
2. Drosselin(A) dəyişdici açarını boş gedişdə saxlayın
3. Transmissiyanın qolunu (B) neytral vəziyyətə gətirin.
4. Hidroqolun üzərində olan dəyişdirici açar (F) vasitəsi ilə yığıcı aparatları aşağı yerə buraxın
5. Aparatın dəyişdirici açarı (C) vasitəsi ilə yığıcı aparatları sistemdən ayırın
6. Aparıcı açar (D) vasitəsi ilə pambıq ventilyatorunu ayırın.
7. Əgər bunker qalxmış vəziyyətdədirsə onu aşağı buraxın.
8. Bütün işıqlandırma cihazlarını və köməkçi avadanlıqları söndürün.

Mütləq: Əgər mühərrik qızmışdırsa onda onu 2 dəqiqə ərzində boş gedişdə işlədin və normal temperatura qədər soyudun. Əks halda mühərrikdə nasazlıqlar yarana bilər.

9. Alışdırma açarını (E) yerindən çıxarın.





A-Drosselin dəyişdirici açarı
B-Transmissiyanı qolu
C-Aparatın qoşucu açarı
D-Ventilyatorun dəyişdirici açarı
E-Alışdırma kilidinin açarı
F-Aparatın qaldırma/endirmə dəyişdirici açarı.

İctimai yollarda maşının sürülməsi və daşınması qaydaları





A-Tormoz pedalları birləşdirilmişdir B-Künclü tutucu ştift C-Yaylı şplint

Diqqət: Gündüz və gecə vaxtlarında kombaynı idarə edərkən siqnal faralarından və digər xəbardaredici nəqliyyat avadanlıqlarından istifadə edin. Təhlükəsiz hərəkəti təmin etmək üçün John Deere şirkətinin dilerinə lazım olan avadanlıqları sifariş vermək olar. Nasaz və yarı zədələnmiş avadanlıqları vaxtında dəyişin.

- Tormozları birləşdirin (A)
- Ağır yol şəraitində surəti azaldın
- Yığıcı aparatları dayağa qədər qaldırın və qoruyucu mədud-laşdırıcıları birləşdirin
- Yolun kənarından mümkün qədər aralı hərəkət edin
- Heç vaxt kombaynı bunkerin boşaltma vəziyyətində idarə etməyin.
- Həmişə yolda hərəkət edərkən yığıcı aparatı ayırın. Bu operatorun yerində olmasını bildirən sisteminin ayrılmasını təmin edin.
- Elektrik xətlərindən aralı hərəkət edin
- Döngələrdə siqnal göstəricilərindən istifadə edin.
- Yol hərəkəti qaydalarına ciddi riayət edin.

A- Dönməni göstərən siqnal lampaları

B-Dönməni göstərən siqnal lampaları-nın dəyişdirici açarı



Ventilyatorun və aparatların birləşdirilməsi



A-Drosselin dəyişdirici açarı
B-Ventilyatorun dəyişdirici açarı
C-Yığıcı aparatın qolu
D-Transmissiyanın qolu
E- Hidravlikanın dəstəyi

Diqqət: Əgər maşın gözlənilmədən qabağa və ya arxaya hərəkət etsə bu sizə və digər adamlara ciddi zədə verə bilər və hətta ölümlə nəticələnə bilər. Mütləq əmin olun ki, iş zamanı pambıqyığan kombaynın yaxınlığında adam yoxdur.

Soyuq havada mühərriki işə salanda yığıcı aparatların giriş qoruyucu muftaları zaman boş fırlanar . Muftanın dodaqcıqları zədələnməsin deyə mühərrikin valının dövrlər sayını tədricən artırın ki, yığıcı aparatlar drosselin tam açılışında işləyə bilməsinlər.

1. Dayanacaq tormozdan istifadə edin.
2. Drosselin dəyişdirici açarını (A) boş gediş vəziyyətində saxlayın

(Əgər mühərrik kiçik dövrlər sayında işləmirsə ventilyator işə düşmür).

3. Ayırıcı açarı sıxmaqla (B) sıxmaqla ventilyatoru işə salın.
4. Yığıcı aparatların (C) qolunu sonacan qabağa verməklə yığıcı aparatları birləşdirin.
5. Transmissiyanın qolunu (D) neytral vəziyyətdə qoyub hidroqolu (E) hərəkətə gətirib aparatları işə salın.

Yığıcı aparatların aşağı buraxılması

Hidroqolun üzəriində yerləşmiş bütün aparatların qaldırma/endirmə dəyiş-dirici açarının köməyi ilə aparatları aşağı buraxın. Aparatları aşağı buraxmaq üçün dəyişdirici açarın sol tərəfini sıxın. Aparatları qaldırmaq üçün isə dəyişdirici açarın sağ tərəfini sıxın.



A- Bütün aparatların qaldırma/endirmə dəyişdirici açarı
B- Çərçivənin sol tərəfində qaldırma/endirmə dəyişdirici açarı
C- Çərçivənin sağ tərəfində qaldırma/endirmə dəyişdirici açarı

Cərgələrdə hərəkət

Mütləq: Yığıcı aparatlar zədələnə bilər. Daşlardan, ağac kötüklərindən və məftillərdən çalışın yan keçin. Suvarma kanallarından keçəndə yığıcı aparatları qaldırın.

Cərgələrdə hərəkət etməzdən əvvəl əmin olun ki:

- Mühərrik və yığıcı aparatlar lazım olan səviyyədə qızmışdır.
- Mühərrikin drosseli tam açılmış vəziyyətində işləyir.
- Nəmləşdirici sistemdə tələb olunan təzyiq qorunur.
- Aparatlar cərgəaralarının mərkəzi ilə nizamlanmışdır.

Pambıq yığımı

1. Hərəkət sürətini nizamlayın ki, yaşıl qozaların və pambığın itkisi azalsın. Birinci yığımı birinci ötürmədə aparın. İkinci ötürməni yalnız ikinci yığımda istifadə edin.
2. Cərgənin qurtaracağında sürəti azaldın. Cərgədə işləyən aparatları tam qaldırın və dönən zaman tormoz pedallarından istifadə edin.
3. Bunkeri tam doldurmaq üçün pressin şnekindən istifadə edin. Bunu aşağıdakı qaydada yerinə yetirirlər:

Şneki işə salın (kabinanın polunda əsas panelin yanında yerləşdirilən dəyişdirici açarla). Bunu pambığın qabaq tora yaxınlaşdığı zaman və pambıq şnekin qabağında toplanan zaman etmək lazımdır.

Qeyd: Bunker tam dolanda onu tez boşaldın və kanalların tutulmasına yol verməyin



A-Şneklərin işə salınması üçün dəyişdirici açar

Yığıcı aparatın zibillənməsi



A- Cərgəarası işləyən aparatların qolu
B-Ventilyatorun dəyişdirici aşçarı
E- Hidravlikanın dəstəyi
C- Drosselin dəyişdirici açarı
D- Transmissiyanın qolu
F- Şplint

Maşının istismarı

Yığıcı aparatda maneə yarandıqda barabanın muftası boş fırlanır, monitorda indikator lampası və dayanma lampası yanır və səs siqnalı gəlir. Bu baş verəndə:

1. Kombaynı təcili saxlayın
2. Qolu (A) arxaya verib cərgədə işləyən aparatı söndürün.
3. Dəyişdirici açar(B) vasitəsi ilə ventilyatoru söndürün.
4. Aparatları bir qədər qaldırın.
5. Kombaynı 1-2 metr arxaya verin.
6. Drosselin dəyisdirici açarını(C) boş gediş vəziyyətinə gətirin.
7. Transmissiyanın qolunu (D) və hidroqolu(E) netral vəziyyətə gətirin.
8. Dayanacaq tormozu birləşdirin.
9. Aparatları aşağı buraxın və ya qoruyucu məhdudlaşdırıcıları qoyun.
10. Açarı (F) alışdırma kilidindən çıxarın.

Yığıcı aparatda zibillənmənin aradan qaldırılması

Diqqət: Maneəni aradan qaldırmağa cəhd göstərməyin - əgər aparatlar ayrılmamışdırsa, mühərrik söndrülməmişsə, transmissiya və hidroqol neytral vəziyyətə gətirilməyibsə. Aparatı tam buraxın və məhdudlaşdırıcıları qoyun. Aparata baxış keçirin, əgər mümkünsə maneəni aradan qaldırın.

Əgər maneəni aradan qaldırmaq mümkün deyilsə , onda aşağıda qeyd edilmiş işləri görün.

Diqqət: Valın altında yay qoyulmuşdur. Əgər vinti çıxarsan val sürətlə fırlanar və dartıcı yay yerindən çıxar. Bu ciddi zədə və hətta ölümlə nəticələnə bilər. Valın tez boşalmasının qarşısını almaq üçün onu yuxarı hissədən açarla möhkəm tutmaq lazımdır.

8. Hündürlüyün izlənməsi

Hündürlüyü nəzərə alan xarici başmaqların bir xətt üzərində durması

Yığıcı aparatların hündürlüyünün nəzərə alınmasının nizamlanmasından qabaq onların mailliyini nizamlayın. Əgər siz yığıcı aparatları nizamlamasanız bu, aparatların və ya kombaynın nasazlığına səbəb olar.





A-Stopor qaykası
B- Başlıqlı vint
C- Xarici başmaqlar

Hündürlüyü avtomatik nizamlayan qurğunun quraşdırılması

1. Pambıqyığan kombaynı tam olaraq pambıq cərgəsinə salın.
   Aparan və aparılan təkərlər cərgə aralarında eyni səviyyədə durmalıdır.
2. Drosselin orta vəziyyətində mühərriki işə salın və hidravlik sistemi qızdırın. Hidroqolun üzərində olan ayırıcı açar vasitəsi ilə aparatları aşağı buraxın.

Diqqət: Aparat işləyərkən ona yaxınlaşdıqda sizi və yaxınlıqda olan şəxsləri dartıb aparata tərəf çəkə bilər. Bu , sizə və ətrafdakılara ciddi xəsarət verə bilər , hətta ölümlə nəticələnə bilər. Əmin olun ki aparat söndürülmüşdür.

3. Aparatların mailliyini bir daha nizamlayın.
4. Hündürlüyün avtomatik nizamlanmasını yoxlayın.





A- Hündürlüyü nəzərə alan başmaklar
B- Ayırıcılar
C- Yeyilən lövhə
D- Başlıqlı lövhə
E- Xomut

Hündürlüyü tənzimləyən daxili başmaqların düzülüşü

Diqqət: Maşının gözlənilmədən hərəkət etməsi sizə və digər adamlara xəsarət yetirə bilər. Ona görə də əmin olun ki, dayanacaq tormozu birləşdirilmişdir. Əgər adam aparatın hərəkət edən hissəsində olarsa, bu ciddi xəsarət və hətta ölümlə nəticələnə bilər. Xəsarət almamaq üçün kombaynın hərəkət edən hissələrindən aralı durun.



A- Hündürlüyü tənzimləyən başmaq

B-Üzüyün vinti

C-Ştanqa

1. Maşını düz səthli yerdə qoyub aparatları qaldırın və kronşteyni aşağı buraxın.
2. Başmaqların (A) torpaq səthinə toxunmasına az qalanadək yığıcı aparatı qaldırın və endirin.
3. Hündürlüyü tənzimləyənin düyüründə üzüyün (B) vintini boşaldın.
4. Ştanqı (C) yuxarı və aşağı hərəkət etdirməklə elə edin ki, daxili başmaqlar və xarici başmaqlar azca yerə toxunsun.
5. Üzüyün vintini sıxın.

Nəmləşdirici sistemin işə hazırlanması

Mütləq: Şpindelləri təmizləmək üçün xüsusi alətlərdən istifadə etdikdə şpindellərin və ayırıcıların ciddi zədələnməsinə səbəb olur.

Şpindellərin təmizlənməsi xüsusi nəmləşdirici sistemin köməkliyi ilə yerinə yetirilir. Şpintelləri (A) təmizləmək üçün aşağıdakılar lazımdır.

- Şpindeli təmizləmək üçün sulu məhlul və ya isladıcı material
- Tələb olunan suyun təzyiqi
- Nəmləşdiricinin yuyucu sisteminin dövrü olaraq istifadə edilməsi
- Nəmləndiricinin(B) kolonkası-nın nizamlanması





Soyuq havada işləyərkən

Mütləq: Kombaynı çöldə soyuq havada saxladıqda nəmləşdirici sistem sıradan çıxa bilər. Belə olduqda aşağıdakı əməliyyatları yerinə yetirin. Məhlulu verən nasosdan sistemdə su olmadıqda istifadə etdikdə nasos sıradan çıxar.

1. Torlu süzgəci (A) sökün kla-panı (B) açın və maşının sol tərəfində süzücü klapanı (C) açıb nəmləşdirici sistemin bakından mayeni süzün.
2. Maşını istifadə etməzdən qabaq torlu süzgəci yerinə qoyun süzücü klapanı bağlayın və nəmləşdirici sistemi doldurun.



A- Torlu süzgəc
B- Nippel
C- Süzücü qapaq (3 əd.)

Məhlulu vuran nasosun qayışının nizamlanması



1. Stopor qaykaları (A) boşaldın. **Mütləq:** Nasosun sıradan çıxmaması üçün onu məhlul olmadan işlətməyin. Belə olduqda həmişə qayışı çıxarın.

Mütləq: Podşipnikin dağılmaması üçün qayışı (B) həddin çox dartmayın. Əgər qayış normal tarımlanıbsa , onda onu baş barmaqla əymək olur.

2. Qayışı şkivlərlə düz vəziyyətdə qoyun, nasosun boltlarını (C) boşaldıb nasosu qabağa verin və ya nasosun şkivinin vintini (D) boşaldın.
3. Sxem üzrə qayışı tarımlayın.
4. Bütün boşaldılmış hissələri sıxın.

A- Bərkidici qaykalar
B- Lent
C- Montaj boltları
D- Nizamlayıcı vint

Nəmləşdirici dayaq



Mütləq: Nəmləşdiricinin poduşkası və şpindellər yeyilə və ya zədələnə bilər. Bu nasazlıq olmasın deyə nəmləş-diricinin kolonkası düzgün nizam-lanmalıdır.

Daşınma zamanı zədələnmələrin baş verməməsi üçün nəmləşdirici kolon-kalar zavodda nizamlanmır.

Nəmləşdiricilərin dayaqlarının iki növ nizamlanma üsulu mövcuddur:

- Dayağın vəziyyəti
- Dayağın hündürlüyü

Nəmləşdirici dayağın vəziyyətinin yoxlanması

Nəmləşdirici dayaq elə qoyulmalıdır ki, poduşkaların birinci (A) tini şpindelin tozqoruyucu xomutunun qabaq hissəsinə azca toxunsun.
Nəmləşdiricinin yuxarı və aşağı poduşkaları bir vəziyyətdə qoyulmalıdır.



A- Nəmləşdiricinin poduşkası

B- Şpindelin toz tutucu xomutu

Nəmləşdirici dayağın vəziyyətinin nizamlanması

Mütləq: Nəmləşdiricinin kolonkasının lazımi səviyyədə nizamlanması üçün onu tutucu qol vasitəsi ilə bağlamaq lazımdır.

1. Barabanları fırladın ki, şpindellər nəmləşdirici poduşkalardan bir az çıxsın.
2. Qapıcıqların tutucularını yuxarıdan (A) və aşağıdan (B) məhdudlaşdırıcı vintlərini boşaldın.



A- Qapıcıqların yuxarı məhdudlaşdırıcılarının başlıqlı vinti

B- Qapıcıqların aşağı məhdudlaşdırıcılarının başlıqlı vinti

3. Qapıcığı daxilə və xaricə açmaqla elə edin ki, hər bir poduşkanın tini (A) özünün toz qoruyucu xomutu (B) ilə birləşsin.
4. Qapıcıqların məhdudlaşdırıcı tutucuların vintlərini sıxın.
5. Nəmləşdirici dayağın hündürlüyünü nizamlayın.



A-Tin **B-Tozqoruyucu xomut**

Nəmləşdirici dayağın hündürlüyünün yoxlanması

1. Nəmləşdiricilərin poduşkalarında yeyilməni tez-tez yoxlayın.
Əgər poduşkalarda həddindən çox yeyilmənin əlaməti görünsə , onda onun şaquli nizamlanması tələb olunur.
Mütləq: Əgər nəmlədiricinin poduşkaları çox aşağıda quraşdırılsa , onda bu yeyilməyə səbəb olar.
Əgər nəmləşdiricinin poduşkaları çox yuxarıda quraşdırılıbsa, onda bu pambığın pis təmizlənməsinə səbəb olar. Çünki şpindellərə az yağ daxil olar və nəmləşdiricinin poduşkalarının səthi təmizlənə bilməz. Şpindelləri nəmləşdiricinin poduşkaları ilə təmizləmək lazımdır.
2. Nəmləşdiricinin kolonkasını hündürlüyə görə elə nizamlayın ki, hər bir poduşkanın (A) tini şpindellərə (B) azca toxunsun.



A-Nəmləşdiricinin poduşkası
B-Çarxlar

Nəmləşdirici dayağın hündürlüyünün nizamlanması

1. Kontrqaykanı (A) boşaldın.
2. Nizamlayıcı vinti (B) saat əqrəbi istiqamətində döndərin. Bu zaman kolonka qalxar. saat əqrəbi istiqamətinin əksinə fırladanda isə aşağı düşər.
3. Stopor qaykanı sıxın



A- Stopor qaykası
B- Nizamlayıcı vint

Mütləq: Hündürlüyə görə nizamlanma apardıqdan sonra qapıcığı bağlayın, sonra qoruyucu lövhə (A) ilə cərgəarası işləyən aparatın altlığı arasında qalan yerdə sıxlığı yoxlayın. Əgər ara boşluğu varsa onda, bərkidici hissələri boşaldın, qoruyucu lövhəni aşağıya tərəf sıxın. Bu zaman ara boşluğunu aradan qaldırmış olursan. Sonra bərkidici hissələri sıxın.
Qoruyucu lövhə nəmləşdirici dayağa zibilin düşməsinin qabağını alır və pnevmatik qapıcıqların tutulmasının qarşısını alır.

A- Qoruyucu lövhə

Nəmləndirici sistemin bakının doldurulması
(Bakda məhlulun qarışdırılması)

Diqqət: Tezalışan yaş materiallardan istifadə etməyin. Bu təsadüfən yanğına səbəb olar və ağır xəsarət yetirə bilər. Hətta yanğın ölümlə nəticələnə bilər. Tezalışan yanacaqla isladılmış materiallardan istifadə etməyin.

Şpindellərin təmizləyicilərini uşaq əli çatmayan yerlərdə qoruyun. Onu udanda ciddi zədə almaq olar. Bu hətta ölümlə nəticələnə bilər.





Mütləq: Su təmiz olmalı ,onda zibil olmamalıdır. Çirkli sudan istifadə etdikdə nəmləndiricidə nasazlıq yarana bilər.

Baka suyu və yaxud təmizləyicini ayrı-ayrı tökdükdə bu bir-biri ilə qarışmır.

Nəmləşdiricinin məsafədən birləşdirilən əlavə qurğudan (A), bakın boğazcığından (B) istifadə etməklə doldurmaq lazımdır.

Nəmləşdirici sistem

Məhlulu baka tökməzdən qabaq aşağıdakı əməliyyatları yerinə yetirin:

- Bakı yarıya qədər su ilə doldurun
- Ventilyatoru birləşdirin ki, su bakda fırlansın.
- Su hərəkətə gəldikdə şpindel təmizləyicisini və ya John Deere şirkətinin isladıcı məhlulunu əlavə edin.
- Baka su əlavə edin.
- Məhlulu təqribən beş dəqiqə qarışdırın.

Qeyd: *Hazır məhlulu 24 saatdan sonra istifadə edin.*

Hazır məhluldan baka əlavə məhlul tökmək olar.

A – Məsafədən məhlul tökmək üçün əlavə qurğu

B - Bakın boğazcığının qapağı

Nəmləşdirici sistemin bakının məsafədən doldurulması (hazır məhlul)





Əgər böyük baka hazır məhlul tökülübsə pambıqyığan maşına doldurmazdan əvvəl onu bir neçə dəqiqə ərzində qarışdırın.

1. Böyük bakdan gələn rezin borunu əlavə xətlə və yaxud çənin boğazcığının qapağından çənə salın.
2. Bak dolandan sonra klapanı bağlayın.
3. Xətti ayırın.

A- Məsafədən doldurmaq üçün əlavə;

B-Tökucü boğazcığın süzgəclə qapağı;

Nəmləşdirici bakın hava daxil olan deşiyinin təmizlənməsi





1. Gündəlik olaraq bakın (A) tökücü boğazcığının qapağını yoxlayın və əmin olun ki, hava daxil olan deşik çirk ilə tutulmamışdır.
2. Əgər lazım gələrsə, süzücü elementi təmizləyin. Çirki və sairə zibili qapağın altından təmizləyin.

A- Bakın tökücü boğazcığın qapağı

John Deree firmasının şpindel təmizləyicilərindən istifadə edilməsi

Diqqət: Şpindel təmizləyicilərini uşaq əli çatmayan yerlərdə qoruyun. Onu udanda sizə və digər adamlara ciddi zədə vura bilər. Hər hansı bir halda həkimə müraciət edin. Təmizləyici gözə düşəndə onu təcili su ilə yuyun.

	Əməliyyatlar	Ölçü	Həcmi	
	John Deree firmasının AN 30975 isladıcı məhlulu	Butulkanın tutumu	3,8 L	
	John Deree firmasının AL1112N isladıcı məhlulu	Vedrənənin tutumu	19 L	
	John Deree firmasının AN114022 şpindel təmizləyicisi	Vedrənənin tutumu	19 L	
	John Deree formasının AN114023 şpindel təmizləyicisi	Çənin tutumu	208 L	

Qeyd: John Deree firmasının şpindellər təmizləyicilərinin istifadəsi aşağıdakıları təmin edir:

- *Təmizləyicinin məhlulunun az istifadə edilməsini ;;*
- *Yığıcı aparatın qapıcıqlarının nə qədər hissəsinin yaxşı quru olmasını:*
- *Çirkin az toplanıb yığılmasını;*
- *Yığıcı aparatların hissələrinin yaxşı təmizlənməsini;*
- *Nəmləndirici sistemin texniki xidmətlərinin azalmasını*

Tövsiyyə olunan məhlul qarışığı orta şərait üçün tam doldurulmuş baka, yəni 1041 L ; 15,6 L təşkil edir

Şpindellərin təmizləyicisi ..... tam doldurulmuş baka 15.6 L

Nəmləşdirici sistem

John Deree firmasının şpindelin təmizləyicisi

Aşağıdakı cədvəldə baka tökulən suyun və şpindel təmizləyicisinin miqdarı göstərilmişdir.

Misal üçün: əgər bakda suyun miqdarı 964,3L-dirsə, onda 94,6L su və 1,4L şpindel təmizləyicisi əlavə edin.

Şpindel təmizləyicisi və suyun qarışdırılması nisbəti	
Metrik ölçü vahidi	1,5L/100litrə
Əgər bakda məhlulun səviyyəsi bərabərdirsə:	Şpindel təmizləyicisinə su (L) əlavə edin
946 L	946 L suya 1,4L şpindel təmizləyicisi əlavə edin
757 L	283 L suya 4,3 L şpindel təmizləyicisi əlavə edin
568 L	473 L suya 7,1L şpindel təmizləyicisi əlavə edin
Əgər bakda məhlulun səviyyəsi bərabərdirsə	Əlavə edin su L-lə ; məhlul L-lə
378L	662 L suya10,9 L şpindel təmizləyicisi əlavə edin
189L	852 L suya12,8 L şpindel təmizləyicisi əlavə edin
Təmizləmə	1041 L suya 15,6L şpindel təmizləyicisi əlavə edin.

John Deree firmasının şpindel təmizləyicisinin qorunması

Diqqət: Şpindel təmizləyicisini bağlı binada kənar şəxslərin girişi qadağan olan yerdə saxlamaq lazımdır. Şpindel təmizləyicisini udanda ciddi zədə ala bilərsiniz. Konteynerləri elə qoruyun ki, ona su daxil ola bilməsin.

John Deree firmasının isladıcı maddələrin istifadə olunması

Diqqət: Neftdən hazırlanmış isladıcı maddə tez alışıb yanır. Bu maddə gözlənilmədən alışıb yana bilər və sizə ciddi zədə yetirə bilər və hətta ölüm hadisəsi baş verə bilər. Neftdən hazırlanmış isladıcı maddələrdən istifadə etməyin. Pambıqyığan şpindel təmizləyicilərin istifadə olunması üçün xüsusi püskürdücü ilə təchiz olunmuşdur. İsladıcı maddələr üçün böyuk diametrli püskürücüdən istifadə etmək tövsiyyə olunur. Yaxşı olar ki, 6 № -li püskürdücü qoyulsun.

Bütün baka 2,0 L məhlulun nisbəti ilə istifadəsi tövsiyyə olunur.

Suyun təzyiqinin nizamlanması

Mütləq: Su nasosu həmişə ventilyator işə düşəndə birləşir. Nasosun susuz işlədilməsinə yol vermək olmaz. Bu podşipniklərin dağılmasına səbəb olar. Quru qalması üçün həmişə su nasosundan hərəkət ötürücü qayışı çıxarın.

1. Ventilyatoru birləşdirin və mühərrikin dövrlər sayını artırın.
2. Suyun təzyiqini nizamlamaq üçün rəqəmli sayğaca (B) birləşdirib (C) ayırıcı düyməni basın.
3. Ayırıcı açarla (A) suyun təzyiqini nizamlayın.Bu zaman cihazda 103-172 kPA (1.0-1.7 bar) rəqəmi görünər.Təzyiqi artırmaq üçün düyməni + tərəfə, azaltmaq üçün isə - tərəfə basın.

Suyun təzyiqi 138 kPa (1.4 bar) olmalıdır. İş şəraitindən asılı olaraq gün ərzində suyun təzyiqini dövrü olaraq yoxlayın və nizamlayın.



A- Suyun təzyiqini dəyişən açar
B- Rəqəmli cihaz
C- Suyun təzyiqini dəyişən açar
D- Aktiv işi təmin edən dəyişən açar.

Nəmləşdiricinin yuyucu sistemin istifadə olunması

Şpindellərdə çirklənmə əlamətləri olduqda məhluldan minimal istifadəni təmin etmək üçün nəmləndiricinin yuyucu sistemini avtomatlaşdırın.

Bunun üçün aparatlar və ventilyator işləyən zaman kabinanın döşəməsində yerləşən düyməni(A) basın:

- hər dəfə bunkeri boşaldanda 10-15 saniyə (normal şəraitdə);
- sahənin bir başında 4-5 saniyə (çox çirklənən şəraitdə)
- sahənin hər iki başında 4-5 saniyə (daha çox çirklənən şəraitdə)

Cərdəgədə pambıq yığımı zamanı yuyucu sistemi birləşdirməyin. Bu aparatların tutulmasına səbəb olar.



A- Nəmləşdiricinin yuyucusunun ayırıcı açarı

Süzgəclərin torlarının təmizlənməsi

Sistemin baş torlu süzgəcini gündəlik və ya çirklənəndə təmizləyin.

Bunun üçün klapanı bağlayın və toru çıxarın.



A-Torlu süzgəc

Forsunkaların təmizlənməsi



A- Soplo **C- Qayka** **E- Gövdə**
B- Süzgəcin toru **D- Forsunka**

Aparatların forsunkaların torlu süzgəcləri hər bir soploda vardır. Hansı ki, gündəlik yoxlama və təmizləmə tələb edir. Maşında standart avadanlıq kimi 3 №-li soplalar qoyulur. Püskürməni 100% artırmaq üçün 6 №-li soplo qoymaq lazımdır.

Nəmləşdiricinin kolonkalarının poduşkalarının dəyişdirilməsi

Mütləq: Nəmləşdiricinin kolonkasına rahat yanaşmanı təmin etmək üçün nəmləşdiricinin kolonkasına dolan pambığı və yapışan yarpaqları təmizləmək lazımdır. Bunun üçün:

- Poduşkaları sökmək üçün qalın məftildən qarmaq şəkilli alət (A) düzəldin.
- Bu alətlə poduşkanı (B) çıxarın.
- Poduşkanın yeyilməsini və ya zədələnməsini yoxlayın. Əgər bu əlamətlər vardırsa, onda poduşkanı dəyişin. Poduşkanı təkrarən yerinə qoyduqda deşiyi (C) təmizləyin.



Mütləq: Əgər poduşka tələb olunan şəkildə yerinə qoyulmayıbsa onda şpindelin və ya içliyin yeyilməsinə səbəb olur. Poduşkanı elə qoyun ki, onun tini altlığın içliyinə perpendiklyar dursun.



A- Poduşkaları açmaq üçün alət;
C-Deşik; B-Nəmləndiricinin poduşkası; D-Poduşkanın tini E- Poduşkanın içliyi.

Yığıcı aparatlarların hərəkət etməsi



Təmizlik , nizamlama və texniki xidmət işlərini aparmaq üçün yığıcı aparatları aralamaq lazımdır.

1. Yığıcı aparatı aralamaq üçün aləti rolikin altı künc başlığı üzərində qoymaq lazımdır
2. Deşikdən yaylı ştifti (B) çəkib çıxarın
3. Aləti fırladıb ştiftin lazım olan deşiklə üst-üstə düşməsini təmin edin. Aparatın yerində qalmasına əmin olmaq üçün ştiftin yeni deşiyə düşməsini təmin edin.
4. Texniki xidmət işlərindən sonra aparatı əvvəlki vəziyyətə gətirin. Əmin olun ki, ştift deşiyə tam düşmüşdür.
5. Aparatı qorunma vəziyyətdə saxlayın.





A- Yerdəyişmə üçün alət

B- Yaylı ştift

Yığıcı aparatın mailliyinin nizamlanması

Diqqət: Aparatlar çox ağırdır. Əgər aparat gözlənilmədən işə düsərsə və adam aparatın hərəkət edən hissəsinə ilişərsə onda bədbəxt hadisə baş verə bilər. Aparata yaxınlaşmazdan əvvəl mühərriki söndürün və alışdırma açarını yerindən çıxarın.

Hər bir dartıcı muftanı (A) nizamlayın ki, qabaq baraban arxa barabana nisbətən 19 mm aşağıda işləsin. Bu şpindellərə daha çox pambığın tullanmasına və aparatın altından maksimal miqdarda zibilin tullanmasına səbəb olar.



Ştiftlər arasında məsafə ..... 584 mm

***Qeyd**:Əmin olun ki, hər iki qaldırıcı çərcivə bərabər hazırlanmışdır.*

A – Dartıcı mufta
B – Barmaqdan barmağa qədər olan məsafə

Saplaqqadıranların nizamlanması



Mütləq : Mümkündür ki, saplaqqaldıranlar çox yeyilsin. Saplaqqaldıranın burnunun tələb olunan səviyyədən aşağı buraxmayın. Bu saplaqqaldıranın zədələnməsi ilə nəticələnə bilər. Zəncir aşağı kəsiyin hissəsində qoyulmalıdır ki, asılı səviyyədə durmasın. Əks halda saplaqqaldıranın burnu torpağa toxuna bilər. Saplaqqaldıranı nizamlamazdan qabaq yığıcı aparatın mayilliyini və hündürlüyünü tələb olunan səviyyədə qoymaq lazımdır.

Əvvəlcə saplaqqaldıranın (A) burnunu nizamlayın. Elə edin ki, o, saplaqqaldıranın aşağı hissəsindən 25 mm yuxarıda dursun. Bunu zəncirin (C) köməkliyi ilə yerinə yetirin.

A- Nizamlama nöqtəsi
B- Saplaqqaldıranın oturan yeri
C- Zəncir

Reşetkanın lövhələrinin nizamlanması



Reşetkanın lövhələrini elə nizamlayın ki, kombayn cərgəyə girdikdə şpindellər lövhələrə toxunmasın və pambıq yerə tökülməsin. Qabaq və arxa barmaqların reşetkanın lövhələrinin qabaq hissəsini elə nizamlayın ki, lövhələr cərgədən çıxanda şpindellərin tən ortasında yerləşsin. Reşetkanın qabaq ucunu nizamlamaq üçün onun dörd bərkidici vintini boşaldın (A) və boltlarla bərkidilmiş zolağı yuxarı və aşağı vəziyyətə gətirin. Yenə başlıqlı bərkidici vintləri sıxın.

A- Başlıqlı vintlər

Dayaq diskin ara boşluğunun nizamlanması



Diqqət: Bədəninizin bir hissəsinin fırlanan şpindellərə ilişməsi ciddi zədəyə və hətta ölümə səbəb ola bilər.Ehtiyatlı olun, kombaynın hərəkət edən hissələrinə yaxınlaşmayın.

Nizamlama işlərinə başlamazdan əvvəl, yeyilmiş və ya əyilmiş sıxıcı lövhələri təmir edin.

Sıxıcı lövhələrin ara boşluğunun (zazor) yoxlamaq üçün aparatları astaca fırladın.

Sıxıcı lövhələri (A) elə nizamlayın ki, şpindellər onlara təqribən 3-6 mm aralıqda qalsın və onlara toxunmasın. Qaykaların köməkliyi ilə diskləri nizamlayın.

Sıxıcı lövhələri şpindellərdən 6 mm-dən çox aralıqda qoymayın. Əks təqdirdə cərgənin sol tərəfində pambıqdan zolaq əmələ gələ bilər.

Yuxarı və aşağı hissələri bərabər nizamlayın.





A-Sıxıcı lövhələr **B-Qaykalar**

Dayaq diskin tarımlayıcı yayının nizamlanması



Diqqət: Val yay üzərində quraşdırılmışdır. Əgər flansla vint açılıbsa onda yayın təsiri altında val tez fırlanar və yayın tarımlığını pozar. Bunun nəticəsində atılan hissələr ciddi zədə verə bilər və hətta ölüm hadisəsi baş verə bilər. Bunun üçün valın tez boşalmasının qarşısını almaq üçün açarı onun üst səthində möhkəm saxlamaq lazımdır.

Birinci yığım üçün:

1. Açarın köməkliyi ilə valı möhkəm saxlayın. Sonra vinti (A) açın. Fikir verin ki, nizamlayıcı deşiyin (B) yivi yoxdur.
2. Nizamlayıcı lövhəni (C) döndərin ki, yaylar sıxıcı lövhələrə azca toxunsun. Kronşteyndə (D) olan iki deşikdən biri nizamlayıcı lövhənin deşiyi ilə üst-üstə düşər.
3. Qabaq nizamlayıcı lövhəni iki deşiyə nizamlayın (üç deşik daşlı sahələr üçündür). Başlıqlı vinti yerinə qoyun.
4. Arxa nizamayıcı lövhəni üç deşiyə nizamlayın. Başlıqlı vinti yerinə qoyun.



A-Başlıqlı vint

B-Nizamlayıcı deşik

C-Dəyişən lövhələr

D-Sıxıcı

Hündür və sıx pambıq bitkisi olan sahələrdə aşağıdakı hərəkətləri yerinə yetirin.

- Əvvəlcə qabaq sıxıcı lövhəni ½ deşiyə qoyun.
- Arxa sıxıcı lövhəni 3 deşiyə qoyun.

Əgər bitkilər üzərində çoxlu pambıq qalırsa, onda əvvəlcə arxa sıxıcı lövhəni bərkidin. Lazım olsa qabaq sıxıcı lövhəni bərkidin.

Yumşaq bitkilər üçün siyirici disklərdən istifadə etməyin (əsasən qabaq barabanda) əks halda aparat tutular və bitki zədələnər.

İkinci yığım üçün

Lazım olarsa , qabaq və sıxıcı lövhələri bir və ya iki əlavə deşiyə qədər sıxın.

Siyirici disklər (əlavə)



Qeyd : *Alçaq boylu kollardan və yaxud sonuncu yığımda məhsuldarlığı artırmaq üçün siyirici diskləri qoymaq lazımdır.*

Sıx bitkilərin ilk yığımında siyirici disklərdən istifadə etmək məsləhət görülmür.

1. Beş ədəd başlıqlı vinti M10 x 20 (B) açın və içliyi (A) çıxarın.

A-Uzadıcı
B-Başlıqlı vint M10 x 20

2. Beş ədəd başlıqlı vinti M10 x 25 (B) açın və dayaq diskdən içliyi çıxarın (A) .



A- Dayaq diskin içliyi
B- Başlıqlı vint M10 x 25

3. Əlavə lövhəni (A) və siyirici diskləri (B və C) dayaq diskin daxili hissəsinə boltlarla (D) M10 x 30 (E) və qaykalarla birləşdirin. 4 –şpindelli siyirici diskləri (B) yuxarıdan və aşağıdan və 10 şpindel diski (C) ortada qoyun. Yuxarı və aşağı siyirici diskləri dörd ədəd boltla, mərkəzi diski isə beş ədəd boltla bərkidin.

4. Bütün bərkidici hissələri sıxın.



A-Dayaq diskin içliyi
B-4-şpindel diski (2 ədəd)
C-10-şpindel diski (1 ədəd)
D-Sıxıcı lövhə
E-Kotan boltları, M10 x 30 (13 ədəd)



Ayırıcının kolonkasının hündürlüyünün yoxlanması



Mütləq: Pambıq ayıırıcıların kolonkalarının tələb olunan hündürlükdə olmaması ayırıcının poduşkasının həddindən çox yeyilməsinə, şpindellərin içliklərinin yeyilməsinə səbəb ola bilər. Əgər ayırıcıların kolonkaları çox yuxarıda qoyulubsa onda şpindellər materialı lazımı səviyyədə yığmaz. Ayırıcının kolonkasını nizamlamadan işə başlamayın. Bunun üçün aşağıdakı əməliyyatları yerinə yetirin:

1. Bunkeri hər boşaldanda ayırıcılara pambığın dolanmamasını yoxlayın.
2. Əmin olun ki, şpindel ilə ayırıcı arasında çox da böyük olmayan müqavimət hiss olunur.

Ayırıcıların hündürlüyünün nizamlanması-normal istismar şəraiti



1. Barabanı elə qoyun ki, bir cərgə şpindellər bu barabanda aşağı kəsik çərçivənin kəsiiyində (A) eyni ox üzrə qalsın. Bu ayırıcının və şpindellərin nizamlanması üçün əlverişli yerləşməsini təmin edir.
A-Deşik
2. Kontrqaykanı (A) boşaldın
3. Saat əqrəbinin əksinə istiqamətində nizamlayıcı vinti (B) açın. Bununla ayırıcının kolonkasının sərbəst fırlanması təmin olunur (şpindellər ayırıcılara toxunmur).
4. (Orta iş şəraiti üçün) Ayırıcını qabağa və ay arxaya döndərməklə nizamlayıcı vinti arxaya döndərin. Bu zaman şpindellər və ayırıcılar arasında yüngül müqavimət hiss olunmalıdır.
5. Nizamlayıcı vinti lazım olan vəziyyətdə tutub kontrqaykanı sıxın.
6.Ayırıcıların hündürlüyünü gündə ən az iki dəfə yoxlayın. Lazım olarsa nizamlayın.



A- Stopor qaykası B- Nizamlayıcı vint

Ayırıcıların hündürlüyünün nizamlanması – ağır istismar şəraiti

Mütləq: Adi olmayan şəraitdə işləmək o vaxt olur ki, bitki hündür və sıxdır, pambığın bir hissəsi yuxarı ayırıcılar vasitəsi ilə yığılır və ya çox qısadır , onda pambığın çox hissəsi aşağı ayırıcılar vasitəsi ilə yığılır. Bu zaman isə ayırıcıların qeyri-bərabər yeyilməsi baş verir.
Qeyri-adi şərait həmçinin pambıq materialın şpindelə dolanması baş verir və bu da öz növbəsində ayırıcının tez-tez nizamlanmasını tələb edir.
Qeyd: Adi pambıq bitkilərini yığdıqda, ayırıcılarda yeyilmə bərabər səviyyədə olur. Kifayətdir ki, ayırıcıların nizamlanması aparılsın.
Bu situasiyada deşiklər üzərində ştanqın nizamlanması və şpindellərin müqavimətinin yoxlanılması tələb olunur.

1. Qeyri adi şəraitdə işləyəndə şpindelləri (bitki alçaq boylu olduqda) mərkəzləşdirin və ayırıcıların kolonkalarının hündürlüyünü nizamlayın və bu zaman ayırıcı və şpindellər arasında azca müqavimət hiss olunsun.
Mütləq: Heç bir halda ayırıcılar şpindellərə toxunmamalıdır. Bu, şpindellərin və içliklərin vaxtından əvvəl yeyilməsinə gətirib çıxarar. Əgər tələb olunmursa, ayırıcını əlavə olaraq ⅛ dövr sıxmaq lazım deyil.

2. Ayırıcıları ⅛ dövr əlavə olaraq sıxın ki, qeyri -bərabər yeyilmə baş verməsin.
3. Çox ağır bir şəraitdə işləyəndə ayırıcıları ən az gündə iki dəfə yoxlayın və nizamlayın.Şpindellər üzərindən ayırıcıları qaldırın və onları yendən nizamlayın.

Qeyd: *Ayırıcılar eyni səviyyədə yeyiləndə adi bitkiləri yığan zaman yalnız ayırıcıların nizamlanması kifayət edər. Hündür pambığı yığanda ayırıcılar qeyri-bərabər yeyildiyində operator yoxlama zamanı müqaviməti hiss edər.*

Yığıcı aparatın hərəkət ötürücü qayışın nizamlanması

1. Kontrqaykanı (A) boşaldın.
2. Nizamlayıcı qaykanı (B) saat əqrəbi istiqamətində döndərin. Bu zaman qayış tarımlanacaq.
3. Stopor qaykanı sıxın.



A- Stopor qayka

B- Nizamlayıcı qayka

Aparatın hərəkət ötürücü qayışının tarımlanması

Qayışın tarımlığı – 7 mm
Qoyulan qüvvə 7,7-11,0 kq

Şpindellərin dəyişdirilməsi

Diqqət: Aparatın yerə buraxılması nəticəsində əzilmə və yaxud onun fırlanan hissələrinə ilişmə sizə və digər şəxslərə ciddi xəsarət yetirə bilər və hətta ölümlə nəticələnə bilər.
Yığıcı aparatlar üzərində işləyən zaman aparatı tam yerə buraxın və yaxud məhdudlaşdırıcılar üzərində qoyun. Aparata yaxınlaşanda mühərriki söndürün və alışdırma açarını yerindən çıxarın.

Təmir işləri zamanı kombaynın dəstinə qoyulmuş şpindel açarından istifadə edin
A-Şpindel açarı

Döyücülərin dəyişdirilməsi



1. Bərkidici hissələri M10 (A) açın və qapağı açın ki, döyücülərə (B) rahat yanaşmaq mümkün olsun.
2. Barabanı döyücülərin deşiyindən görünənə qədər fırladın. (qaykalı açarı ayırıcının altı künc valı üzərində qoymaqla)

Mütləq: Döyücülərin zədələnməsi mümkündür. Qabaq və arxa kvadrat yaylı şaybaları hansı barabandan sökülübsə, mütləq həmin barabanın üzərində qoyulmalıdır.



3. Barabanın başlığının boltlarını və kvadrat yaylı şaybaları (C) hər iki tərəfdən sökün.
4. Qoyulmuş döndərici ştiftdən iki vinti açın .

Qeyd: Yadda saxlayın ki, döyücü söküldükdən sonra plastik aralıq konnsistent yağla (B) öz yerinə qoyulmuş olsun.

5. Aparatdan döyücünü aşağı ucundan başlamaqla sökün.

Mütləq: Şpindelin aparıcı dişli çarxının zədələnməsi mümkündür. Yeni döyücü tam yığılmalı və sizə xidmət edən təşkilat John Deree şirkətin dileri tərəfindən yoxlanılmalıdır.



Döyücünü qoyduqda aşağıdakı işləri görmək lazımdır:

a- əmin olun ki, plastik aralıq konsistent yağla döyücünün sapfası üzərində qoyulmuşdur.
b- əmin olun ki, yumruqlu rolikin yeyilmiş qilzi qaldırılmışdır.

Mütləq: Əgər bütün döyücülər barabandan çıxarılıbsa, onda onları yerinə qoyun və bərkidici hissələri sıxın.

c- ştiftləri və qaykaları cədvələ uyğun yerinə qoyub bərkidin.

Ayırıcıların dayağının sökülməsi



Diqqət: Aparatlar çox ağırdır. Aparatın adam üzərinə düşməsi ciddi zədə verə bilər və hətta ölümlə nəticələnə bilər.

Aparatla işləməzdən qabaq qoruyucu məhdudlaşdırıcıları silindrlərin ştoklarının yuxarı səthinə qədər buraxın.

1.Başlıqlı vinti açarla (A) açın.

A- Başlıqlı vint

2. Qaykanı (B) boşaldın.

3. Nizamlayıcı vinti (A) saat əqrəbi istiqamətinin əksinə o qədər fırladın ki, onun qısa valdan tam yuxarı qalxması təmin olunsun.



A- Nizamlayıcı vint
B- Qayka

4. Aşağı podşipnikin gövdəsindən pres-məməciyi (A) açın.



A- Pres-məməcik

Mütləq: Nizamlayıcı diskin (B) başlıqlı vintlərini boşaltmayın , çünki bu zaman yenidən tam olaraq nizamlama tələb olunar.

1. Üç qaykanı və vintləri (A) açın .
2. Aşağı podşipnikin gövdəsini açın.
3. Ayırıcının dayağını açın.





A- Boltlar;

B- Nizamlayıcı lövhənin başlıqlı vinti;

Ayırıcının dayağının qoyulması

1. Ayırıcının kolonkasının üstünü və flansını təmizləyin ki, təmasda olan səthdən bütün zibili kənar etmək mümkün olsun.
2. Ayırıcının kolonkasını yığıcı aparata birləşdirin.
3. Əgər tələb olunarsa , nizamlayıcı vinti (B) saat əqrəbinin əksinə istiqamətində döndərin ki, flans ayırıcının yuxarı kolonkası ilə toxunsun. Hələlik qaykanı (A) sıxmayın.



A- Qayka
B- Nizamlayıcı vint

4. Başlıqlı vintləri (A) yerinə qoyun və onları ardıcıllıqla sıxın.

A- Başlıqlı vintlər



5. Əmin olun ki, kəsiyin (A) daxili araqatısı plastik sıxıcılarla bərkidilib.

A- Gövdənin daxili kipləşdiricisi



6. Ayırıcının podşipnikinin gövdəsini yüksək temperatura davam gətirən yağla doldurun. Yağlar John Deree firmasının istehsal etdiyi yağlar olmalıdır.
7. Podşipnikin gövdəsini elə qoyun ki, pres- məməcik yığıcı aparatın arxa hissəsində yerləşsin.
8. Gövdəni alt hissənin kəsiyindən ayırıcının kolonkası üzərində qoyun və başlıqlı vintlərlə bərkidin.
9. Yığıcı aparatın işlədilməsindən qabaq ayırıcının dayağının hündürlüyünü nizamlayın.
   Əgər ayırıcının dayağı düzgün nizamlanmayıbsa , onda aşağıdakılar baş verər:
   - Əgər ayırıcılar həddindən çox hündürlükdə qoyulsa , onda şpindellər lazıım olan səviyyədə təmizlənməyəcəkdir.
   - Əgər ayırıcılar çox aşağıda qoyulubsa, bu ayırıcıların poduşkalarının vaxtından əvvəl yeyilməsinə və həmçinin yumruqcuğun və döyücünün hissələrinin əyilməsinə səbəb olacaqdır.
10. Press-məməciyi yerinə qoyun. Podşipnikin gövdəsini yüksək temperatura davamlı yağla yağlayın. Yağlar John Deree firmasının istehsalı olmalıdır və yaxun ona uyğun olmalıdır.



11 . Vari- Row (VRS) sistemin cərgəarası aparatları

Stasionar bıçağın nizamlanması

Diqqət: Bıçaqlarla işləyəndə zədə alınmaması üçün əlcəklərdən istifadə edin.

1. Fasonlu boltları (A) və istiqamətləndiricini (B) çıxarın.



A- Kvadrat başlıqlı bolt
B- **Göstərici**

2. Qaykaları (A) boşaldın

A- Qayka

Qeyd: *Ara boşluğu (D) həmişə eyni ölçüdə olmalıdır. Əgər araboşluğu tələb olunan ölçüdə deyilsə onda tərpənməz bıçağın uzununa yarım qalınlıqda nizamlayıcı araqatı qoyun.*

3. Araqatı (A) əlavə edin ki, tərpənməz bıçaqla (B) və fırlanan bıçaq arasında tələb olunan araboşluğu alınsın. Araboşluğu 0,127-0,762 mm arasında olmalıdır.

4. Qaykaları (A) sıxın. Araboşluğunu yoxlayın. Əgər araboşluğu düzgün qoyulmayıbsa onda əvvəlki işləri təkrar edin.

Qeyd: Bundan başqa bıçağın dayağının boltlarını boşaldıb dayağı aşağı buraxmaq olar.





Tərpənməz bıçağın tam nizamlayıcı araqatısı 0,25 mm

Tərpənməz bıçağın yarım nizamayıcı araqatısı 0,25 mm

A- Nizamlayıcı araqatı
B- Stasionar bıçaq
C- Fırlanan bıçaq
D- Araboşluğu (zazor)

5. Kvadrat başlıqlı boltlar (A) vasitəsi ilə istiqamətlvericini (B) yerinə qoyun.



A- Kvadrat başlıqlı bolt
B- Göstərici

Yığıcı aparatın zibillənməsinin aradan qaldırılması



Diqqət: Aparatın yerə düşməsi nəticəsində əzilmə və ya onun fırlanan hissəsinə toxunma zamanı sizə və ya digər şəxslərə ciddi xəsarət yetirilə bilər və hətta ölüm hadisəsi baş verə bilər. Mühərrik söndürülməsə və aparat dayandırılmasa mövcud maneəni aradan qaldırmağa cəhd göstərməyin. Aparatı yerə buraxmaq və yaxud qoruyucu məhdudlaşdırıcılar üzərində qoymaq lazımdır.

Bədən xəsarətlərindən uzaq düşmək üçün materialı əl ilə maşına verməyin.

Vari- Row (VRS) sisteminin cərgəarası aparatları

Aparata baxış keçirin və əgər mümkünsə maneəni kənarlaşdırın, mümkün olmursa onda aşağıdakı işləri görün:

Diqqət: Valın altında yay qoyulmuşdur. Əgər başlıqlı vinti çıxarsan val tez fırlana bilər və yaxud tarımlığı pozular. Bu zaman atılan hissələr zədəyə səbəb ola bilər. Valın tez boşalmasının qarşısını almaq üçün açarı yuxarı hissədə bərk tutmaq lazımdır.



1. Dayaq diskin tarımlığını başlıqlı vinti (A) çıxarmaqla tam aradan qaldırın. Yaddan çıxarmaq lazım deyil ki, nizamlayıcı deşiyin (B) yivi yoxdur.
2. Barabanı əl ilə əksinə istiqamətdə döndərin . (Ayırıcının valını dəstəyi olan qaykalı açarla fırladın)
3. Əgər manea aradan qaldırılmayıbsa, onda fiziki qüvvə ilə barabanı geriyə fırladın.
4. Aparatı təmizləyin və yoxlayın.
5. Zədələnmiş aparatı təmir edin.
6. Bütün sökülmüş hissələri yerinə qoyun və nizamlayın.

A- Bərkidici bolt flanslı başlıqla
B- Nizamlama üçün deşik

Fırlanan bıçağın seksiyasının sökülməsi və dəyişdirilməsi

Diqqət: Bıçaqla işləyərkən xəsarət almamaq üçün bıçaqla işləyərkən əlcəkdən istifadə edin.

1. Flansdan (A) və lövhədən (B) başlıqlı vinti açın.
2. Stopor qaykanı və vinti (C) açmaqla bıçağın seqmentini açın.
3. Sadalanmış işləri əksinə ardıcıllıqla yerinə yetirməklə bıçağa yeni seqment qoyun.
4. Stopor qaykasını (C) 12 Nm qüvvə ilə sıxın.





A- Flanslı başlıqlı bərkidici bolt
B- Gövdə
C- Stopor qaykası və bərkidici bolt (3əd)

Jatkanın hündürlüyə görə idarə olunmasının nizamlanması

1. Qapağı (A) açın.
2. Tələb olunan nəticəni almaq üçün stopor qaykasını (A) sıxın və ya boşaldın.



Diqqət: Aparata toxunmaq sizə və ya digər adamlara xəsarət yetirə və hətta ölümlə nəticələnə bilər. Yoxlayın ki, cərgəarası işləyən aparatlar ayrılmışdırmı, hansı ki, aparat hərəkət edən zaman sizə ilişə bilər və ya sizə zərbə yetirə bilər.

Vari- Row (VRS) sisteminin cərgəarası aparatları

a- Maşını beton meydançada parkovka edin, dayanacaq tormozu birləşdirin aparatı və bütün köməkçi avadanlıqları ayırın.
b- Qaldırıcı çərçivəni elə buraxın ki, başmaqlar torpaq səthindən azca yuxarıda qalsın.
C- Başmaqları yavaş-yavaş qaldırın və yoxlayın ki, başmaq nə qədər hündürlüyə qalxıb.
Başmaqları nizamlayın.



Qeyd: Sahədə nizamlama aparanda stopor qaykasını (A) ½ dövr döndərin.

A- Stopor qaydası
B- Başmağın hündürlüyünü tənzim edən datçik



12. Yığıcı aparatın monitor sistemi

Yığıcı aparatın monitorunun displey funksiyası

Yığıcı aparatın monitorunun displeyində indikator lampası operatoru aşağıdakılarla məlumatlandırır:

- Yığıcı aparatın mühərrikinin boş gedişini, ilişmə muftasının boş fırlanmasını
- Yığıcı aparatın əsas muftasının boş işləməsini
- Qapıcıqların və ya sovurma kamerasının kanalının qapanmasını
- Yığıcı aparatın qeyri normal sürətini
- Nominal işi

Mütləq: Əgər indikator lampası yanarsa (baraban dayanarsa və ya yığıcı aparatın qapıcıqlarının zibillənərsə) displeydə STOP lampası yanar və fasiləsiz səs siqnalı gələr. Maşını təcili saxlayın , yığıcı aparatı söndürün və nasazlığın səbəbini aradan qaldırın. Bütün sistemlər normal işləyəndə NORMAL (A) indikator lampası yanar.



A- İndikatop lampası NORMAL
B- Lampa STOP

Yığıcı aparatın və barabanın müftasının boş fırlanması



Diqqət: Yığıcı aparatın hərəkətdə olan hissələrinə iş zamanı toxunmaq ağır xəsarətlə və ya ölümlə nəticələnə bilər. Aşağıdakı işləri görmədən yığıcı aparatı zibildən təmizləməyin.

- Yığıcı aparatlar ayrılmamışsa.
- Transmissiya neytral vəziyyətə gətirilməyibsə
- Alışdırma açarı yerindən götürülməyibsə
- Parkovka zamanı dayanacaq tormozu birləşdirilməyibsə

Yığıcı aparatın monitor sistemi

Yığıcı aparat zibillənəndə mufta boş fırlanmır, nəticədə bir və bir neçə indikator lampasi (A) yanır və yaxud yanıb-sönur , STOP lampası yanır və siqnalizasiya işə düşür. Yığıcı aparat zədələnə bilər. Zibilliyi aradan qaldırmaq məqsədi ilə yığıcı aparatları əksinə gedişlə birləşdirməyin. Zibilləmə aradan qaldırıldıqdan sonra mufta boş fırlanırsa onda ayırıcıların tutulmasını və döyücülərin əyilməsini yoxlayın. Əgər pambıqyığan maşın cərgədə özü-özünə dayanırsa onda döyən aparatı və ventilyatoru o qədər işlədin ki, pambıq şpindellərdən ayrılsın və sovurma kameranın qapıcığı təmizlənməsin. Sonradan yığımı davam edin.



A- Monitorun indikator lampası
B- Stop lampası

Sovurma kamerasının kanalının və ya qapıcıqların tutulması

Sovurma kamerasının qapıcıqları tutulanda həmin yığıcı aparatın siqnal lampası (A) və stop lampası (B) yanar , lampaların yanması davam edir və səs siqnallarının birləşməsi baş verir.

Əgər bir və ya bir neçə siqnal lampası yanarsa onda hidravlik dəstəyi neytral vəziyyətə keçirin və mühərrikin sürətini boş gedişə qədər aşağı salın.





Diqqət: Yığıcı aparatın hərəkət edən hissəsinə toxunmaq xəsarət və ya ölümlə nəticələnə bilər. Bədbəxt hadisənin baş verməməsi üçün maşını söndürün, dayanacaq tormozu birləşdirin və alışdırma açarını yerindən götürün.

Ventilyatorun qayışlarının və istiqamətvericilərinin nizamlanması

Diqqət: Əgər mühərrik işləyirsə və qayış hərəkət edirsə, onda hərəkət edən hissələrə bədənin hissələrənin ilişməsi qaçılmazdır. Bu isə ağır xəsarət və ya ölümlə nəticələnə bilər. Qayışın nizamlanmasına başlamazdan əvvəl əmin olun ki, mühərrik söndürülüb və dayanacaq tormoz birləşdirilib, alışdırma açarı yerindən götürülüb. Əks halda qayışı zədələmək olar.

Vaxtından qabaq qayışın zədələnməsinin qarşısını almaq üçün qayışın tələb olunan tarımlığını təmin edin.

1. Ventilyatoru işə salın.
2. Alışdırma açarını yerindən çıxarın.
3. Yayın ucu (A) torpaq səthi ilə (B) üz-üzə durmalıdır. Nizamlanma işlərini aparmaq üçün:
   - kontrqaykanı (C) və nizamlayıcı qaykanı boşaldın.
   - kopirovka edici səthə (B) nisbətən qaykanın (D) vəziyyətini nizamlayın.
   - Kopirovka edici səthi bir də yoxlayın ki, yayın ona üz-üzə durmasına əmin olun.
   - Başlıqlı vinti (E) və kontraykanı (F) 47 N.m qüvvə ilə sıxın.



4. Ventilyatoru tam dövrlər sayı ilə işlədin, mühərrikin sürətini boş gedişə qədər aşağı salın, ventilyatoru ayırın, istiqamətləndiricini və qayışı bir dəfə də yoxlayın.

A- Yay
B- Kopirovka olunan səth
C- Stopor qaykası
D- Nizamlayıcı qayka
E- Başlıqlı vint
F- Stopor qaykası
G- Xomut
H- Ötürmənin ştoku
I- Zazor 25.4 mm
J- İçlik

6. İstiqamətləndirici ştiftlə ventilyatorun qayışı arasındakı zazoru yoxlayın. Qayışın zazoru 3mm olmalıdır.
7. Əgər istiqamətləndirici ştift ventilyatorun qayışına perpendikulyar deyilsə onda onu sökun. Lazım gələrsə şayba 13/32 + 13116=0,060 dyumlu şaybanı əlavə edin və yaxud çıxarın ki, istiqamətləndirici düz dursun.



8. Hər bir istiqamətləndiricidə(A) qaykanı (C) boşaldın.
9. İstiqamətləndirici ilə (A) qayış (B) arasındakı zazoru 3-4 mm qədər nizamlayın.
10. Qaykanı (C) sıxın



A- Qayışın örtüyü
B- Lent
C- Qayka

Ventilyatora yeni qayışın qoyulması

1. Mühərriki işə salın .
2. Mühərrik işləyən zaman ventilyatoru aşağı dövrlər sayında işlədin.
3. 3 dəqiqəlik drosseli yüksək sürət vəziyyətinə gətirin.
4. Mühərrikin dövrlər sayını azaldın və ventilyatoru ayırın.
5. 2,3 və 4 –cü addımları üç dəfə təkrar edin.
6. Mühərriki söndürün.

14. Bunker

Bunkerin silindrinin blokirovka klapanının istismarı



Diqqət: Bunker ağırdır və onun aşması sizə və digər adamlara ağır xəsarət yetirə bilər və hətta ölümlə nəticələnə bilər. Bədbəxt hadisələrin baş verməməsi üçün qaldırılmış bunker altında işləyəndə klapanı işə salmaqla onu qaldırılmış vəziyyətdə blokirovka edin. Bunker qaldırılmış vəziyyətdə olanda klapan həmişə işçi vəziyyətdə olmalıdır ki, bunkeri həmin vəziyyətdə blokirovka etsin. Bunkeri aşağı buraxanda ondan aralı durun və klapanın qolunu döndərməklə onu blokirovkadan azad edin. Bunker öz-özünə aşağı düşməz, əgər onu blokirovkadan azad etməsən.

Transportyerin zəncirinin tarımlığının nizamlanması

Qeyd: Zəncirin podşipnikini zədələməmək üçün zəncir azca onun istiqamətverici lövhəsinə toxunmalıdır (Bunker boşalttma vəziyyətində olduqda)

Əgər zəncirin tarımlığı pozulubsa onda aşağıdakı qaydada nizamlayın

1.Kontrarkani (B) boşaldın

2. Transpartyorun hər bir valının ucunda olan nizamlayıcı qayışı (C) bərabər səviyyədə sıxın və ya boşaldın

3. Onu şvellerlərə sıxmaqla kontrqaykanı bərkidin.

4. Bu işləri transpartyorun valının digər ucunda qalan komplekt zəncirlərdə təkrar edin.



A- Nizamlayıcı qaykalar
B- Stopor qaykaları
C- Transpartyorun valı

15. Yağlama sistemi

Yağlama sisteminin bakının doldurulması



1. Mühərriki söndürün
2. Qovucu nasosun sovurucu borusunu John Deere şirkətinin yağlama materialı ilə şpindellə barabana yerləşdirin. Xaricetmə şlanqını doldurucu borucuğa birləşdirin.
3. Əgər maşın güc valı ilə təhciz olunubsa onda hidravlik xətti muftalara birləşdirin.
4. Mühərriki işə salın və boş gedişdə işlədin.
5. Bakı ilkin olaraq dolduranda sistemdən havanı xaric edin.
6. Klapanı açın və klapandan yağlama materialı xaricə çıxanadək çəni doldurun. Sonra klapanı bağlayın.
7. Bakın dolmasına qədər yağlama materialının doldurulmasını davam edin
8. Mühərriki söndürün
9. Hidravlik muftanı ayırın və xətti doldurun .

Yağlama sisteminin istismarı



A-Hidravlikanın dəstəyi **B- Yağlama sisteminin dəyişdirici açarı**
C- Cərgə modulu **D- Yoxlanma baypasının vəziyyəti**

1. Dayanacaq tormuzunu birləşdirin
2. Transmissiyanı neytrala keçirin
3. Mühərrikin aşağı dövrlər sayı və boş gedişdə işlədiyi zaman hidrodəstəyi (A) yoxlanma baypasını (D) vəziyyətinə keçirin.
4. Cərgədə işləyən aparatları (C) işə salın.
5. Yağlama sisteminin dəyişdirici açarını (B) birləşdirin.

Diqqət: Əmin olun ki,dayanacaq tormozu birləşdirilib. Maşının gözlənilmədən hərəkət etməsi ciddi xəsarətlə və hətta ölümlə nəticələnə bilər. Əgər baypas yoxlama sistemi işləmirsə,onda John Deere firmasının dilerinə müracət edin. Yığıcı aparatların hərəkət hissələrindən təhlükəsiz məsafədə olmadığınız üçün həmişə bayrasın şnurunu yoxlama üçün əlinizdə tutun.

6. Yığıcı aparatlar üzərində dur-duqda baypası birləşdirməyin



A- Qoruyucu falın dəyişdirici açarı

Diqqət: Yığıcı aparatın üzərinə yıxılmaq və yaxud toxunmaq ağır xəsarət və ya ölümlə nəticələnə bilər. Cərgəaralarında işləyən aparatlara aralı qalın. Həmişə yoxlayıcı baypasın şnurunu aparatlardan təhlükəsiz məsafədə saxlayın.

7. Ayaqlarınızı etibarlı yerdə qoymaqla təhlükəsiz məsafədə durun və qoruyucu falın dəyişdirici açarının düyməsini sıxın

8. Təzə yağlama materialı altı ədəd yuxarı şpindellərin toz tutucu üzükləri üzərində olmalıdır. Yoxlayın ki,hər bir aparatın qoruyucusu düzgün yağlanır.

9. Qoruyucu falın dəyişdirici açarının düyməsini buraxın.

10. Yuxarı aparıcı dişli çarxın üzərində və bütün barabanların yumruqlarının işçi səthində təzə konsistent yağın olmasını yoxlayın.



A-Qoruyucu falın dəyişdirici açarının düyməsi

Yağlama sistemi

1. Qoruyucu falın dəyişdirici açarını qorunma vəziyyətinə (A) gətirin. Aparatın lövhəsini bağlayın.
2. Hidravlik qolu (B) neyrtal vəziyyətə gətirin
3. Yığıcı aparatı qoldan (C) ayırın
4. Yağlama sisteminin (D) dəyişdirici açarını ayırın



A- Qoruyucu falın dəyişdirici açarı qorunma vəziyyətində
B- Hidravlikanın dəstəyi
C- Qol
D- Yağlama sistemin dəyişdirici açarı

Əl ilə yağlama prosedurası

Bortlu yağlama sistemi nasaz olan zaman əl ilə yağlama prosedurasından istifadə edin **.**

Diqqət: Aparatın hərəkət edən hissələrinə toxunanda xəsarət ala bilərsiniz. Hətta bu ölümlə nəticələnə bilər. Həmişə yığıcı aparatlardan təhlükəsiz məsafədə durun və hərəkət edən hissələrə ehtiyatla yanaşın.



1. Aparatları yavaş fırlatmaqla, döyücülərin mərkəzi dişli çarxlarının gövdələrində podşipnikləri və yuxarı blok-diskli çarxı konsistent yağı ilə (A) yağlayın.
2. Təzə konsistent yağ altı şpindelin ikisinin yuxarı xortumunun üzükləri üzərində olmalıdır.
3. Təzə konsistent yağın yuxarı aparıcı dişli çarxın ətrafında və bütün barabanların yumruqlarının səthlərində olmalıdır .
4. Yağlama prosedurasını hər aparatda təkrar edin.

A- Konsistent yağın kollektoru

Yağlama sisteminin hərəkət ötürücü qayışının nizamlanması

1. Bərkidici hissələri (A) boşaldın.
2. Nizamlayıcı qaykanı (B) saat əqrəbi istiqamətində döndərin.
3. Montaj boltları sıxın.

A-Bərkdici hissələr
B-Nizamlayıcı qayka



Yağlama sisteminin süzgəclərinin dəyiş-dirilməsi

Ola bilsin ki, maşının daxili zədələmələri olsun. Sistemin çirklənməsinin qarşısını almaq üçün o təmiz qapaqla bağlan-malıdır.

1. Birləşdirici ştuseri (A) açın.

A- Birləşdirici ştuser

2. Süzgəci (A) açın.
3. Süzgəci yuyucu məhlulda yuyun və əgər lazımdırsa dəyişin.
4. Yenidən süzgəci yerinə qoyun və ştuseri birləşdirin.



5. Ventilyatorun kollektoru altında olan boru ştuseri ayırın.

A- Boru ştuseri



6. Süzgəci açın.
7. Süzgəci yuyucu məhlulda yuyun və yaxud lazımdırsa dəyişin.
8. Süzgəci yerinə qoyun və boru ştuseri birləşdirin.

A-Torlu süzgəc



Stabilizatorun silindrinin funksiyasının yoxlanması



A-Stabilizatorun silindrinin ştokunun açıq hissəsi

Stabilizatorun silindrinin funksiyasını aşağıdakı qaydada yoxlayın:

Qeyd: Bu yoxlamaya başlamazdan əvvəl əmin olun ki, şinlərdə təzyiq normadadır. Ona görə ki, sağ aparan təkərin lazım olan ballastı var.

1. Pambıqyığan kombaynı bərk səthli meydançada saxlayın.

2. Sol aparıcı təkərin altında 102x102 mm ölçüdə dayaq qoyun.

3. Bunkeri təqribən 102 mm qaldırın.

4. Maşını astaca işə salın.

5. Stabilizatorun silindrinin ştokunun (A) açıq hissəsinin uzunluğunu ölçün.

6. Maşını kolodkadan azad edin və bunkeri tam buraxın.

7. Stabilizatorun silindrinin ştokunun açıq hissəsinin uzunluğunu təkrarən ölçün.

8. Əgər silindrin ştoku 6 mm-dən artıq açılıbsa deməli sistem düzgün işləmir. Səbəbi klapanın və qollu mexanizmin düzgün nizamlanmamasında və silindirin stabilizatorunda havanın olmasındadır.

9. Əgər silindrin ştoku 6 mm-dən az açılıbsa onda sistem düzgün işləyir.

Stabilizatorun silindrinin qollu mexanizminin və klapanın yoxlanması

Qeyd: Bu yoxlamaya keçməzdən əvvəl stabilizatorun silindrinin normal işləməsini yoxlayın.
Əgər silindrin ştoku 6 mm-dən çox çıxırsa, onda ona aşağıdakı əməliyyatları yerinə yetirin - klapanın və qollu mexanizmin optimal nizamlanmasını təmin edin.

1. Radiatorun sağ torlarını sökün ki, stabilizatorun klapanına yanaşma mümkün olsun.

2. Əmin olun ki, ötürücü ling (A) əyilməmişdir.

3. Döndərici qol (C) klapan ştiftinin (C) yuxarı hissəsinə toxunmur.

4. Mühərriki işə salın və bunkeri təqribən 102 mm qaldırın ki, klapanın qollu mexanizminin işə salınması mümkün olsun.

5. Mühərriki söndürün.

6. Klapanlı ştift tam aşağı düşməlidir (təqribən 5 mm və tam açılmalıdır).



A- Kontaktlı qol
B- Bunkerin küncü
C- Şarnirli qol

Stabilizatorun silindrindən havanın çıxarılması (işi iki nəfər yerinə yetirir)

Diqqət: Hava çıxarılan zaman bir nəfər kabinadan digər işçinin işini müşahidə edir. Maşın ağırdır və gözlənilmədən hərəkət etsə ağır xəsarət yetirə bilər və hətta ölümlə nəticələnə bilər. Əmin olun ki, transmissiya neytral vəziyyətdədir. Bunkerin blokirovka klapanını bloklaşdırma vəziyyətində qoyun.

1. Silindirin və stabilizatorun ştokunun ucundakı ştifti (A) və oxunu çıxarın.
2. Silindirin qapağından tıxacı (A) çıxarın və havanı buraxmaq üçün tıxacı (C) boşaldın.
3. Silindirin ştoku tərəfindən sıxmaqla silindirdən havanı çıxarın.
4. Hava çıxan tıxacı bağlayın.
5. Mühərriki işə salın və bir qədər alçaq dövrlər sayında boş işlədin.
6. Hidravlik sistem silindiri aşağı itələyəcək. Silindiri ştiftlə bərkidin.
7. Hava buraxılan tıxacı möhkəm sıxın.
8. Silindiri yoxlayın.Bunkeri təqribən 152 mm qaldırın ki, stabilizator sistemini işə salmaq olsun.

Tormoz nakladkalarının nizamlanması



A-Fiksator

Əgər tormoz qüvvəsi itibsə və ya dayanacaq tormozu tutmursa , onda friksion tormoz üzlüklərini təmizləyin. Bunun üçün aşağıdakı işləri görün:

1. Tormoz pedallarını fiksator (A) vasitəsi ilə cütləşdirin. Mühərriki işə salın və sürətlər qutusunun dəstəyini birinci ötürmədə saxlayın.
2. Drossel dəstəyini yüksək sürət vəziyyətində qoyub hidravlik dəstəyi onun bütün gedişi boyu irəli verib qabağa hərəkət edin.
3. 60-75 m gedişdən sonra tormozu sıxın. Mühərrikin sürəti təqribən 200 dövr/dəq qədər aşağı düşər.
4. Dayanın, mühərriki söndürün və tormozların 15 dəqiqə ərzində soyumasını təmin edin.
5. Tormozlar soyuduqdan sonra mühərriki işə salın, transmissiyanı birinci ötürməyə keçirin və maşını aşağı sürətlə qabağa hərəkət etdirin.Tormozu bir neçə dəfə sıxmaqla avtomatik nizamlayıcının hərəkətə gəlməsini təmin edin. Hərəkət zamanı işçi tormozları sıxdıqda maşın birinci ötürmədə dayanmalıdır. Dayanacaq tormozu isə maşını ikinci ötürmədə saxlamalıdır.

Əgər tormozlar lazım olan şəkildə işləmirsə,onda John Deere şirkətinin dilerinə müraciət edin.

Tormoz mayesi olan qabın yoxlanması



A- Qapaq

Mütləqdir : Rəng xarab olmasın deyə tormoz mayesinin maşının rənglənmiş səthinə tökülməsinin qarşısını alın.

1.Qapağı (A) açın.
2. Mayenin səviyyəsini yoxlayın. Mayenin səviyyəsi qabın yuxarı nöqtəsindən 6 mm-dən az məsafədə olmamalıdır. J1703d və ya DOT-3 tormoz mayesindən istifadə edin.
3. Qapağı dəyişin.

Bunkerin silindirinin nizamlanması

Sistemdən havanı tam sıxıb çıxaranda bunkerin bir tərəfi qalxır. Onda silindiri həmin tərəfdən nizamlamağa başlayın.
Silindiri elə şəkildə nizamlayın ki,bunker aşağı vəziyyətdə dayaqlar üzərində dursun. Silindiri çox qısaltmayın ki, o bunkeri dayaq üzərində durduqdan sonra çox aşağı çəkməsin.
Silindiri nizamlamaq üçün aşağıda qeyd edilmiş işləri görün.
1. Açarı (A) deşikdən keçirib qaykanı (B) boşaldın.
2. Silindirin (C) porşenini tələb olunan uzunluqda nizamlayın və kontrqaykanı sıxın.
Qaykanın sıxma momenti ..... 136 N.m



A – Baxış deşiyi
B – Stopor qaykası
C – Silindirin porşeni

Qabaq və arxa siqnal faralarının lampalarının dəyişdirilməsi.
1. Boltu (A) açın .
2. Linzanı (B) və araqatını (C) sökün.
3. Lampanı (D) dəyişin və linzanı və araqatını yerinə qoyun.



A – Boltlar
B – Linza
C – Araqatı
B – Lampa

Qoruyucular və rele



A- Manometrlər- 3A
B- Kabinanın relesi və generatoru-3A
C- Monitor-5A
D- Şüşətəmizləyici/radio/ kabinanın lampası-10A
E- Nəmləşdirici sistem -10A
F- Taxometr-5A
G- BUD-işə salınması-3A
H- Yağlama-7,5A
I- Akkumulyatorun qidalandırıcı rozetkası
J- Hidroqol-3A
K- Radionun yaddaşı-3A
L- Hidrovlik klapanların relesi-10A
M- Akkumulyatorun köməkçi ayırıcısı-5A
N- Bunker/press/ transportyer-10A
O- Row-Trak-10A
P- Arxa təkərlərin hərəkət ötürücüsü-10A
Q- Arxa hərəkətin siqnalı-5A
R- Akkumulyatorun köməkçi ayırıcısı- 12 V-5A
S- Ventilyatoru hərəkətə gətirmək -3A
T- Mühərrikin diaqnostikası (qoruyucusuz)
U- Hidravlik klapanın nizamlayıcısı-3A

1. Aparatın sol tərəfindən qaldırılması
2. Aparatın sağ tərəfdən qaldırılması
3. Kabinanın ventilyatoru
4. Adi lampa
5. Sol yığıcı aparatların bağlayıcıları
6. Sağ yığıcı aparatların bağlayıcıları
7. Hərəkət azaldıcı qurğunun qidalandırılması.
8. Hərəkət azaldıcı qurğunun nizamlayıcısı.
9. Yığıcı aparatların sol tərəfdən aşağı salınması və qruplaşdırılması.
10. Yığıcı aparatların sağ tərəfdən aşağı salınması və qruplaşdırıl-ması
11. Hidravlik lampaların qidalandırılması
12. Bunkerin lampaları
13. Bağlayıcı
14. Sahənin sol tərəfdən işıqlandırılması üçün faralar

Şassi

15. Sahənin sol tərəfdən işıqlandırılması üçün faralar
16. Transporter
17. Aparatların sol tərəfdən aşağı salınması
18. Aparatların sağ tərəfdən aşağı salınması
19. Hidravlik klapanın nizamlayıcısı
20. Arxa təkərlərin hərəkətə gətirilməsi
21. Dayanacaq tormozun siqnalizatoru
22. Ventilyatorun işə salınması
23. Aşağı dövrlər sayına keçilməsi

Qeyd: Bu qoruyucular və rele operatorun oturacağı yanında cihazlar panelində yerləşdirilmişdir.

Hava kondisionerini işlədəndə ehtiyatlı olun

Diqqət: Xladaqent (R134A) təzyiq altındadır. Düzgün xidmət olunmadıqda xladaqentin gözə və dəriyə düşməsi baş verə bilər. Bu isə dərinin yanmasına səbəb olar.



Siqnal indiqator lampaların dəyişdirilməsi

1. Hər tərəfdən dörd ədəd vinti (A) açın və yuxarı qapağı qaldırın.

2. 1256409 və ya 1895G tipli lampaları dəyişin və qapağı yerinə qoyun.



A- Vintlər (4əd)

İndikator kontrol və cihaz lampaların dəyişdirilməsi

1. Dörd ədəd vinti (A) açın.
2. Künclü cihaz panelini (B) yerinə qoyun.

A-Vintlər; **B- Künclü cihaz paneli**



3. İndikatoru və kontrol lampaları çıxarmaq üçün onları ¼ dövr fırladın.
AL 65575 lampaları yenisi ilə əvəz edin.

A – Faralar və lampalar.



5. Tutucu sıxıcıları bərkidin STOP (A) lampaları və DİQQƏT (B) lampaları panelin qabaq tərəfindən çıxarın.

A – Stop lampası
B – Xəbərdaredici lampa



6. Cihaz lampalarını çıxarmaq üçün dörd ədəd vinti (A) açın və gövdədə montaj olunmuş lövhəni qaldırın.

A – Vintlər (4 əd)
B – Şablon
C – Cihaz lampası



Kabinada qoyulmuş süzücü elementlərin təmizlənməsi

Süzücü elementləri bu qayda ilə təmizləyin:

1. Üfiqi səthə elementin çirklənmiş tərəfini yavaşca vurmaqla təmizləyin. Elementi şinlərə vurmaqla təmizləməyin.

Diqqət: *Sıxılmış hava tozunu yuxarıya vurmaqla sizin və sizin yaxınlığınızda olan adamların gözünə düşə bilər və ağır xəsarət yetirə bilər. Sıxılmış havadan istifadə etdikdə təzyiqi 210 kPa (2,1 bar) qədər aşağı salın. Yaxşı olar ki, sıxılmış havadan istifadə etdikdə gözünüzü qoruyucu vasitələrdən istifadə etməklə qoruyun.*

2. Sıxılmış havanı (210 kPa) elementə tərəf istiqamətləndirin .

3. Süzücü elementi isti suya (tempraturu 38^0S) salın və 15 dəqiqə saxlayın. Suya təmizləyici R36757 qarışığını əlavə edib süzücü elementi yuyun.

4. Süzgəci şlanqdan gələn su ilə yuyun. Şlanqda təzyiq 272 kPa (2,7 kqc/sm^2) –dan çox olmamalıdır.

***Mütləq*:** Yaş süzücü elementi zədələməyin. Elementi qurutmaq üçün sıxılmış havadan istifadə etməyin, bu elementin zədələnməsi ilə nəticələnə bilər.

5. Elementi silkələyin ki, artıq suyu kənarlaşdırmaq mümkün olsun və sonra elementi qoyun qurusun.

18. Mühərrik və hərəkət transmissiyası

Mühərrikin idarəetmə blokunun diaqnostik kodu

Monitorda səhv müşahidə olunduqda monitorda mühərrikin qırmızı məlumat lampası yanıb – sönür. Yanıb - sönmənin sayını hesablamaq lazımdır. Nasazlığın diaqnostik kodunun vəziyyətini təyin etmək üçün bu əlavədə 2 müxftəlif lampa nəzərdə tutulmuşdur.Dövrəyə birləşdiriləndən sonra bu lampalar 3 saniyəyə aktivləşir. Nasazlıq baş verəndə həmin lampa yanır.

Siqnal kodu	Xəbərdar-edici siqnal lampası	Stop - siqnal	Nasazlığın adı	Nasazlığın səbəbi
11	Birl.		Drosselin siqnalının gərginliyi buraxıla bilən diapazondan artıqdır	Sensorun datçiki birləşib və ya torpaqla əlaqəsi var.
12	Birl.		Drosselin siqnalının gərginliyi buraxıla bilən diapazondan yüksəkdir	Sensorun datçiki yüksək gərginlik mənbəyinə birləşibdir.
17	Birl.		3№- li silindirin püskürmə qurğusununa daxil olan cərəyan gözlənildiyin-dən aşağıdır	Forsunkaların borularında qırılma vardır. Forsunkaların solenoidində nasazlıq var.
18	Birl.		Soyuducu mayenin temperatur datçikində gərginlik tələb olunan diapazondan çoxdur	Dövrədə naqilin qırılması və ya qısa qapanma. Datçik nasazdır .
19	Birl.		Soyuducu mayenin temperatur datçikində gərginlik tələb olunan diapazondan aşağıdır	Mühərrikin soyuducu mayenin temperatur siqnal datçiki massaya qısa qapanmışdır. Datçik nasazdır.

Siqnal kodu	Xəbərdar-edici siqnal lampası	Stop siqnalı	Nasazlığın adı	Nasazlığın səbəbi
23	Birl.		Yanacaqda suyun olmasını göstərən datçikdə gərginlik tələb olunan diapazondan çoxdur	Naqilin qırılması və ya massaya qısa qapanma. Yanacaqda suyun çox olması.
24	Birl.		Yanacaqda suyun olmasını göstərən datçikdə gərginlik tələb olunan diapazondan azdır	Siqnal datçikinin naqili massaya qısa qapanmışdır.
25	Birl.		Kollektorda havanın temperaturunun datçikində gərginlik tələb olunan diapazonundan çoxdur	Naqilin qırılması və ya massaya qısa qapanma
26	Birl.		Kollektorda havanın tempratorunun datçikində gərginlik tələb olunan diapazondan azdır	Naqilin qırılması və ya massaya qısa qapanması

Mühərrikin köməkçi hərəkətötürücü qayışlarının dəyişdirilməsi - dəyişən cərəyan generatoru, ventilyator, kondisionerin kompressoru

Qayışların tarımlığı gündəlik yoxlanılmalıdır.

Əlavə:Verntilyatora, kondinsionerin kompressoruna və dəyişən cərəyan generatoruna hərəkət bir qayışla ötürülür. Əmin olun ki, qayış yaxşı vəziyyətdədir.
Əlavə avadanlıqların hərəkət ötürücü qayışları avtomatik tarımlayıcı qurğu ilə təchiz olunmuşdur və nizamlama tələb etmir.



A- Hərəkət ötürücü qayış

Kobud yanacaq təmizləyici süzücü elementin və suayırıcının süzücü elementinin dəyişdirilməsi.

1. Süzücü elementin (A) səthini yaxşı təmizləyin. Həmçinin əsas süzgəcin kənarlarını təmizləyin.
2. Stopor üzüyünü (C) saat əqrəbinin əksi istiqamətində ¼ dövr fırladın.Stopor üzüyünü süzücü elementlə birlikdə açın.
3. Süzücü elementdən suayırıcını (D) çıxarın. Mayeni süzün və suayırıcını təmizləyin. Sıxılmış hava ilə qurudun.
4.Suayırıcını yeni süzücü elementini yenisi ilə əvəz edin..
5. Qida sistemindən havanı xaric edin



A - Süzücü element
B- Gövdə
C-Stopor üzüyü
D- Suayırıcı
E- Düymələr-göstəricilər
F-Tozqoruyucu kipləşdirici

İncə yanacaq təmizləyici süzgəcin/su-ayırıcının dəyişdirilməsi və yanacağın süzülməsi



1. Yanacaq süzgəcinin (D) səthini və gövdəsini yaxşı təmizləyin.
2. Süzücü tıxacı (C) açın.
3. Suayırıcıdan suyun süzülməsinə imkan verin. Çöküntü süzgəcdən tam axıdılmalıdır.
Əgər siz tıxacı açıq saxlasanız onda bakdan yanacağın axıdılması baş verər.
4. Su süzüləndən sonra tıxacı yerinə qoyun. Əgər siz süzgəci dəyişirsinizsə onda axına imkan verin.
5. Stopor üzüyünü (B) ¼ dövr saat əqrəbinin əksinə istiqamətdə (sola) fırladın üzüyü süzücü elementlə birlikdə açın.
6. Yeni süzücü elementi yerinə qoyun.
7. Süzücü tıxacı (C) yerinə qoyun.
8. Buraxıcı borunu ayırın. Bu süzgəc dolan zaman havanın çıxmasına səbəb olacaq.
9. Yuxarı tıxacdan yanacaq gələndən sonra şlanqı yerinə qoyun.

Hava təmizləyicinin texniki xidməti



Havatəmizləyici iki süzücü elementdən ibarətdir. İndikator lampası (A) yananda havatəmizləyiciyə texniki xidmət göstərin. İldə azından bir dəfə ilkin və ikinci elementi dəyişin.

Hava təmizləyicinin süzücü elementininin sökülməsi və dəyişdirilməsi

1.Qaykanı (A) və süzgəcin gövdəsinin qapağını açın.
2.Qaykanı (A) və birinci süzücü elementi (B) çıxarın.
3. Gövdənin daxili səthini və qapağı təmiz salfetka ilə silin.

A- Qayka
B- Kobud təmizləyici element
C- Qayka

4. İkinci süzücü elementiyalnız dəyişmək lazım olanda açın. İkinci süzücü elementin təmizlənməsinə cəhd göstərməyin.
5. Qaykalar vasitəsi ilə elementləri bərkidin. Əmin olun ki, süzücü elementlər yerinə düzgün oturdurulub.
6. Gövdənin qapağını yerinə qoyun və qaykanı sıxın.

A- Qayka **B- Köməkçi element**



Mühərrikin yan torlarının və radiatorun təmizlənməsi

Əgər torun üzərində zibil toplanıbsa onda mühərriki söndürün və şetka vasitəsi ilə mühərrikin (A) və radiatorun (B) torunu təmizləyin .

A- Mühərrikin toru
B- Radiatorun toru



Radiatorun təmizlənməsi

1. Yan lövhələri sökün və şetka vasitəsi ilə radiatordan, yağsoyuducüdan və kondisionerin (A) kondensatorundan zibili təmizləyin.

Diqqət: Kondensator ağırdır və tutucunu açan zaman o , yerə düşə bilər. Sizə və digər adamlara xəsarət yetirə bilər. Tutucunu açanda kondensatoru etibarlı tutun.

2. Radiatorla və yağsoyuducunun kondensatoru arasında qalan sahəni təmizləmək üçün tutucunu açın . Kondensatoru ehtiyatla arxaya döndərin.

A- Kondensator



Soyuducu mayenin səviyyəsinin yoxlanması

Diqqət: Bunker ağırdır: o düşəndə çox ağır zədə vurar və hətta ölümlə nəticələnə bilər. Bunkeri qaldırıb onun altında dayanaraq radiatorda suyun səviyyəsini yoxlamayın. Bu çox təhlükəlidir. Əgər radiatorun su tökücü boğazcığının qapağını açmaq istəyirsinizsə, onda mühərriki söndürün və soyuducu mayenin soyumasını gözləyin. Mühərrik qızmış vəziyyətdə olduqda radiatora soyuducu maye əlavə etməyin. Gözləyin ki,mühərrik soyusun

1.Qaykanı boşaldın və bunkerin aşağı hissəsində olan qapağı (A) açın.
2. Radiatorda yaranmış təzyiqi təmin edən qapağı (B) tutun. Əks halda təzyiq aşağı düşə bilər və soyuducu mayenin itkisinə səbəb olar.

A- Kojux
B- Radiatorda yaranmış təzyiqi təmin edən qapaq

Mühərrik və hərəkət transmissiyası

Mühərrikin nasazlığının diaqnostikası

Nasazlığın əlamətləri	Nasazlığın mümkün səbəbləri
1	2
Havayığıcı və xaricetmə sistemi.	
1. Mühərrikin gücünün aşağı düşməsi və gücün itməsi .	Hava yıgıcı sistemin tutulması .
2. Mühərrik işə düşmür və yaxud çətin işə düşür.	Xaric edilən qazlar yüksək əks təzyiqə məruz qalır.
3. Mühərrikin işə salınmasının tez-ləşdirilməsi çətinləşmişdir.	İsti vaxtlarda və dağ ətəyi yerlərdə havanın daxil olmasının çətinləşməsi.
4. İşə düşmənin çətinləşməsi	Havanın sistemə aşağı təzyiqdə verilməsi
5. Boş gedişdə qeyri stabil iş	"Qəza dayanması" ayrılmışdır
7. Mühərrik sönür	Turbokompressor nasazdır
8. Mühərrik işə düşmür.	Ətraf mühitin temperaturu aşağıdır.
9. Tələb olunan nizamlayıcı sürəti almaq mümkün deyil.	Ətraf mühitin temperaturu yüksəkdir.
10. Nizamlama sürətində vibrasiya	Soyuducu nasazdır.
Yağlama sistemi	
11. Ağ tüstünün həddindən çox olması	Soyuducunun klapanı əksinə istiqamətdə fırlanıb
12. Qara tüstünün həddindən çox olması (tam yükləndikdə)	Yağ süzgəcdən kənara axır
13. Göy tüstünün hədindən çox olması	Hava borularından və ya turbokompressordan havanın xaricə verilməsi
14. Boz tüstünün həddindən çox olması	Nizamlayıcı və ya reduksion klapan nasazdır
15. Tezləşdirən zaman tüstünün həddindən artıq olması	İşə salma proseduraşının qeyri bərabər aparılması
16. Yağlama sistemində yağın həddindən artıq sərfiyyatı .	Yağın çirklənməsi və öz xassəsini itirməsi
17. Dizel yanacağının həddindən artıq sərfiyyatı	Yanacaq sistemində nasazlıq
18. Soyuducu mayenin həddindən artıq sərfiyyatı	Soyutma sistemində nasazlıq var.
19. Sapundan yağın xaricə vurulması	Datçik nasazdır.

Mühərrik və hərəkət transmissiyası

Nasazlığın əlamətləri	Nasazlığın mümkün səbəbləri
20. Yağ həddindən artıq çirklənib	Yağ soyuducunun özəyi nasazdır.
21. Yanacaq cirklənib	Yağ soyuducunun klapanı nasazdır
22. Soyuducu maye çirklənib	Yağ soyuducu nasazdır.
23. Soyuducu mayenin yüksək tempraturda olması	Soyuducu maye tələb olunan miqdarda deyil
24.Soyuducu mayenin aşağı tempraturda olması	Datçik nasazdır
25. Soyuducu mayenin az olması	Soyutma sistemində axıntı var.
26. Çökdürücüdə yağın yüksək temperaturda olması.	Ətraf mühitin tempraturunun yüksək olması . Yağ soyuducunun klapanı əks istiqamətində fırlanmışdır
27. Mühərrikin karterində çöküntünün olması	Ətraf mühitin tempraturunun və soyuducu mayenin tempraturunun aşağı olması
28. Turpokompressordan yağ xaricə verilir.	Kiplik pozulmuşdur. Valın boynunda olan kipləşdirici üzüklər yeyilmişdir.
29. Turpokompressordan su damcılanır.	Nasazlığı müəyyən edin və aradan qaldırın.
30. Mühərrikin karterində aşağı təzyiq	Yağsoyuducu nasazdır.
31. Mühərrikin karterində yüksək təzyiq	Ətraf mühitin yüksək tempraturu. Yağın daxildə axması. Yağ süzgəcdən kənara axıdılır. Reduksion klapan nasazdır. Yağın tempraturunun yüksək olması. Karterdə yağın səviyyəsinin aşağı olması. Datçik nasazdır. Yağ yığıcıları tutulub. Yağın xaricə axması baş verir.
32. Havayığıcının aşağı deşiyinin tutulması.	Xaricedici qazların əks təzyiqinin artması. Hava kanallarında və turpokompressorda hava axınının olması.
33. Yağın səviyyəsinin artması.	Xaric olunan qazların yüksək əks təzyiqinin olması.
34. Hava yığıcının yuxarı deşiyinin tutulması	Ventilyatorun kojuxu zədələnmişdir. Havanın normal dövr etməsi pozulmuşdur
35. Hava süzgəcin vaxtından əvvəl yeyilməsi	

Mühərrik və hərəkət transmissiyası

Nasazlığın əlamətləri	Nasazlığın mümkün səbəbləri
36. Yağın təzyiqinin yüksək olması	Ətraf mühitin temperaturunun aşağı olması. Reduksion klapan nasazdır. Yağ borusu tutulmuşdur.
37. Mexaniki səs	Nasazlığı müəyyən edin və aradan qaldırın.
38. Diskli çarxlarda səs	
39. Yanacaq sistemdə səs	Hava düzgün verilmir.
40. Mühərrikin həddindən çox titrəməsi	Nasazlığı müəyyən edin və aradan qaldırın.

Mühərrik və hərəkət transmissiyası

Nasazlığın əlamətləri	Nasazlığın mümkün səbəbləri
1. Gücün aşağı olması ,gücün itməsi	Yanmış qazların araqatından xaricə verilməsi, Klapan düzgün nizamlanmamışdır. Silindirin porşeninin və sairə hissələrin yeyilməsi və qırılması . Mühərrik əsaslı təmir tələb edir. İtələyicilərin ştoku qırılmışdır və ya əyilmişdir. Mühərrik həddindən çox yüklənmişdir. Mühərrikin karterində yağın səviyyəsinin artıq olması. Yanacağın az olması ,yanacaqda havanın olması. Yanacağın temperatunun yüksək olması (130^0 S- dən) çox olması. İnjektor nasazdır.
2. Mühərrik çətin işə düşür və ya heç işə düşmür.	Nazim çarxın (maxovik) əks yükləri və demfer nasazdır. Nizamlama düzgün aparılmamışdır.Mühərrikin silindir və porşenlərinin yeyilməsi. Qazpaylayıcı valın yumruqcuqları yeyilmişdir. Mühərrikin əsaslı təmiri tələb olunur. Nizamlayıcı – injektor nizamlanmalıdır. İtələyicilərin ştoku qırılmışdır və yaxud əyilmişdir. Mühərrik həddindən çox yüklənmişdir. Mühərrikin karterində yağ çoxdur. Yanacağın az olması. Yanacağın tərkibində havanın olması. Yanacağın yüksək temperaturda olması (130^0S) İnjektor nasazdır. Nasosun yuxarı hissəsində yanacaq buraxan deşik tutulmuşdur.
3. Mühərrikin nizamlaması pozulmuşdur.	Klapanlar düzgün nizamlanmamışdır. Nizamlayıcı injektor düzgün nizamlanmamışdır. İtələyicilərin ştoku qırılmış və ya əyilmiş dir.

Mühərrik və hərəkət transmissiyası

Nasazlığın əlamətləri	Nasazlığın mümkün səbəbləri
4. Mühərrikin tez işə salınması çətinləşir.	Yanacaq nasosu işləmir. Qazların araqatından xaricə verilməsi . Klapanlar düzgün nizamlanmamışdır. Qazpaylayıcı valın yumruqcuqları yeyilmişdir. Gücün aşağı olması. İtələyicilərin ştoku qırılmış və yaxud əyilmişdir. Hava daxil olan klapanlar çirklənib və ya nasazdır. Mühərrikin karterində yağ çoxdur. Mühərrik həddindən çox yüklənib. Yanacağın tərkibində hava var. Yanacağın temperaturu yüksəkdir (130^0 S) İnjektor nasazdır
5. Mühərrikin aşağı dövrlər sayında işlədilməsi çətinləşir	Nizamlayıcı /injektorun nizamlanması pozulmuşdur. Drosselin tutulması
6. Boş gedişdə mühərrikin qeyri- stabil işləməsi	Dişli çarxlar blokunda nizamlama pozulmuşdur. Nizamlayıcı / injektor nasazdır. Yanacağın miqdarı və kateqoriyası uyğun gəlmir.İnjektor nasazdır.
7. Mühərrik sönür	Nizamlayıcı və ya injektor nizamlan-malıdır. Drosselin xarici qol mexanizmi nizamlanmalıdır. Mühərrikin dayandırma sistemi nasazdır. Yanacaq itkisi var. İnjektorda yanacaq yoxdur. Yanacağın miqdarı və ya kateqoriyası uyğun deyil. Yanacaq sistemində hava var. Yanacaq nasosu işləmir.
8. Mühərrik sönmür	İnjektor nasazdır. Yanacaq nasosunun nizamlayıcısı /injektor nizamlanmalıdır. İtələyicinin stoku qırılmış və ya əyil-mişdir. Mühərrikin dayandırma sistemi nasazdır.

Mühərrik və hərəkət transmissiyası

Nasazlığın əlamətləri	Nasazlığın mümkün səbəbləri
9. Nizamlanmış sürəti almaq olmur	İnjektor nasazdır. Qazların araqatından xaricə verilməsi. Klapanlar düzgün nizamlanmamışdır . Qilz- porşen qrupun yeyilməsi. Qazpaylayıcı valın yumruqcuqları yeyilmişdir. Gücün aşağı olması . Yanacaq nasosunun nizamlayıcısının və injektorun nasazlığı. İtələyicilərin ştoku qırılmış və ya əyilmişdir. Mühərrikin dayandırma sistemi nasazdır. Mühərrikin hava boruları çirklənib və ya nasazdır. Mühərrik həddindən çox yüklənib.Mühərrikin karterində yağ çoxdur.Mühərriki işlədən köməkçi avadanlıqlar nasazdır.Yanacaq sistemində hava vardır.Yanacağın temperaturu yüksəkdir(130^0 S) Nasosun yuxarı hissəsində yanacaq borusu tutul-muşdur.Yanacağın verilmə təzyiqi aşağıdır. Nasosun yuxarı his-səsində yanacaq borusu tutulmuşdur.Yanacağın verilmə təzyiqi aşağıdır.İnjektor nasazdır.
10. Nizamlanmış sürətlərdə titrəmə	Diskli çarxlar blokunda dişlər arasında aralığın düzgün olmaması. Yanacaq nasosunun nizamlayıcısı və ya injektor düzgün nizamlanmamışdır. Yanacaq sistemində hava vardır. İnjektor nasazdır.
11. Ağ tüstünün həddindən artıq olması	Klapanlar düzgün nizamlanmamışdır. Mühərrikin silindirlərinin yeyilməsi və ya silindirlərin sınması. Yanacaq nasosunun nizamlayıcısı – injektor düzgün nizam-lanmamışdır. Mühərrikin boş gedişdə uzun müddət işləməsi. Yanacağın kateqoriyasının uyğun olmaması.

Mühərrik və hərəkət transmissiyası

Nasazlığın əlamətləri	Nasazlığın mümkün səbəbləri
12. Qara tüstünün olması	Klapanların düzgün nizamlanmaması. Silindrin hissələrinin qırılması və yeyilməsi. Mühərrikin dayandırma sistemi nasazdır.Yanacağın kateqoriyasının uyğun olmaması. İnjektor nasazdır
13. Göy tüstünün həddindən artıq olması	Yanacağın kateqoriyasının uyğun olmaması.
14. Boz tüstünün olması	Klapanların düzgün nizamlanmaması. Yanacaq nasosun nizamlayıcısının və injektorun düzgün nizamlanmaması. Uzun müddət boş gedişdə işləməsi. Yanacağın kateqoriyasını uyğun olmaması . İnjektor nasazdır.
15. Tezləşdirəndə tüstünün həddindən artıq olması.	Uzun müddət boş gedişdə işləməsi. Yanacağın kateqoriyasının uyğun olmaması. İnjektor nasazdır.
16. Yağ sərfiyyatının normadan çox olması.	Ara qatından qazların xaric olunması. Silindrin yeyilməsi və qırılması. Yağ gec-gec dəyişdirilir. Mühərrikin karterinin həddindən çox yağla doldurulması.
17.Dizel yanacağının normadan çox sərfiyyatı.	Ara qatından qazların xaricə verilməsi klapanların düzgün nizamlanmaması. Qilz –porşen qrupunun yeyilməsi və ya qırılması. Qazpaylayıcı valın yumruqlarının yeyilməsi. Gücün aşağı olması. Hava sorucu kalapanların süzgəclərinin çirklənməsi. Boş gedişdə uzun müddət işləməsi. Mühərrikin həddindən artıq yüklənməsi. Yağ gec-gec dəyişdirilir. Yağın səviyyəsinin aşağı olması. İnjektor nasazdır.
18. Soyuducu mayenin həddindən çox sərfiyyatı.	Ara qatından qazların xaricə verilməsi.
19. Sapundan yağın xaricə verilməsi.	Ara qatından qazların xaricə verilməsi. Qilz-porşen qrupunun yeyilməsi və ya qırılması. Mühərrikin karterində yağın normadan çox olması.
20. Yağ çirklənmişdir.	Qilz-porşen qrupunun yeyilməsi və ya qırılması. İnjektor nasazdır.

Mühərrik və hərəkət transmissiyası

Nasazlığın əlamətləri	Nasazlığın mümkün səbəbləri
21. Yanacaq çirklənmişdir.	Yanacağın qorunması düzgün olmamışdır. Yanacaq çənində zibil vardır.
22. Soyuducu maye çirklənmiuşdir	Ara qatından qazların xaricə verilməsi. Soyuducu maye düzgün qorunmamışdır
23. Soyuducu mayenin yüksək tempaturda olması	Nasos işləmir, qayış qırılmışdır.Soyuducu maye xaricə axır.
24. Soyuducu mayenin aşağı tempraturda olması	Termostat işləmir.
25. Soyuducu mayenin zəif doldurulması	Deşilmiş kanalların zədələnməsi
26. Yağın tempraturunun çökdürücüdə yüksək olması.	Qilz -porşen qrupunun yeyilməsi və ya qırılması. Mühərrikin karterində yağın çox olması. Yağın səviyyəsinin aşağı olması.
27. Mühərrikin karterində çöküntünün olması	Qilz- porşen qrupunun yeyilməsi və ya qırılması. Uzun müddət boş gedişdə mühərrikin işləməsi.
28. Turbokompressordan yağ axır.	Qilz-porşen qrupunun yeyilməsi və ya qırılması. Mühərrikin uzun müddət boş gedişdə işləməsi.
29. Turbokomprosessordan su axır.	Ara qatından qazların xaricə verilməsi. Mühərrikin əsaslı təmiri tələb olunur.
30. Yağın təzyiqinin aşağı olması.	Dirsəkli valının ana və satun boyunlarında aralığın düzgün olmaması. Mühərrikin əsaslı təmiri tələb olunur. Ana və şatun boyunların podşipnikləri zədələnmişdir. Mühərrik həddindən çox yüklənmişdir. Yağın səviyyəsi aşağıdır.
31. Mühərrikin karterində yağın təzyiqinin çox olması	Araqatından qazların xaricə verilməsi. Qilz-porşen qrupunun yeyilməsi və ya qırılması. Mühərriki karterində yağın səviyyəsi qalxmışdır.
32. Hava yığıcının aşağı deşiyinin tutulması.	Araqatından qazların xaricə verilməsi. Nəfəs alıcı klapanın süzgəci zibillənmişdir.
33. Hava yığıcının yuxarı deşiyinin tutulması	Nəfəs alıcı klapanlar və ya süzücü elementlər zibillənmişdir.

Mühərrik və hərəkət transmissiyası

Nasazlığın əlamətləri	Nasazlığın mümkün səbəbləri
34. Hava süzgəcinin vaxtından əvvəl yeyilməsi.	Araqatından qazların xaricə verilməsi. Nəfəs alıcı klapanlar və süzücü elementlər çirklənib.
35. Yağın yüksək təzyiqi	Reduksion klapanın nizamlanması pozulmuşdur.
36. Mexaniki səs	Klapanların düzgün nizamlanmaması. Qilz-porşen qrupunun yeyilməsi və ya qırılması. Dirsəkli valın podşipnikləri (içliklər) düzgün nizamlanmamışdır. Mühərrikin əsaslı təmiri tələb olunur. Uzun müddət boş gedişdə işləməsi.
37. Dişli çarxlar blokunda səs var	Mühərrik əsaslı təmir olunmalıdır. Yağın səviyyəsi aşağıdır.
38. Yanacaq sistemində səs var.	Yanacaq nasosunda nizamlanma pozulmuşdur.Mühərrikin uzun müddət aşağı dövrlər sayında işləməsi.
39. Mühərrikdə titrəmənin həddindən çox olması.	Nazim çarxın əks yükləri düzgün nizamlanmamışdır. Qilz-porşen qrupunun hissələrinin yeyilməsi və ya qırılması.

19. Təkərlər və şinlər

Şinlərlə təhlükəsiz yanaşma

Diqqət: Şinlərin çənbərdə dağılması insan həyatı üçün çox təhlükəlidir. Münasib avadanlıqdan istifadə etmədən şini diskin üzərində quraşdırmayın. Həmişə şinlərdə tələb olunan təzyiqi saxlayın. Şinlərə hava vuranda tövsiyə olunan normanı aşmayın.Gündəlik olaraq şinləri və təkərləri yoxlayın. Aşağı təzyiqdə olan təkərlərdən istifadə etməyin.

Şinlərin yoxlanması

Şinlərin sıradan çıxmasının qarşısını almaq üçün şinləri aşağı təzyiqdə istifadə etməyin.

Şinləri aşağıda qeyd edilən vəziyyətdə olanda dəyişin :

- Protektor yeyiləndə
- Protektor qeyri-bərabər yeyiləndə
- Şinlərin yanlarında çat olanda
- Protektorda dərin kəsik olanda

Gündəlik olaraq şinlərə baxış keçirin. Şinlərdə kəsik, çat və s. müşahidə etdikdə onları istismar etməyin. Hər 100 saatdan bir şinlərdə təzyiqi yoxlayın. Şinləri günəş şüalarından, neft məhsullarından və kimyəvi maddələrdən qoruyun. Mütləq təkərlərin boltlarını hər 10 saatdan sonra sıxın.

20. Akkumulyator batareyası

Akkumulyator batareyaları ilə təhlükəsiz yanaşma qaydaları



Diqqət: Elektrolit zəhərlidir , dərini və paltarı yandırma qabiliyyətinə malikdir. Hətta gözə düşdükdə insanı kor olmaq vəziyyətinə salır. Bütün bunların olmaması üçün aşağıda qeyd edilmiş işləri yerinə yetirin.

1. Akkumulyatora elektroliti bağlı ventilyasiya olunan otaqda tökün.
2. Qoruyucu eynəklərlə və rezin əlcəklərlə işləyin.
3. Azca da olsa elektrolitin axıdılmasına yol vermək olmaz .

Əgər üzərinizə elektrolit tökülübsə:

1. Dərini su ilə yuyun
2. Turşunu neytrallaşdırmaq üçün soda və əhəngdən istifadə edin.
3. Gözlərinizi 10- 15 dəqiqə ərzində su ilə yuyun. Tibbi yardım üçün mütləq müraciət edin.

21. Yağlama və texniki xidmət

Dizel yanacağı.

Müxtəlif markalı dizel yanacağını qarışdırıb istifadə etmək lazımdır.
EN 590 və ya ASTM D 975 markalı dizel yanacağından istifadə etmək tövsiyyə olunur.Hər bir halda dizel yanacağı tələblərə cavab verməlidir.
Yanacağın tərkibində kükürd 0,0015% - dən çox olmamalıdır. Yağlılıq 0,45 mm olmalıdır.Tərkibində kükürdün səviyyəsi 0.10 %-dən az olan dizel yanacağının istifadəsi mütləqdir. Tərkibində 0.10 % -dən 0.50 %-ə qədər kükürd olan dizel yanacağından istifadə etməklə yağın və süzücü elementin dəyişdirilməsi intervalını azaldın. Əmin olun ki, istifadə etdiyiniz dizel yanacağı yaxşı yağlılıq xassəsinə malikdir.

Obkatka dövründə xidmət

İlk 100 saat istismar vaxtında intensiv texniki xidmət mühərrikin normal işə hazırlığından xəbər verir. Obkatka üçün nəzərdə tutulmuş 100 saatdan çox motor yağını işlətməyin.

Mühərrik zavoddan John Deere firmasının yağı ilə daxil olur. Yalnız yağın səviyyəsi tələb olunan nöqtədən aşağı olduqda əlavə etmək lazımdır. Obkatka dövründə John Deere firmasının TV22041 markalı yağından istifadə edin. Obkatka dövründə PLUS-50 motor yağından istifadə etməyin. Belə ki , bu yağ yeni mühərrikin obkatkası dövründə hissələrin tələb olunan uyğunlaşma-sını təmin etmir.



A- Yağın səviyyəsini ölçmək üçün şup

Dizel mühərrikinin obkatkası dövründə John Deere “BREAK-İN” və ya “BREAK-İN™ PLUS” markalı yağlardan istifadə olunur.

Mühərrikin hissələrinin işlənib uyğunlaşması üçün mühərriki müxtəlif şəraitlərdə istifadə etmək lazımdır.

Yağı və süzgəci 100 saatdan sonra , “BREAK-İN” yağını isə maksimum 500 saatdan sonra dəyişmək lazımdır. Əgər ilk 100 saatda yuxarıda qeyd edilmiş yağların istifadəsi mümkün olmadıqda 10W-30 yağından istifadə edin. Obkatkadan sonra “John Deere Plus-50“ markalı yağların istifadəsi tövsiyyə olunur.

Aşağıda adları qeyd edilmiş yağlardan da istifadə etmək olar :

- John Deere Torq Gard Supreme ™
- API Service Category CJ-4
- API Service Category CI-4 PLUS
- API Service Category CF-4
- ACEA Oil Sequence E9
- ACEA Oil Sequence E7
- ACEA Oil Sequence E6
- ACEA Oil Sequence E5
- ACEA Oil Sequence E4
- ACEA Oil Sequence E3
- ACEA Oil Sequence E2

Hidravlik / hidrostatik yağlar

Aşağıdakı yağlardan istifadə olunması tövsiyyə olunur:

- John Deere HY- GARD®
- John Deere HY- GARD® aşağı özlüklü

Bu xassələrə uyğun olan digər yağlardan da istifadə etmək olar:

- John Deere Standart JDM J20C
- John Deere Standart JDM J20D

Transmissiya və son ötürücülər üçün istifadə olunan yağlar

Kükürd , xlor və qurğuşun tərkibli yağlardan istifadə etməyin. Bu, hissələrin tez yeyilməsinə səbəb ola bilər. Dişli çarxlı ötürmələrdə John Deere firmasının 85W/140 API GL-5 yağlarından istifaə edin.

Bu tələbləri ödəyən digər yağlardan da istifadə etmək olar :

- API istismar xassəsi GL-5 olan
- Hərbi texniki tələblər MIL-L-2105C

Dizel mühərriklərində istifadə olunan soyuducu mayelər

Yaxşı olar ki, John Deere COOL-GARD soyuducu mayelərdən istifadə edilsin.Əgər bu markadan soyuducu maye yoxdursa, onda az qarışıqlı silikat etilen-qlikolya və ya propilen-qlikolya 50% -li qarışıqlı yüksək keyfiyyətli su ilə qarışdırılmış soyuducu mayelərdən istifadə etmək olar.

Texniki xidmət cədvəli

Texniki xidmətin adı	Dövrülüyü									
	Hər bunker	10 saat	50 saat	100 saat	250 saat	400 saat	Hər il	600 saat	Hər 2 ildə	2000 saat
Lazım olarsa ayırıcını, barabanı, sovurucu kameranın qapıcıqlarının daxili səthlərini və nəmləşdirici dayaqları yoxlayın.	•									
Radiatorun xarici səthini təmizləyin.	•									
Mühərrikin kapotu və ventilyatorun kojuxu üzərində pambığın toplanıb yığılmasını yoxlayın.	•									
Sovurucu kameranın arxa qapıcıqlarının daxili səthlərini təmizləyin.	•									
Yağın səviyyəsini yoxlayın (mühərrik, hidravlik/ hidrostatik sistemlər)		•								
Yanacaq süzgəclərini yoxlayın. Lazım olarsa yanacağı süzün və süzgəcləri təmizləyin.		•								
Aparatın reduktorunun karterində yağın səviyyəsini yoxlayın.		•								
Soyuducu mayenin səviyyəsini yoxlayın.		•								
Fırlanan torlu süzgəci və radiatoru təmizləyin.		•								
Kabinada havanı dəyişin. Yüksək tozlu şəraitdə işlədikdə sistemin kobud təmizləyici süzgəcini dəyişin.		•								
Döyücüləri, mərkəzi dişli çarxları, yuxarı blok dişli çarxı və yumruqcuqların işçi səthlərini yağlayın.		•								

Yağlama və texniki xidmət

Texniki xidmətin adı	Dövrülüyü									
	Hər bunker	10 saat	50 saat	100 saat	250 saat	400 saat	Hər il	600 saat	Hər 2 ildə	2000 saat
Aparatın hərəkət ötürücü vallarında teleskopik valı yağlayın.		•								
Torlu süzgəci və nəmləşdiricinin püskürdücü deşiyini təmizləyin.		•								
Ayırıcıları, nəmləşdirici dayaqları, şpindelləri, kameranın qapıcıqlarını, barabanları və aparatın altını təmizləyin.		•								
Bunkeri, qapıcıqların datçiklərini, aşağı bunkeri, uzadıcını və şnekin dişli ötürməsini yoxlayın.		•								
Aparatın balansirinin oxunun podşipnikini yağlayın.		•								
Bunkerin və qapıcıqların zəncirinin tarımlığını yoxlayın.		•								
Mühərrikin,generatorun, pambıq ventilyatorunun rotorunu, transmissiyanı, bitkini qorumaq üçün aşağı şitləri, kabinanın havaqəbuledici torlu süzgəcini pambıq qalıqlarını və zibildən təmizliyini yoxlayın.		•								
Starterin kənarlarını zibildən təmizləyin.		•								
Bütün şinlərə baxış keçirin		•								
Kəsən bıçaqları yoxlayın.		•								
Qidalandırıcının qabaq barmaqlarını yoxlayın.		•								
Qidalandırıcının arxa barmaqlarını yoxlayın.		•								
Kəsən bıçaqları yoxlayın		•								

Yağlama və texniki xidmət

Texniki xidmətin adı	Dövrülüyü									
	Hər bunker	10 saat	50 saat	100 saat	250 saat	400 saat	Hər il	600 saat	Hər 2 ildə	2000 saat
Qidalandırıcının qabaq barmaqlarını yoxlayın.		•								
Qidalandırıcının arxa barmaqlarını yoxlayın.		•								
Kabinanın ventilyasiyasının süzücü elementini təmizləyin.			•							
Ayırıcının aşağı podşipnikini yağlayın.			•							
Aparatın qaldırıcı silindrinin ştokunun səthini yağlayın.			•							
Aparatın qaldırıcısının şarnirini yağlayın.			•							
Hidroqovşağın hərəkət ötürücü qayışının tarımlığını yoxlayın.			•							
Cərgədə işləyən aparatın reduktorunda yağı dəyişin (yalnız ilk 50 saat işdən sonra)			•							
Aparatın hərəkət ötürücü karadanının şarnirlərinin arxa və qabaq podşipniklərini yağlayın.				•						
Aparatın eninə aparıcı vallarının səthlərini və universal şarnirlərini yağlayın.				•						
Körpünün son ötürücüsünün podşipnikini yağlayın.				•						
Hidrostatik universal şarniri yağlayın.				•						
Körpünün son ötürücüsünün birləşdirici muftalarını yağlayın.				•						

Yağlama və texniki xidmət

Texniki xidmətin adı	Dövrülüyü										
	Hər bunker	10 saat	50 saat	100 saat	200 saat	250 saat	400 saat	Hər il	600 saat	Hər 2 ildə	2000 saat
Aparatın dayaq çərçivəsinin roliklərini yağlayın.				•							
İstiqamətverici oxun şpindelini , sükan idarəetmə sisteminin silindrini və birləşdirici qolları yağlayın.				•							
Sükanın dirsəkli vintlərini bərkidin.				•							
Təkərlərin boltlarını sıxın və şinlərdə təzyiqi yoxlayın.				•							
Kabinada hava dəyişdirici sistemin kobud təmizləyici süzgəcini təmizləyin- normal şəraitdə işləyəndə.					•						
Transmissiyada yağın səviyyəsini yoxlayın					•						
Motor yağını və süzgəci dəyişin.						•					
Dartıcı muftaları yağlayın.						•					
Kobud və incə yanacaq süzgəclərini dəyişin.						•					
Mühərrikin ventilyatorunun valını yağlayın.						•					
Yağlama sisteminin süzgəcini təmizləyin və ya dəyişin.						•					
Hidravlik/hidrostatik yağ süzgəclərini dəyişin.							•				
Son ötürücüdə yağın səviyyəsini yoxlayın.							•				

Yağlama və texniki xidmət

Texniki xidmətin adı	Dövrülüyü									
	Hər bunker	10 saat	50 saat	100 saat	250 saat	400 saat	Hər il	600 saat	Hər 2 ildə	2000 saat
Transmissiya yağını dəyişin.						•				
Kobud və incə hava süzgəclərini dəyişin.							•			
Yanacaq bakının hava tıxacını təmizləyin.							•			
Akkumulyator batareyasının klemmalarını təmizləyin.							•			

Plus-50 markalı yağdan istifadə etdikdə texniki xidmətlər arasında intervalı artırın. Misal üçün, 250 saatdan 375 saata. İlk 100 saatdan sonra yağı və süzgəci dəyişin.

Texniki xidmətin adı	Dövrülüyü									
	Hər bunker	10 saat	50 saat	100 saat	250 saat	400 saat	Hər il	600 saat	Hər 2 ildə	2000 saat
Ayırıcının podşipniklərini təmizləyin və yağlayın							•			
Təkərlərin podşipniklərinin salniklərini dəyişin.							•			
Tormoz pedallarının şarnirlərini dəyişin.							•			
Soyuducu mayenin vəziyyətini yoxlayın və tərkibini yaxşılaşdırın.							•			
Bütün hərəkət ötürücü qayışların düzlüyünü və tarımlığını yoxlayın.							•			
Təhlükəsizlik qayışlarına baxış keçirin.							•			
Cərgə arasında işləyən aparatın reduktorunda yağı dəyişin.							•			
Kabinanın hava qəbuledici panelini sökün və təmizləyin.							•			

Yağlama və texniki xidmət

Texniki xidmətin adı	Dövrülüyü									
	Hər bunker	10 saat	50 saat	100 saat	250 saat	400 saat	Hər il	600 saat	Hər 2 ildə	2000 saat
Soyuducu mayeni süzün , soyutma sistemini yuyun və təzə maye tökün.							•			
Termostatları dəyişin.							•			
Son ötürücüdə yağı süzün və dəyişin.									•	
Mühərrikin klapanlarını nizamlayın.									•	

Bunkerin hər boşaldılması zamanı



1. Tələb olunarsa ayırıcını, barabanları, sovurma kamerasının qapıcıqlarının daxili səthini , nəmləşdiricinin kolonkasını yoxlayın və təmizləyin.

2. Radiatorun torunun xarici səthini təmizləyin.

Diqqət: Bunker ağırdır. Əgər bunker gözlənilmədən aşağı düşsə sizə ağır xəsarət yetirə bilər. Mütləq bunkerin məhdudlaşdırıcısını yerinə qoyun ki, kojuxu təmizləyən zaman bunkerin aşağı düşməsinin qarşısı alınsın.

Hər 10 saatdan sonra



1. Motor yağını yoxlayın.
2. Soyuducu mayenin səviyyəsini yoxlayın, əgər lazım gəlirsə maye əlavə edin. Süzücü balonda soyuducu mayenin səviyyəsini yoxlayın.
3. Hidravlik / hidrostatik yağın səviyyəsini yoxlayın.



A- Fiksator **B - Yanacağın ilkin təmizləyici süzgəci** **D – 30/60 mikron təmizləyici süzgəc**

Diqqət: Kondisionerin yağ soyuducusu / kondensatoru ağırdır, o tutucunu açan zaman aşa bilər və sizə ağır xəsarət yetirə bilər. Tutucunu açmazdan əvvəl kondensatoru dayaq üzərində qoyun.

4. Kondisionerin yağ soyuducusunu və kondensatoru təmizləyin. Bunun üçün tutucunu (A) açın və kondisionerin yağ soyuducusunu /kondensatoru ehtiyatla aşağı buraxın.
5. İlkin yanacaq süzgəcini (B) yoxlayın və süzgəcdə suyun və çöküntünün olmasını yoxlayın.



6. Bortlu yağlama sistemindən istifadə edərək (A) döyücüləri , mərkəzi dişli çarxları , dişli çarxların yuxarı blokunu və yumruqcuqların işçi səthini yağlayın.



7. Nəmləşdirici sistemin klapanını bağlayın.Torlu süzgəci açın və yuyun.
8. Bunkerin arxa silindirinin gövdəsinin ətrafını təmizləyin.
   <u>Qeyd</u> :Aparatları su ilə yuyan zaman təzyiqlə suyu vurmayın , bu yığıcı aparatın reduktorunun deşiyindən suyun içəri daxil olmasına səbəb olar.
9. Ayırıcıların , şpindellərin , sovurma kamerasının qapıcıqlarının, barabanların və aparatların altlığının ətrafını təmizləyin.



Keyfiyyətsiz yağlama şarnir birləşmələrin vaxtından əvvəl yeyilməsinə səbəb olar. Döndərici birləşmələrdən yükü açın və yağın həmin səthə bərabər paylanmasını təmin edin.

10. Cərgədə işləyən aparatı dayaq üzərində buraxın ki, şarnir birləşmələr üzərində yük azalsın.Sonra aparatın balansirinin oxunun podşipniklərini yağlayın.
11. Bunkerin balansirinin oxunun podşipnikini dörd nöqtədə yağlayın.
12. Bunkerin transportyorunun zəncirinin tarımlığını yoxlayın.



13. Aşağıda qeyd edilmiş yerlərdən pambıq qalığını və zibili təmizləyin :

- mühərrik (A), dəyişən cərəyan generatoru (B), pambıq ventilyatorunun rotoru (C), transmissiya (D) və tormozlar (E)



14. Aparatın hərəkət ötürücü universal şarnirlərinin aşağı və yuxarı podşipniklərini yağlayın (dörd nöqtədə). Aparatın hərəkət ötürücü valını yağlayın.

15.Cərgədə işləyən aparatda yağın səviyyəsini yoxlayın. Aparatda yağın səviyyəsi baxış pəncərəsinin mərkəzi səviyyəsində olmalıdır (A). Tıxacı (B) açın və lazım olan səviyyəyə qədər yağ əlavə edin. Sonra qapağı yerinə qoyun.



A- Baxış pəncərəsi
B- Yağ tökülən deşiyin tıxacı

16. Kəsici bıçaqlarda (A) zədələnməni və nasazlığı yoxlayın.

A-kəsici bıçaq



17. Qidalandırıcının qabaq barmaqlarını (A) yoxlayın.

A- Qidalandırıcının qabaq barmağı



18. Qidalandırıcının arxa barmaqlarını (A) yoxlayın.

A- Qidalandırıcının arxa barmaqları



Gündəlik olaraq nəmləşdirici sistemin çənində hava deşiyinin yoxlanması- maşın məsafədən doldurma sistemi ilə təchiz olunmamışdır.

Qeyd: *Əgər maşın məsafəli doldurma sistemi ilə təchiz olunubsa, onda ona gündəlik texniki xidmət tələb olunmur.*

Çənin doldurucu boğazcığını gündəlik olaraq yoxlayın. Əmin olun ki, hava deşiyi çirk və ya zibil ilə tutulmamışdır.



A- Çənin doldurucu boğazcığının qapağı

Texniki xidmətlər arasında intervalı göstərən cihaz

Hər 50 saat işdən sonra rəqəmli taxometrin displeyində SEU1 məlumatı əks olunur. Bu displey məlumat texniki xidmətlərin intervalını bildirir , müntəzəm olaraq yağlama işlərinin və texniki xidmətin qrafikinin tərtib edilməsinə köməklik edir.





A- Pres-məməcik **B – Starter**

1. Məməciklərin (A) köməkliyi ilə ayırıcının kolonkasının podşipniklərini yağlayın.
2. İşəsalma (B) ərazisindən pambıq qalıqlarını təmizləyin.

3. Aparatın daxili döndərici şkvorneynini və aparatın qaldırıcı silindirlərini yağlayın.



Aparatın qaldırıcı mexanizminin daxili döndərici şkvorneyi

Yığıcı aparatların qaldırıcı silindiri

Hər 100 saat işdən sonra



Mütləq : kipləşdiricilərin zədələnməməsi üçün şprisin dəstəyini yalnız bir dəfə basmaqla yağlanmanı aparın.

1. Ventilyatorun qabaq və arxa podşipniklərini yağlayın.
2. Qollu mexanizmi dirsəkli valı və ventilyatorun qayışının tarımlayıcı qurğusunun şarnirini yağlayın.



3. Yığıcı aparatın eninə vallarını yağlayın.



4. Son ötürücünün oxunun podşipniklərini yağlayın (iki nöqtədə).
5. Batareyaların kontaktlarını təmizləyin.
6. Hidrostatik universal şarniri yağlayın.



7. Cərgədə işləyən aparatı yerə buraxın. Dartıcı muftadan yükü ayırın. Aparatın qaldırıcı mexanizminin dartıcı muftasının podşipniklərini yağlayın (dörd nöqtədə).
8. Son ötürücünün oxunun birləşdirici muftasını yağlayın (dörd nöqtədə).
9. Aparatın dayaq çərçivəsinin roliklərini yağlayın (hər aparatda iki ədəd).



10. İstiqamətverici oxu və şarniri yağlayın (səkkiz nöqtədə).

11. Qapağı (A) açın və transmissiyadakı mayenin səviyyəsini yoxlayın. Maye tıxacın deşiyinin aşağı hissəsi səviyyəsində olmalıdır.

A- Tıxac



12. Sükanın dirsəkli boltlarını sıxın (maşının hər tərəfində dörd ədəd)
13. Aparan təkərlərin boltlarını sıxın.
14. Aparılan təkərlərin boltlarını sıxın.
15. Arxa aparan təkərlərin boltlarını sıxın.



16. Kabinada qoyulmuş hava süzgəcinin işçi elementini təmizləyin və ya dəyişin.



A- Hava süzgəcinin işçi süzücü elementi

Hər 200 saat işdən sonra

Su yanğınsöndürənini (A) və kimyəvi yanğınsöndürəni ABC (B) yoxlayın. Yanğınsöndürənə yapışdırılmış cədvəldə qeydiyyat aparın.



A- Su yanğınsöndürəni
B- Kimyəvi yanğınsöndürən (ABC)



Hər 250 saat işdən sonra



Qeyd: *PLUS-50™ yağından istifadə etdikdə xidmət intervalını 50 % azaldın.*

1. Qapağı açıb karterdən yağı süzün. Karterin süzücü deşiyinin qapağını dəyişin. Yağı dəyişəndə motor yağının süzgəcini dəyişin. Süzgəcin montaj flansını təmizləyin. Araqatına yağ sürtün və yeni element qoyun.Süzgəci yalnız əl ilə bərkidin.Tələb olunan miqdarda motor yağı tökün.

2. Yağlama sisteminin süzgəcini (A) təmizləyin və ya dəyişin. A- Süzgəclər	

3. Kabinada qoyulmuş ikinci hava süzgəcini təmizləyin və ya dəyişin. A- İkinci hava süzgəci	

4. Kobud yanacaq süzgəcinin (A) elementini dəyişin.
5. İncə yanacaq süzgəcinin (B) elementini dəyişin.

   A- Yanacağı ilkin təmizləyən süzgəc

   B- İncə yanacaq təmizləyici süzgəc



Hər 400 saat işdən sonra



f

1. Hidrostatik/hidravlik yağı süzün.
   Hidrostatik/hidravlik yağ süzgəclərini dəyişin.
   Tələb olunan səviyyədə hidrostatik/hidravlik yağ tökün.

2. Qapağı (A) açın və son ötürücüdə yağın səviyyəsini yoxlayın. Yağın səviyyəsi yağ tökülən deşiyin aşağı hissəsindən 6 mm-dən çox yuxarıda olmamalıdır.
3. Tələb olunan yağlama materialını tökün.



A- Yağ tökülən deşiyin tıxacı

Hər il

Diqqət: Aparatlar ağırdır , yerə düşəndə onlar sizə və yaxınlıqda duran digər şəxslərə ağır xəsarət yetirə bilər. Aparatların altında işləyəndə hər bir aparatın qaldırıcı silindrinin ştokları altında dayaqlar qoyun.



1. Ayırıcının podşipnikinin gövdəsinin flansını (A) və nizamlayıcı lövhəni (B) elə qoyun ki, podşipnikin gövdəsini yerinə qoymaq mümkün olsun. Podşipnikin gövdəsini çıxarın. Podşipnikin gövdəsində pres-məməciyi açın. Üzərində konsistent yağı təmizləyin John Deere şirkətinin yağından istifadə edərək pres-məməciyi yağla doldurun. Podşipnikin gövdəsini yerinə qoyun, sonra pres-məməciyi yerinə qoyun.
2. Transmissiyada yağın səviyyəsini yoxlayın.
3. Hidrometrin vasitəsi ilə soyuducu mayenin vəziyyətini yoxlayın.



4. İstiqamətverici təkərlərin podşipniklərini sökün və onların hissələrini yuyucu mayedə təmizləyin. Podşipnikləri konsistent yağla doldurun. Podşipnikləri əksinə ardıcıllıqla yerinə qoyun və qaykanı sıxın.
5. Son ötürücüdə yağın səviyyəsini yoxlayın.
6. Tormoz pedalların şarnirlərini yağlayın.

7. Podşipnikin gövdəsində yerləşən plastmas tıxacı (A) açın. Aparatın tarımlayıcı qurğusunun podşipniklərini yağlayın (hər aparatda 2 ədəd) şprislə konsistent yağla yağlayın.

A- plastmas tıxac



Cərgədə işləyən aparatların reduktorlarından yağın süzülməsi və yenidən yağla doldurulması.

Diqqət: Cərgədə işləyən aparatlar ağırdır və onun adam üzərinə düşməsi ciddi xəsarətlə, hətta ölümlə nəticələnə bilər. Aparata yaxın işlədikdə onu tam olaraq yerə buraxın və aparatların qaldırıcı silindrlərinin ştokları altında dayaq qoyun.

1. Cərgədə işləyən aparatın sağ tərəfində olan lövhəni (A) sökün.

A- lövhə



2. Reduktorun çıxış valının altında həcmi 591 ml olan süzücü stəkan (A) qoyun.
4. Tıxacları (B və C) açın və yağı boşaldın .
5. Yağı boşaltdıqdan sonra tıxacı (B) yerinə qoyun və stəkanı ordan götürün.
6. Cərgədə işləyən aparatın sağ tərəfində lövhəni qoyun.



A- Yağın süzülməsi üçün qab
B- Tıxac
C- **Tıxac**

7. Baxış şüşəsinin (B) düz qoyulmasını yoxlayın və reduktorun karterinə HY-GARD™ JDM J20C yağını baxış şüşəsinin ortasına qədər doldurun.
8. Tıxacı (A) yerinə qoyun



A- Tıxac
B- **Baxış şüşəsi**

Mühərrikin hava süzgəclərinin elementlərinin dəyişdirilməsi - hər il

Mühərrikin ilkin (A) və ikinci (B) hava süzgəclərini hər il dəyişin.



B- İlkin süzücü element
C- İkinci süzücü element



Hər 600 saat işdən sonra



Soyuducu mayeyə əlavə qarışıqlar vurmaq üçün soyutma sistemində soyuducu mayenin çox hissəsini süzün.

RE23182 kondisioner mayesini 0.95 l həcmində əlavə edin (təqribən hər konteynerə 0.47 l).

Hər 2 ildə

Diqqət: Bunker ağırdır. O yıxılarsa ağır xəsarətlə, hətta ölümlə nəticələnə bilən hadisə baş verər. Heç vaxt bunkeri qaldırıb radiatorda soyuducu mayenin səviyyəsini yoxla-mayın. Gözləyin ki , radiator-da soyuducu maye soyusun. Soyuducu sistemdə olan mayenin təzyiq altında olması sizdə və başqalarında yanıq yarada bilər.

1. Mayeni süzün və soyutma sistemini yuyun.
2. Soyuducu mayeni dəyişin. Radiatoru soyuducu qarışıqla doldurun.

Hər 2000 saatdan sonra

1. Son ötürücüdən yağı süzün və onu tələb olunan yağla doldurun. Yağın səviyyəsi son ötürücünün tıxacından (A) 6 mm-dən çox yuxarıda olmamalıdır.

2. Transmissiyadan yağı süzün və ona tələb olunan yağı tökün. Bloku (B) açın və yağı süzün , süzgəci təmizləyin və yaxud dəyişin. Transmissiyaya yağ tökün və elə edin ki, yağın səviyyəsi (A) tıxacın deşiyinin aşağı səviyyəsində olsun.

3. Mühərrikin klapanlarının itələyicilərini nizamlamaq üçün John Deere firmasının dilerlərinə müraciət edin.



A- Son ötürücünün tıxacı
B- Silindrlər bloku
C- Tıxacın deşiyi

22. Nasazlığın aradan qaldırılması

Yığıcı aparat

Əlamət	Nasazlıq	Nasazlığın aradan qaldırılması
1	2	3
Saplaq yığıcı aparata daxil olmur	Saplaqqaldıranlar düzgün nizamlanmamışdır. Saplaqqaldıranlar əyilmişdir və ya ilişmişdir. Torun barmaqları əyilmişdir.	Kolqıranı nizamlayın Hissələrin zədələnməsini yoxlayın. Torun barmaqlarını dəyişin
Bitkidə pambıq qozası qalır	Sıxıcı lövhəciklər pis nizamlanmışdır və yaxud əyilmişdir. Su vermə sistemi nizamlanmamışdır , keyfiyyətsiz istismar olunur və yaxud pis təmizlənmişdir. Şpindellər təmizlənmir. Nəmləşdirici sistem nasazdır. Şpindellər kütləşmişdir. Yığıcı aparatlar çox aşağı sürətlə işləyir. Şpindellər fırlanmır.	Sıxıcı lövhəcikləri nizamlayın , dəyişin və yaxud təmir edin. Su vermə sistemini təmizləyin və nizamlayın. Qopardıcıları və döyücüləri yoxlayın və nizamlayın. Nəmləşdirici sistemi yoxlayın. Yoxlayın ki, bu iş rejimi üçün lazım olunan miqdarda su tozlandırılır. Şpindelləri dəyişin Aparatın giriş ilişmə muftasının burucu momentini nizamlayın. Muftanın yeyilmiş hissələrini dəyişin. Şpindelin aparıcı valının üzərində stopor üzlüyünü yoxlayın və dəyişin. Şpindelin aparıcı dişli çarxının silindrik ştiftini dəyişin.

Nasazlığın aradan qaldırılması		
1	2	3
Yığım maşını pambıq qozasını saxlamır.	Yığım ikinci ötürmədə aparılır.	Yığımı birinci ötürmədə aparın.
	Sıxıcı lövhələr boşalmış və ya əyilmişdir.	Sıxıcı lövhələri nizamlayın, dəyişin və yaxud təmir edin.
	Sovurma kameralarının qapıcıqları, boşaldıcı boruları və hava boruları tutulmuşdur.	Təmizləyin və xaricə axıntının olmasını yoxlayın. Hava yığıcı sistemi nizamlayın.
	Torun barmaqları əyilmişdir, itmişdir və yaxud nizamlanması pozulmuşdur.	Torun barmaqlarını dəyişin və yaxud nizamlayın.
	Şpindellər kütləşmişdir.	Şpindelləri dəyişin.
Maşın aşağı qozalardan pambığı yığmır.	Kolqaldıran həddindən çox yuxarıda qoyulmuşdur.	Kolqaldıranı aşağı salın.
	Şpindellər kütləşmişdir.	Şpindelləri dəyişin.
	Aparat çox yuxarıda qoyulmuşdur.	Aparatın hündürlüyünü və mailliyini nizamlayın.
	Yığılan materialın istiqamətvericisi çox hündürdə qoyulmuşdur.	Yığılan materialın istiqamətvericilərini nizamlayın.
	Hündürlük datçiki düzgün nizamlanmamışdır.	Hündürlük datçikini nizamlayın.
Yığım maşını göy pambıq qozalarını yerə tökür.	Sıxıcı lövhələr çox sıxılmışdır.	Sıxıcı lövhələri boşaldın.
	Tarımlayıcı qurğunun ilişmə muftası ola bilsin ki, boş işləyir.	İlişmə muftasını yoxlayın və yeyilmiş hissələri dəyişin.
	Yığım ikinci ötürmədə aparılır.	Yığımı birinci ötürmədə aparın.
	Cərgədə işləyən aparatın ilişmə muftası boş işləyir.	Yeyilmiş boyuncuqları Araqatların düzgün sayda olmasını yoxlayın.

Nasazlığın aradan qaldırılması		
1	2	3
	Torun barmaqları itmiş-dir.	Torun barmaqlarını dəyişin.
	Kolqaldıranın əlavəsi və aparatın qabaq hissəsi ilə zazorun olması	Kolqaldıranın əlavəsini çevirin.
Pambıq çirklidir.	Aparatın qapıcıqları çirk-lənmişdir.	Təmizləyin.
	Xəlbirin barmaqları əyil-mişdir.	Xəlbirin barmaqlarını də-yişin.
	Yığıcı aparatlar çox aşa-ğıda yerləşir.	Yığıcı aparatın hündür-lüyünü və mailliyini nizamlayın.
Sovurma kamerasının qapıcıqları və ya hava borusu tutulmuşdur.	Sovurma kamerasının qapıcıqlarında zibil yığıl-mışdır.	Qapıcıqları təmizləyin.
	Hava borularına nisbətən qapıcıqlar nizamlanma-mışdır.	Qapıcıqları nizamlayın.
	Sovurma kamerasının qapıcıqları nəmlənmişdir.	Su vermə sistemini tə-mizləyin və onun texniki xidmətini keçirin.
	Havanın xaricə sızması.	Hava sızılan yeri tapın və aradan qaldırın.
	Ventilyatordan daxil olan havanın təzyiqi aşağıdır.	Ventilyatorun qayışını ni-zamlayın. Mühərrikin no-minal dövrlər sayında işləyin.
	Ventilyatorun rotorunun pərləri tutulmuşdur.	Təmizləyin.

Nasazlığın aradan qaldırılması		
1	2	3
Şpindellər təmizlənmir	Çıxarıcıların hündürlüyü düzgün qoyulmamışdır.	Çıxarıcıların hündürlüyünü nizamlayın.
	Çıxarıcıların altlığı yeyilmişdir və ya yoxdur.	Çıxarıcıların hissələrini dəyişin.
	Su vermə sistemi nizamlanmamışdır, pis təmizlənir.	Su vermə sistemini təmizləyin və nizamlayın. Yuma sistemini qoşun.
	Nəmləşdirici sistem nasazdır.	Yoxlayın ki,bu iş şəraiti üçün lazım olan miqdarda qarışıq tozlandırılır. Qarışığın tərkibini yoxlayın.
	Şpindel qaykasında içliyi yeyilmişdir.	İçliyi dəyişin.
	Şpindellər eyni səviyyədə işləmirlər.	Döyücüləri araqatları ilə nizamlayın
	Yığıcı dayağın ştifti boşalıb və ya yoxdur.	Ştifti dəyişin.
	Nəmləşdirici dayaq nizamlanmamışdır.	Kolonkanı nizamlayın. Nəmləşdiricinin poduşkası şpindelin səthi üzrə sürüşməlidir.
	Çıxarıcıların mailliyi düzgün seçilməmişdir.	Çıxarıcıların mailliyini radius şablonu ilə nizamlayın.
Şpindellər göy ləkələrlə örtülmüşdür.	Nəmləşdirici sistem pis təmizlənmişdir, nizamlanmamışdır və ya keyfiyyətsiz istismar olunur.	Bütün nəmləşdirici sistemi təmizləyin və nizamlayın.
	Pambığın yarpağı qopmur.	Yarpaqları lazım olan qaydada kənar edin.
	Şpindellərin təmizləyicisi əvəzinə isladıcı maye istifadə olunur.	John Deere firmasının isladıcı maddələrindən istifadə edin. Ağır şəraitdə firma John Deere firmasının təmizləyicilərindən istifadə edin.

Nasazlığın aradan qaldırılması		
1	2	3
Yığıcı aparat səs-küylə işləyir.	Yuma sistemindən düzgün istifadə olunmur.	Yuma sistemini birləşdirin.
	Nəmləşdirici dayaq nizamlanmamışdır.	Dayağı nizamlayın.
	Döyücüdə yumruqcuğun izləyici elementi əyilmişdir.	Dəyişin və ya təmir edin.
	Döyücülər qurudur.	Döyücüləri yağlayın.
	Çıxarıcıların dayağı əyilmişdir	Dayağı dəyişin.
	Şpindelin içliyi yeyilmişdir.	İçliyi dəyişin.
	Şpindellər və ya şpindellərin qaykaları torun lövhələrinə zərbə vurur (toxunur).	Torun milini dəyişin və ya nizamlayın.
	Çıxarıcının podşipniki yeyilmişdir.	Podşipniki dəyişin.
	Yığıcı dayağın ştifti boşalıb.	Ştifti sıxın.
	Çıxarıcı çox aşağıda qoyulmuşdur.	Çıxarıcını nizamlayın.
	Şpindellər sıxıcı lövhələrə toxunur.	Sıxıcı lövhələri nizamlayın.
	Çıxarıcının tarımlayıcı qurğusunun dişli çarxı müəyyən bucaq altında qoyulmuşdur.	Əmin olun ki, tarımlayıcı qurğunun dişli çarxı deşiyin içərisində durmuşdur.
Barabanın ilişmə muftası boş fırlanır.	İlişmə muftasının üzlüyü yeyilmişdir.	İlişmə muftasının üzlüyünü dəyişin.
	Pambıq nəmləşdiricinin kolonkasında yığılıb qalır.	Nəmləşdiricinin kolonkasını təmizləyin.
	Yığıcı dayaqlar əyilmişdir .	Döyücüləri dəyişin və ya düzəldin.
	Çıxarıcılar çox aşağıda qoyulmuşdur.	Çıxarıcını qaldırın.

Nasazlığın aradan qaldırılması		
1	2	3
Aparatın giriş ilişmə muftası boş fırlanır.	Yığıcı dayaqlar əyimişdir.	Döyücüləri dəyişin və ya düzəldin.
	Yağ çox qatıdır.	Yığıcı aparatların obkatkasını keçirin. Şpindellər üçün John Deere firmasının yağlama materilallarından istifadə edin.
	Yığılan material şpindelə dolanır.	Şpindeli təmizləyin. Nəmləşdirici sistemi nizamlayın.
	İlişmə muftasının üzlüyü yeyilmişdir.	Üzlüyü dəyişin.
	İlişmə muftasının yayı düzgün nizamlanmamışdır.	Araqatı vasitəsi ilə nizamlayın.
	Şpindellərin və ya yığıcının dayaqlarının içliyi və podşipnikləri nasazdır.	Podşipnikləri və ya içlikləri dəyişin.
	Çıxarıcılar çox aşağıda qoyulmuşdur.	Çıxarıcıları qaldırın.
Ayırıcıların poduşkalarının həddindən çox yeyilməsi.	Nəmləşdirici sistem nasazdır.	Nizamlayın.
	Çıxarıcılar həddindən çox sıx otuzdurulub.	Nizamlayın .
	Çıxarıcının valı əyilmişdir	Valı dəyişin. John Deerenin dilerlərinə müraciət edin.
	Şpindellərin içlikləri yeyilmişdir.	İçlikləri dəyişin.
	Çıxarıcılar çox yuxarı və ya aşağı qoyulmuşdur.	Çıxarıcıları tələb olunan hündürlüyə nizamlayın.
Nəmləşdirici poduşkalar yoxdur və ya yeyilmişdir.	Nəmləşdiricinin kolonkasının nizamlaması pozulmuşdur.	Nəmləşdiricinin kolonkasının vəziyyətini nizamlayın.
	Şpindelin içliyi yeyilmişdir.	Əgər şpindel laxlanırsa , onda içliyi dəyişin.

Nasazlığın aradan qaldırılması		
1	2	3
Nəmləşdirici sistemdə təzyiq itib.	Nəmləşdiricinin kolonkası çirklənmişdir. Çıxarıcılar nizamlanmamışdır. Qayış qırılmış və ya boşalmışdır. Nəmləşdirici sistem tutulmuşdur. Şlanq qırılmışdır. Hava tıxacı	Kolonkanı təmizləyin. Çıxarıcıların hündürlüyünü və mailliyini nizamlayın. Qayışı dəyişin və ya tarımlığını nizamlayın. Sistemi təmizləyin və nizamlayın. Şlanqı dəyişin Sistemi doldurmaq üçün nasosda süzücü tıxacdan istifadə edin.

Nasazlığın aradan qaldırılması

Vari-Row (VPS) - Cərgəli aparat sistemi

1	**2**	**3**
Fırlanan bıçaqlar ilişir.	Bıçağa pambıq qozası düşmüşdür.	Hündürlüyü elə nizamla-yın ki, bıçaq ən aşağı qozalar altında qalsın.
	Bıçağın üzərinə palçıq düşmüşdür.	Bıçağın hündürlüyünü və yığıcı aparatın mailliyini nizamlayın.
	Bıçaqlarda zazor yoxdur.	Bıçaqlarda zazoru nizam-layın.
	Kolun saplağı əyilmişdir.	Maşını saplağın əyilmə istiqaməti üzrə hərəkət etdirin.
	Fırlanan bıçaqlar altında çoxlu sayda materialın toplanması.	Diqqət !

Nasazlığın aradan qaldırılması

Hündürlüyün avtomatik nizamlanması

1	2	3
Aparat aşağı buraxılmır.	Datçikin başmaqları qaldırılmış vəziyyətdə asılı qalır.	Qollu mexanizmi elə nizamlayın ki, başmaqlar və qollu mexanizm sərbəst tərpənsin.
	Aparatın klapanı bağlı vəziyyətdə tutulmuşdur.	Aparatın klapanını nizamlayın və ya dəyişin.
	Klapanın solenoidinə cərəyan daxil olmur.	Qısa qapanma var və dövriyyəni təmir edin.
	Klapanın solenoidi sıradan çıxmışdır.	Qısa qapanma var.
Aparatlar qalxmır.	Aparat üzərində olan qollu mexanizm klapanı bağlamır.	Qollu mexanizmin vəziyyətini və ya aparatın klapanını nizamlayın.
	Klapanın solenoidinə cərəyan daxil olmur.	Qısa qapanma var.
	Yağın səviyyəsi aşağıdır.	Yağı tələb olunan səviyyəyə qədər əlavə edin.
	Klapanın solenidi sıradan çıxmışdır.	Solenoidin işini yoxlayın.

Nasazlığın aradan qaldırılması

Bunkerin üst əlavəsi

1	2	3
Bunker aşağı düşmür və ya aşağı düşəndə ilişir.	Torun boltları ilişir.	Nəqliyyat vəziyyətində isiqamətvericiləri nizamlayın.
	Silindr və bunker əyilmişdir.	Bunkerin üst əlavəsini qaldırıcı mexanizm vasitəsi ilə qaldırın və silindrləri düzəldin.
	Bunker əyilmişdir.	Bunkeri qaldırın və bunkerin silindrini təmir edin.
Bunker zəif qalxır və enir.	Klapanın diafraqması tutulmuşdur.	Diafraqmanı çıxarın və onu təmizləyin.
	Bunker qeyri-bərabər qalxır.	Mildən istifadə edərək qabaq üst əlavəsi üzərində olan deşiyin ştiftini dartın.

Bunkerin idarə olunması

1	2	3
Bunker aşağı buraxılmır.	Bunkerin qollu mexanizmi düzgün nizamlanmamışdır.	Bunkerin qollu mexanizmini nizamlayın.
	Klapanın solenoidinə cərəyan daxil olmur.	Qısa qapanmanın olmasını yoxlayın.
	Yağın səviyyəsi aşağıdır.	Yağı tələb olunan səviyyəyə qədər əlavə edin.
	Klapanın solenoidi sıradan çıxmışdır.	Solenoidin işini yoxlayın.
Bunker qalxmır	Bunkerin silindirnin blokirovka klapanı bağlıdır.	Klapanı açın.
	Bunkerin blokirovka açarı nasazdır.	Nizamlayın və ya blokirovka açarını dəyişin.
	Klapanın solenoidi sıradan çıxmışdır.	Solenoidin işini yox layın.
	Yağın səviyyəsi aşağıdır.	Yağı tələb olunan səviyyəyə qədər əlavə edin.

Nasazlığın aradan qaldırılması		

1	2	3
Bunker qeyri-bərabər aşağı düşür və qalxır.	Silindir pis nizamlanmışdır.	Silindiri nizamlayın.
	Silindir və şarnir pis yağlanmışdır.	Silindiri və şarniri yağlayın.
Bunkerin qapağı qeyri-bərabər açılır.	Qapağın qollu mexanizmi lazım olan birləşdirici deşiyə bağlanmamışdır.	Tələb olunan deşiyə birləşdirin.

Hidrostatik ötürmə

1	2	3
Qolların ilişməsi	Qollu mexanizmin yumru şarnirləri tərpənmir və ya yeyilmişdir.	Yağlayın və ya dəyişin.
	Qollu mexanizmin mili əyilmişdir və ya ilişmişdir.	Nizamlayın və ya mili düzəldir.
	Aparıcı vallar ilişir.	Podşipnikləri yağlayın və ya dəyişin.
	Nasosun hərəkət ötürücü valı ilişir.	John Deere şirkətinin dilerlərinə müraciət edin.
Sistem qızır . (Siqnal lampası yanır)	Soyuducunun hava kanalları tutulmuşdur.	Soyuducunun kanallarını təmizləyin.
	Ventilyatorun qayışı genişlənib və ya qırılmışdır.	Qayışı dəyişin.
	Qoruyucu klapanda təzyiq artmışdır.	Aşağı hərəkət sürətinə keçin.
Maşın qabağa və ya arxaya hərəkət etmir.	Hidrostatik mühərrikin gedişini dəyişən qurğunun klapanına elektrik cərəyanı daxil olmur.	Oturacaqda düz oturun. Hidroqolu neytral vəziyyətə keçirin və sıfır üzərində qoyun. Əgər bu nizamlamadan sonra cərəyanın daxil olması bərpa olunmazsa onda dilerə müraciət edin.
	Transmissiya işləmir	Transmissiyanı və qollu mexanizmi yoxlayın və ya dilerə müraciət edin.

Nasazlığın aradan qaldırılması		
1	**2**	**3**
	Yağ azdır.	Yağın səviyyəsini düzəldin.
	Motorla transmissiya arasında qoyulmuş birləşdirici mufta sınmışdır.	Nasazlığı bərpa edin.
	Sistemdə hava xaricə verilir.	Birləşmələri bərkidin.
	Mühərriklə nasos arasındakı П şəkilli birləşmə zədələnmişdir.	Nasazlığı bərpa edin.
	Yük süzgəci zibillənmişdir.	Süzücü elementi dəyişin.
	Qoruyucu klapanda təzyiq artmışdır.	Aşağı hərəkət sürətinə keçin.
Güc ötürücü mexanizm çətin birləşir və ya heç birləşmir.	Hidroqol neytral vəziyyətdə durmamışdır.	Hidroqolu neytral vəziyyətdə qoyun və ya hidroqol mexanizmini nizamlayın.
Sürətin səhv göstərilməsi.	Yağ azdır.	Kipliyi yoxlayın, tədbir görün. Çənə yağ tökün.
	Yük süzgəci zibillənmişdir.	Süzücü elementi dəyişin.
	Qoruyucu klapanda təzyiq artmışdır.	Aşağı hərəkət sürətinə keçin.
Maşın hidroqolun vəziyyətinə təsir etmir.	Qollu mexanizm sınmışdır və ya boşalmışdır.	Yoxlayın və təmir edin.
	Yağ süzgəci zibillənmişdir.	Süzücü elementi dəyişin.
	Sistemdə hava var.	Şlanqların birləşmələrini bərkidin, hidravlik boruların əzilməsini yoxlayın.
	Yağ azdır.	Yağın süzülməsinin qarşısını alın. Sistemə yağ əlavə edin.
Mühərrikin gücü aşağıdır və ya güc itir.	Yağ azdır.	Kipliyi yoxlayın və tədbir görün.
	Yağ süzgəci zibillənmişdir.	Süzgəcin elementini dəyişin.

Nasazlığın aradan qaldırılması

1	2	3
	Yağ borularından və birləşmələrdən yağ damcılanır. Mühərrikin gücü aşağı düşmüşdür.	Yoxlama keçirin və tələb olunan təmiri keçirin. John Deere dilerinə müraciət edin.

Mühərrik

1	2	3
Mühərrik çətin işə düşür və ya heç işə düşmür.	Qoruyucu ayırıcılar təsir etmir. Yanacaq bakı boşdur. Sıxma dərəcəsi aşağıdır. Akkumulyator batareyasında cərəyan azdır. Starter nasazdır, yüksək müqavimətə malikdir. Karterdə yağ çox qatıdır. Dizel yanacağı əvəzinə benzin istifadə olunur, yanacaq tələb olunan markadan deyil. Klapanların nizamlanması pozulmuşdur və ya klapanlar ilişmişdir. Yanacaq sistemində hava çirk və ya su vardır. Forsunkalar tutulub və ya nasazdır. Yanacaq süzgəc tutulmuşdur.	John Deere dilerinə müraciət edin. Yanacaq tökün. John Deere dilerinə müraciət edin. Elektrolitin səviyyəsini yoxlayın və akkumulyator batareyasını cərəyana qoşun. Təmizləyin, batareya və starter birləşmələri yoxlayın. Karterdən yağı boşaldın və təzə yağ tökün. Yanacağı süzün və yeni yanacaq tökün. John Deere dilerinə müraciət edin. Suyu süzün sistemi yuyun və yanacaqla doldurun. Sistemdən havanı xaric edin. John Deere dilerinə müraciət edin.

Nasazlığın aradan qaldırılması		
1	**2**	**3**
Mühərrikdə səs var.	Soyuducu mayenin temperaturu aşağıdır.	Termostat zədələnmişdir.
	Mühərrikin ana və şatun boyunlarının içlikləri boşalmış və ya yeyilmişdir.	John Deere dilerinə müraciət edin.
	Yağ azdır.	Yağı tələb olunan səviyyəyə çatdırın.
	Havayığıcı sistem tutulmuşdur.	Təmizləyin.
	Yanacaq sistemində hava var.	Qida sistemindən havanı xaric edin.
Mühərrik tez-tez sönür və ya normal işləmir.	Soyuducu mayenin temperaturu aşağıdır.	Mühərriki normal temperatura qədər qızdırın. Termostatı yoxlayın.
	Yanacaq süzgəcləri tutulmuşdur.	Süzücü elementləri dəyişin və sistemdən havanı xaric edin.Torlu süzgəcləri yoxlayın.
	İtələyicilər əyilmişdir və ya klapanlar ilişir.	John Deere dilerinə müraciət edin.
	Yanacaq sistemində su , zibil və hava vardır.	Sistemdən mayeni süzün və sistemi yuyub təmiz maye tökün.
	Forsunkalar tutulub və ya nizamlaması pozulmuşdur	John Deere dilerinə müraciət edin.
Mühərrikin gücü yoxdur.	Mühərrik həddindən çox yüklənmişdir.	Hərəkət sürətini azaldın.
	Hava yığıcı sistemi tutulmuşdur.	Hava təmizləyici sistemi təmizləyin.
	Termostat nasazdır.	Termostatı dəyişin.
	Klapanlarda zazor pozulmuşdur.	John Deere dilerinə müraciət edin.
	Yanacaq süzgəcləri tutulmuşdur.	Yanacaq süzgəclərini dəyişin.
	Yanacağın keyfiyyəti aşağıdır.	Tələb olunan yeni yanacaqdan istifadə edin.
	Forsunkalar tutulub və ya nasazdır.	John Deere dilerinə müraciət edin.

Nasazlığın aradan qaldırılması		
1	**2**	**3**
	Turbo havaverici işləmir.	John Deere dilerinə müraciət edin.
Mühərrik çox qızmışdır.	Mühərrik çox yüklənmişdir.	Hərəkət sürətini azaldın.
	Soyuducu maye azdır.	Radiatora soyuducu maye əlavə edin. Maye sızılma yerlərini bərpa edin.
	Radiatorun qapağı nasazdır.	Texniki xidmət göstərin və yoxlayın.
	Silindrlər başlığının araqatı sıradan çıxmışdır.	John Deere dilerinə müraciət edin.
	Yan torlar çirklənmişdir.	Torları təmizləyin.
	Radiator zibillənmişdir.	Təmizləyin.
	Termostat nasazdır.	Sökün və yoxlayın.
	Ventilyatorun qayışı yararsızdır.	Yeyilimş qayışı dəyişin.
	Yağda özlülük azdır.	Yağı dəyişin.
	Su ilə işlədilir.	Soyuducu sistemi tələb olunan soyuducu maye ilə işlədin.
Mühərrikin temperaturu normadan aşağıdır.	Termostat , manometr və datçik nasazdır.	Sökün və yoxlayın.
Yağın təzyiqi aşağıdır.	Yağın səviyyəsi aşağıdır.	Mühərrikin karterində yağın səviyyəsini yoxlayın və lazım gələrsə əlavə edin.
	Yağ uyğun tipdən deyil.	Karteri boşaldın və lazım olan yağı tökün.
Mühərrik çox yağ sərf edir.	Yağ sızılır və ya mühərrik çox qızır.	Yağ borularında və araqatılarından yağın sızılmasını yoxlayın və sızmanı aradan qaldırın.
	Mühərrikin karterinə özlüyü aşağı olan yağ tökülmüşdür.	Karteri boşaldın və lazım olan yağı əlavə edin.
	Mühərrikin dövrlər sayı çoxdur.	John Deere dilerinə müraciət edin.
	Yağın təzyiqi yüksəkdir.	John Deere dilerinə müraciət edin.

Nasazlığın aradan qaldırılması		
1	**2**	**3**
	Hava yığıcı sistemi tutulmuşdur.	Hava yığıcını təmizləyin.
	Forsunkalar tutulub və ya nasazdır.	John Deere dilerinə müraciət edin.
Mühərrik qara tüstü verir.	Yanacaq münasib növdə deyil.	İş şəraitinə uyğun olan yanacaq istifadə edin.
	Hava təmizləyici tutulub və ya çirklənmişdir.	Hava təmizləyicinin təmiz olduğuna əmin olun.
	Mühərrik çox yüklənir.	Hərəkət sürətini azaldın.
	Forsunkalar tutulub və ya nasazdır.	John Deere dilerinə müraciət edin
	Yanacaq sistemində hava var.	Qida sistemindən havanı xaric edin.Bütün birləşmələri və çəndə yanacağın səviyyəsini yoxlayın.
Mühərrik ağ tüstü verir.	Mühərrik soyuqdur.	Normal işçi temperaturuna qədər mühərriki qızdırın.
	Yanacağın keyfiyyəti pisdir.	Tövsiyə olunan yanacaqdan istifadə edin.
	Termostat nasazdır.	Sökün və yoxlayın.
Akkumulyator batareyası cərəyan götürmür.	Batareya nasazdır.	Batareyanı dəyişin.
	Dəyişən cərəyan generatorunun qayışı boşalıb.	Nizamlayın və ya dəyişin.
Dövrlər sayı azdır və ya starter nasazdır.	Batareyadan tələb olunan miqdarda cərəyan gəlmir.	John Deere dilerinə müraciət edin.
	Təhlükəsizlik açarı birləşdirilməmişdir.	Hidroqolu neytral vəziyyətdə qoyun.
	Starterin solenoidi nasazdır.	Təmir edin və ya dəyişin.

Nasazlığın aradan qaldırılması

Elektrik avadanlığı

1	2	3
Ventilyatorun dəyişdirici açarı birləşmir.	Xamut üzərində ventilyatorun işəsalma mexanizminin qaykası boşalmışdır.	İşəssalma mexanizminin milinin bərkidici boltlarını sıxın.
Voltmetr batareyanın aşağı təzyiqini göstərir. (alışdırma açarı ayrılmış və mühərrik söndürülmüşdür.)	Mühərrikin dövrlər sayı aşağıdır.	Sürəti artırın.
	Generator nasazdır.	John Deere dilerinə müraciət edin.
	Qayış sürüşür.	Qayışı tarımlayın.
Voltmetr gərginliyi çox göstərir.	Dəyişən cərəyan generatorunda birləşmələr nasazdır.	Naqillərin birləşmələrini yoxlayın.
	Nizamlayıcı nasazdır.	John Deere dilerinə müraciət edin.

Nasazlığın aradan qaldırılması		

Sürücünün kabinası

1	2	3
Hava seli aşağıdır.	Hava süzgəcləri tutulmuşdur.	Süzgəcləri təmizləyin.
	Hava yığıcının torlu süzgəci tutulmuşdur.	Torlu süzgəci təmizləyin.
	Qızdırıcıda hava yolunda maneə vardır.	Gövdəni sıxılmış hava ilə təmizləyin.
	Hava vurucunun mühərriki nasazdır.	John Deere dilerinə müraciət edin.
	Boru birləşmələrində boşluq var.	Boru birləşmələrini dəyişin.
Qızdırıcıdan suyun axıdılması .	Rezin boruların sıxıcıları boşdur.	Xomutları bərkidin.
	Qızdırıcının rezin borusu qırılmışdır.	Rezin borunu dəyişin.
	Karter zibillənmişdir (kondisioner)	Karteri təmizləyin.
	Süzücü boru tutulmuşdur. (kondisioner)	Süzücü borunu təmizləyin.
Ventilyator, şüşətəmizləyən və kompressor işləmir.	Mühərrik nasazdır.	John Deere dilerinə müraciət edin.
	Naqillər qırılıb və boşalmışdır.	Elektrik naqillərini təmir edin və ya dəyişin.
Kabinada xoşagəlməz iy var.	Hava süzgəci çirklənmişdir.	Süzgəci təmizləyin.
	Süzücü boru tutulmuşdur.	Süzücü borunu təmizləyin.
Soyutma yaranmır.	Torlu hava süzgəci çirklənmişdir.	Süzgəci təmizləyin.
	Radiatorda zibil vardır.	Radiatoru təmizləyin.
	Xladaqent çox azdır.	John Deere dilerinə müraciət edin.
	Kompressorun qayışı boşalmışdır.	Remeni tarımlayın.
	Qızdırıcı birləşdirilmişdir.	Qızdırıcını ayırın.
	Kompressorun muftası birləşmişdir.	Elektrik naqillərini yoxlayın.

Nasazlığın aradan qaldırılması		
1	**2**	**3**
	Genişləndirici klapan işləmir.	John Deere dilerinə müraciət edin.
	Xladaqent sistemi tutulmuşdur.	John Deere dilerinə müraciət edin.
	Birləşdirici naqillər boşalmışdır.	Naqilləri bərkidin.
	Temperaturu nizamlayan ayırıcı işləmir.	John Deere dilerinə müraciət edin.
	Ətrafda havanın temperaturu aşağıdır.	Havanın qızmasını gözləyin.
	Muftanın dolağı yanmışdır və ya nasazdır.	John Deere dilerinə müraciət edin.
	İdarəetmə sistemində qısaqapanma vardır.	John Deere dilerinə müraciət edin.
Voltmetrin əqrəbi aşağı qırmızı zolaq üzərində durmuşdur.	Dəyişən cərəyan generatoru nasazdır.	Generatorun daxilindən zibili təmizləyin, xarici torunu təmizləyin.
	Dəyişən cərəyan generatoru birləşdirilməmişdir.	Alışdırma açarını açın və mühərriki söndürün. Dəyişən cərəyan generatorunda gərginliyi yoxlayın.
	Elektrik sistemi çox yüklənmişdir.	Faraları söndürün. Hava vurma sürətini azaldın. Kondisionerin torunu və süzücü elementini təmizləyin.
Voltmetrin əqrəbi yuxarı qırmızı zolaq üzərində durmuşdur.	Dəyişən cərəyan generatoru yüksək güc verir.	John Deere dilerinə müraciət edin.
Qızdırıcı birləşmir.	Qızdırıcının şlanqları düzgün birləşdirilməmişdir.	John Deere dilerinə müraciət edin.
Qızdırıcı kabinanı isitmir.	Qızdırıcının borucuqlarında hava var.	Qızdırıcıdan havanı xaric edin.
	Mühərrikin termostatı nasazdır.	Termostatı dəyişin.
	Kondisioner birləşmişdir.	Kondisioneri ayırın.
	Qızdırıcının kontrol klapanı nasazdır.	John Deere dilerinə müraciət edin.
Avtomaqnitola işləmir.	Qoruyucu yanmışdır.	Qoruyucunu dəyişin.

Nasazlığın aradan qaldırılması

Yağlama sistemi

1	2	3
Siqnal lampaları lazım olan qaydada işləmir	Yağ bakı boşdur.	Baka yağ tökün.
	Çənin qapağında hava deşiyi tutulmuşdur.	Təmizləyin.
	Yağlama sisteminin nasosunun qayışı boşalıb və ya qırılmışdır.	Qayışın tarımlığını nizamlayın.
	Kompressorun elektromaqnit muftası birləşmir.	John Deere dilerinə müraciət edin.
	Elektrik naqilləri düzgün birləşdirilməmişdir.	Yoxlayın və nasazlığı bərpa edin.
	Nasos fırlanmır.	John Deere dilerinə müraciət edin.
	Sovurucu xətlərdə axıntı var.	Fitinqləri sıxın.
	Təzyiq ayırıcı açar işləmir	Dəyişin.
	Süzgəc tutulmuşdur.	Dəyişin.
	Yağın və ya xladaqentin özlüyü azdır.	Tövsiyyə olunan materiallardan istifadə edin.
Səs siqnalı işləyir.	Şlanqlar zədələnmiş, əyilmiş və ya deşilmişdir.	Şlanqları dəyişin.
	Yağın və ya xladaqentin özlüyü azdır.	Tövsiyyə olunan materiallardan istifadə edin.
Səs siqnalı və ya nasos sönmür.	Ayırıcı açar nasazdır və ya qırılmışdır.	Dəyişin.
	Naqillər yeyilmişdir.	Naqilləri təmir edin.
	Təzyiq açarı nasazdır.	Dəyişin.
Yağ qovucu nasos işləmir.	Xətlərin yeri dəyişdirilmişdir.	Xətlərin yerlərini dəyişin.
	Yağın və ya xladaqentin özlüyü azdır.	Tövsiyyə olunan materialdan istifadə edin.
	Nasoslar arasında birləşmələr pozulmuşdur.	Birləşmələri təmir edin və ya dəyişin.
	Daxili nasos və ya motor nasazdır.	John Deere dilerinə müraciət edin.
	Şlanqlar əyilmişdir və ya zədələnmişdir.	Şlanqları təmir edin və ya dəyişin.

Nasazlığın aradan qaldırılması

ROW-TRAK

1	2	3
Sistem birləşmir.	ROW-TRAK nəzarətinə elektrik cərəyanı verilmir.	Aparatlar işləmir. Sistemi birləşdirin.Qoruyucuları və naqilləri yoxlayın.
	Sistemin ayırıcı açarı düzgün qoyulmamışdır.	Ayırıcı açarı düzgün qoyun. Elə edin ki , 4, 5, 6 kontaktları yan pəncərəyə tərəf yönəlsin.Tünd göy naqil 6 kontaktına birləşsin.
Sistem kalibrovki rejiminə keçmir.	Kalibrovki dəyişdirici açarı düzgün qoyulmamışdır.	Ayırıcı açarı düzgün qoyun. Elə edin ki , 4, 5, 6 kontaktları yan pəncərəyə tərəf yönəlsin. Sarı naqil isə 6 kontaktına birləşsin.
Sistem klapanı işlətmir.	Ekranda həmişə 236 kodu əks olunur.	Mühərrikin dövrlər sayını 1800 dövr/dəq-dən çox qoyun. Yoxlayın və lazım gələrsə təzyiq relesini dəyişin.
	İstiqamətverici təkərlər mərkəzi vəziyyətdə qoyulmamışdır.	Maşını xoda salmazdan qabaq istiqamətverici təkərləri mərkəzi vəziyyətdə saxlayın. 8-ci kanalı yoxlayın ki, klapanın göstəricisi tələb olunan diapazonda olsun.
	ROW-TRAK sisteminin boru xətləri düzgün birləşdirilməmişdir.	6-cı kanalın köməyi ilə sükan idarəetmə mexanizminin işini yoxlayın.
	ROW-TRAK sisteminin naqilləri düzgün birləşdirilməmişdir.	6-cı kanal vasitəsi ilə yoxlayın. Sağ və sol dönmə siqnallarını birləşdirin. Qırmızı –qəhvəyi naqillərin yerini dəyişin.
	Arxa təkərin datçiki nasazdır.	Datçiki dəyişin.

23. Maşının qorunub saxlanması

Qorunma üçün təklif olunan yağ və paslanmaya qarşı inqibitor

Kombaynı və mühərriki qorunmaya qoyduqda John Deere firmasının NAR41785 komplektindən istifadə edin.



Maşını qorunmaya hazırladıqda

Əgər kombayn 30 gün və daha çox işləməmişsə onda aşağıdakı əməliyyatları yerinə yetirin.

1. Paslanmanın baş verməməsi üçün kombaynı daxildən və xaricdən yaxşı təmizləyin.
2. Şpindelləri təmizləyin.
   Qeyd : *Aparatları su vasiəsi ilə təzyiqlə yuduqda suyu kombaynın xarici kipləşdirici hissələrinə və ya yığıcı aparatın reduktorunun deşiklərinə tərəf yönəltməyin.*

Mütləq: Yığıcı aparatı qorunmaya qoyduqda onu təmiz yumaq və yağlamaq lazımdır ki, sonradan həmin hissə paslanmasın.

3. Yığıcı aparatları xaricdən yaxşı yumaq lazımdır. Əmin olun ki , onlar yaxşı qurudulmuşdur. Yığıcı mexanizmin üzərinə yağ çiləyin ki, sonradan həmin hissələrdə paslanma baş verməsin.
4. Maşını tam yağlayın. Nizamlama boltlarının və yivlərinin səthlərini yağlayın. Yığıcı aparatı o qədər işlədin ki , onun bütün hissələri yağlansı

<u>Mütləq:</u> Su nasosunun zədələnmə təhlükəsi vardır. Su tökmədən nasosu işlətməyin.

5. Su bakından torlu süzgəci (A) sökün mayeni buraxın. Bunun üçün klapan (B) və maşının sol tərəfindən üç süzücü klapanı (C) açın. Torlu süzgəci dəyişin və klapanı bağlayın.
6. İstehsalçının təlimatına uyğun olaraq ekoloji təmiz antifrizi RV lazım olan miqdarda su ilə qarışdırın.
7. Soyuducu sistemin çəninə RV antifriz qarışığını tökün. Sistemi bir qədər işlədin ki, antifriz xətlərlə forsunkalara qovulsun.
8. Qarışığı qovan nasosun qayışını açın.



A- Torlu süzgəc
B- Nippel
C- Klapanlar (3 ədəd)

9. Mayeni süzün və çənləri yenidən hidravlik və hidrostatik yağlarla doldurun. Çənə və transmissiyaya 180 ml korroziya inqibitoru əlavə edin.
10. Lazım olan yerlərdə yağı yeniləyin.
11. Yığıcı aparatları dayaqlar üzərinə qoyun.
12. Kombaynı kolodkalar üzərində qoyun ki, şinlər yüklənmədən azad olunsun. Şinləri asfalt və torpaqla təmasda qorumayın. Şinlərdən havanı buraxmayın. Əgər kombayn binadan xaricdə qorunursa, təkərləri sökün və onları qaranlıq yerdə qoruyun
13. Bütün qayışları boşaldın.
14. Yağsoyuducunu təmizləyin.
15. Növbəti yığım mövsümü üçün ehtiyyat hissələri sifariş verin



Mühərriki qorunmaya hazırlamaq



<u>Diqqət</u>: Benzin tez alışıb yanan materiladır. Mühərriki qorunmaya hazırladıqda yuyucu material kimi ondan istifadə etməyin. Bu çox təhlükəlidir.

1. Mühərrikin xarici səthini təhlükəsiz yuyucu materialla yuyun.
2. Hava süzgəcini təmizləyin və ya dəyişin.
3. Mühərriki qızdırın və karterdən yağı süzün. Süzgəci qoyun və karterə yağ tökün (Hər 250 saat işdən sonra).Soyuducu sistemdən mayeni süzməyin ki , onun buz bağlamasının qarşısı alınsın. Çünki maye sistemdən süzüləndən sonra onun bir hissəsi kabinanın qızdırıcısında qalır, bu da sistemi zədələyir.
4. Mühərrikdən soyuducu mayeni boşaldın və sistemi yuyub təzə soyuducu maye tökün. Mühərriki işə salın və onun normal işçi temperaturuna qədər qızmasını təmin edin.
5. Yanacaq çənini (A) boşaldın və tərkibinə 414 ml korroziyaya qarşı inqibitor əlavə olunmuş 38 l dizel yanacağı tökün. Mühərriki işə salın və onu 15-20 dəqiqə ərzində yüksək dövrlər sayında işlədin. Sonradan onu 15-20 dəqiqə ərzində soyudun.
6. Mühərrikin karterinə 296 ml korroziyaya qarşı inqibitor tökün.
7. Akkumulyator batareyalarını açın və onları 27 ° S temperaturlu otaqlarda qoruyun. Lazım olduqda batareyaları hər 30 gündən bir cərəyanla doldurun.

8. Radiatoru (A və B) təmizləyin.

9. Sancaqları açın (A) və radiatoru (D) təmizləyin.

10. İnqibitor parlarının itməsinin qarşısını almaq üçün aşağıda göstərilən deşikləri lentlə və ya plastik kisələrlə bağlayın.

- Xaricetmə borusu
- Havatəmizləyicinin ilkin təmizləyici hissəsi
- Yağ şupu və mühərrikin borusu
- Karterin sapununun borusu

A- Yağsoyuducu
B- Hava kondisionerinin kondensatoru
C- Fiksator
D- Radiator

Kombaynın texniki xarakteristikası

1. Yığıcı aparatlar	
Aparatların sayı	4 və ya 5
Yığıcı barabanların sayı	8 və ya 10
Şpindel kasetlərinin sayı (hər barabanda)	12
2. Şpindellərin sayı	
Hər kasetdə	18
Hər yığıcı aparatda	432
Hər maşında	1728(4-cərgəli), 2160(5-cərgəli)
3. Standart avadanlıqlar-yığıcı aparatlar	
	Cərgədə işləyən aparatların hündürlüyünü avtomatik nizamlayan
4.Yığıcı aparatın sürəti	
Yığıcı aparatın hərəkət ötürücü valı , dövr/dəq	1473
Yığıcı aparat, dövr/dəq	0-170
Ayırıcının valı, dövr/dəq	0-1832
5. Pambıq ventilyatoru	
Sürəti (mühərrikin 2350 dövr/dəq sayında), dövr/dəq	4000 dövr/dəq
6. Hərəkət sürəti , 2 təkərə hərəkət ötürmə	
Yığım zamanı, 1-ci ötürmə, km/saat	0-6.1
Yığım zamanı, 2-ci ötürmə,	0-7.2
Nəqliyyat sürəti, 3-cü ötürmə, km/saat	0-25.1
Arxa gediş, 1-ci ötürmə, km/saat	4.3
Arxa gediş, 2-ci ötürmə, km/saat	5.0
Arxa gediş, 3-cü ötürmə, km/saat	17.2
7. **Hərəkət sürəti , 4 təkərə hərəkət ötürmə**	
Yığım zamanı, 1-ci ötürmə, km/saat	0-4.7
Yığım zamanı, 2-ci ötürmə, km/saat	0-5.6
Nəqliyyat sürəti, 3-cü ötürmə,	0-14.5
Revers	0-8.0
8.Həcmlər	
Pambıq bunkeri, m^3	30.2, 32.2
Yanacaq bakı, L	454
Su qarışığı üçün bak, L	1040.8
Yağlama sistemi, L	254
Mühərrikin karteri , L	31.5
Hidroötürmə sistemi, L	62.5
Hidravlik bak/ hidrostatik transmissiya, L	34
Son ötürücü, L	7.8

Kombaynın texniki xarakteristikası

9.Şinlər	
Qabaq aparan təkərlər	520/85D38
Arxa istiqamətverici təkərlər	14.9-248PR
Arxa istiqamətverici təkərlər	9.00-248PR
Aparıcı arxa istiqamətverici təkərlər	14.9-2412PR
10.Tormozlar	
Tipi	Hidroötürməli , kolodkalı, çuqunlu barabanla
11.Hidrosistem	
Tipi	Bağlı təzyiqlə
Boş gedişin təzyiqi, kPa	17170-17860
Yağ süzgəci	Bir mərhələli
Yağsoyuducu	Su ilə soyutma
12.Son ötürücü	
Tipi	Qipoid ötürmə
13. Elektrik avadanlığı , volt	
Tipi	12
Akkumulyator batareyası	GRP31, 925CCA
Generator, A	120
İndikatorların və aparatın monitorunun lampaları	AL65575
Arxa faraların lampası	Tipi 3057
Siqnal faralarının lampası (qabaq və arxa)	Tipi 1156
14.Quruluşu	
İstehsalçı	John Deere
Model	9970
Silindirlərin sayı, ədəd	6
Silindirin diametri , mm	106
Gedişi, mm	127
Silindirin işçi həcmi, L	6.8
Nominal gücü, kVT	187
Boş gedişdə mühərrikin dövrlər sayı, dövr/dəq	2350
Nominal dövrlər sayı, dövr/dəq	2200
15. Yanacaq sistemi	
Tipi	Birbaşa püstürmə
Nasosun tipi	Bir cərgəli çox plunjerli
Yanacaq süzgəci	Yuyucu 60 mikron, standart
16.Mühərrikin hava sistemi	
Hava süzgəci	Quru tipli qoruyucu elementlə və süzgəclə

Kombaynın texniki xarakteristikası

17.Mühərrikin soyutma sistemi	
Tipi	Birkonturlu, dişli çarxlı, ötürməli su nasosu
18.Kabina	
Tipi	Kondisionerli, qızdırıcılı, şüşətəmizləyici və arxa güzgülü kabina
19.Qızdırıcı	
Həcmi, Vt/saat	5274
Kondisionerin modeli	Nippon Denso
Həcmi , kVt/saat	64.46
Xladaqent, A	R-134
20. Qabarit ölçüləri, mm	
Hündürlüyü	3759
Eni	3861
Uzunluğu	7884
Koleyası , mm	2223

Qabarit ölçülər

A-3651 mm

B-3861 mm

C-3759 mm



Pambıqyığan kombayn

John Deere 9970

İSTİSMAR TƏLİMATI

Lənkəran -2017

John Deere 9970 markalı pambıqyığan kombaynın istismar təlimatı Lənkəran Dövlət Maşın Sınaq Stansiyasının mütəxəssisləri tərəfindən işlənib tərtib edilmişdir.